# Azərbaycan Mərkəzi və Şərqi Avropa regional qrupuna sədr və COP16 Bürosuna üzv seçilib

**Dekabrın 2–13-də Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində keçirilən BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasının 16-cı Tərəflər Konfransı (COP16) çərçivəsində Azərbaycan Respublikası yekdilliklə təmsil olunduğu Mərkəzi və Şərqi Avropa regional qrupuna 2 il müddətinə sədr və COP16 Bürosuna üzv seçilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən bildirilib ki, sədrlik dövründə ölkəmiz, həmçinin qurumun Tərəflər Konfransının vitse-prezidentliyini də həyata keçirəcək.



Qeyd olunub ki, qrupa Azərbaycan Respublikası ilə birlikdə Şərqi və Mərkəzi Avropadan 15 dövlət daxildir.

2001-ci ildə COP5 çərçivəsində təsis edilmiş UNCCD-nin Şərqi və Mərkəzi Avropa qrupunun Regional Fəaliyyət Proqramı 2015-ci ildə təsdiqlənib. Qrup çərçivəsində regional fəaliyyətin gücləndirilməsi, biliklərin artırılması, ekoloji kənd təsərrüfatı və sair prioritet sahələr müəyyən olunub.

On iki regionun təmsil olunduğu COP16 Bürosunun əsas vəzifələri COP qərarlarının həyata keçirilməsinə nəzarətin və gələcək COP iclasları üzrə işlərin təşkilidir. COP Bürosu, həmçinin COP sessiyaları arasında həyata keçirilən öhdəliklərin icrasına nəzarət edir.

**XQ**


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 267 (30671) 4 dekabr 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Dünya Azərbaycanın COP29 liderliyini yüksək qiymətləndirir

## Prezident İlham Əliyev Mavritaniya səfirinin etimadnaməsini qəbul edib



Səhifə ⇨ 2

## Bu il Orta Dəhlizlə 300 konteyner qatarı yola salınıb



**Sian şəhərindəki Qazaxıstan – Çin terminalından Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə cari ilin əvvəlindən 300 konteyner qatarı yola salınıb. "Qazaxıstan Dəmir Yolu" Şirkətinin mediada yayılan məlumatına görə, qatar "ADY Express" (Azərbaycan) və "Xi'an Free Trade Port" (Çin) ilə birgə əməkdaşlıq çərçivəsində göndərilib.**

(ardı 9-cu səhifədə)

## Papikyanın ABŞ-yə səfəri – Vaşinqtonun Moskvaya "jesti"

***İrəvan Baydendən ala bilmədiklərini Trampdan qoparmaq niyyətindədir***



**Rəsmi İrəvanın hazırda atdığı heç bir addım təsadüfi sayıla bilməz. Son vaxtlar Paşinyan komandasının xarici siyasətdə "ölçülü-biçili" diplomatiyaya keçid almasının konturları görünməkdədir. Doğrudur, bu zaman haylar beynəlxalq etiketi, siyasi həddi elə özlərinə xas şəkildə aşmaqdan da çəkinmirlər.**

Ermənistanın müdafiə naziri Suren Papikyan növbəti dəfə ABŞ-yə səfərə gedib. Hayların müdafiə nazirliyinin qısa məlumatında deyilir ki, Papikyanın başçılıq etdiyi heyət Vaşinqtona işgüzar səfərə yollanıb.

(ardı 3-cü səhifədə)

## Paşinyanın sülhə alternativi – Avrointeqrasiya

*"EuroVote" ilə bağlı diqqətçəkən məqamlar*



**Ermənistanın hakim "Vətəndaş sazişi" partiyası parlamentdə "EuroVote" təşəbbüsü ilə çıxış etməyi planlaşdırır. Gürcüstanda yaşanan proseslər fonunda İrəvanda belə bir təklifin irəli sürülməsi bəzi mətləblərdən xəbər verir. Düşünmək olar ki, baş nazir Nikol Paşinyanın komandası özfəaliyyətlə məşğuldur və sözügedən qanunvericilik təşəbbüsünü irəli sürməklə, Qərbə sadiqliyini göstərmək məqsədi güdür. Yəni təxminən belə, gürcülər pisdir, biz yaxşıyıq.**

Amma özündə Avropa İttifaqına qoşulmaq prosesinə start verilməsini ehtiva edən "EuroVote"un məqsədi yalnız bildirdiyimizlə məhdudlaşır. Mövcud xüsusda bir neçə vurğulanmalı məqam var. Ən başlıca məqam isə Ermənistan rəhbərliyinin Azərbaycanla sülhdən yayınmasıdır. Bu barədə yazımızın sonunda söz açacağıq...

(ardı 4-cü səhifədə)

## İndiki etirazlardan "qızılgül qoxusu" gəlmir

**Gürcüstanda postseçki dövrü radikal müxalifət ünsürlərinin və qərbpərəst QHT nümayəndələrinin, eləcə də "demokratiya romantikləri"nin aqressiv iştirakı ilə çox gərgin keçir. Parlament seçkilərində məğlubiyyətini hazm edə bilməyən qüvvələr Qərbin təhriki ilə ölkəni xaosa sürükləməyə çalışırlar. Bir neçə gündür ki, polis qüvvələrinin çağırışlarına məhəl qoymayan etirazçılar paytaxt küçələrini qarşıdurma poliqonuna çevirməyə cəhd edirlər. Avropadan, eləcə də okeanın o tayından səsləndirilən bəyanatlar və qəbul edilən qərarlar da anti-hökumət qüvvələrinin aqressivliyini daha da artırır. Belə görünür ki, Qərb birmənalı şəkildə Cənubi Qafqaz regionunda bölücü xətləri dərinləşdirərək, geosiyasi ambisiyalarını təmin etmək istəyir.**

(ardı 6-cı səhifədə)



## Suriya: Hələbin ələ keçirilməsi nələr vəd edir?



**Suriya 11 ildir ki, ağır vətəndaş müharibəsi şəraitində yaşayır. Etirazlar qismən səngisə də, narazılıqlar qalır. Bəşər Əsəd rejimi İran və Rusiyadan hərtərəfli dəstək almasına rağmən, ölkədə ədalətli idarəçilik qurmaq gücündə deyil. Hərbi və siyasi müxalifət isə son günlərə qədər səsini qısıb əlverişli məqam gözləməklə məşğul idi.**

(ardı 11-ci səhifədə)

## Kredit şərtləri asanlaşdırılır

**Bu il noyabr ayının 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 479,8 milyon manat təşkil edib. Mərkəzi Bankın məlumatına əsasən, bu göstərici ilin əvvəli ilə müqayisədə 9,6 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 8,9 faiz artıb. Vətəndaşlar isə gecikmiş kreditlərin artmasının səbəbini faizlərin çox olması ilə əlaqələndirirlər.**



İqtisadçılar isə bildirirlər ki, vaxtı keçmiş kreditlərin sayının artmaması üçün bəzi qaydalara dəyişiklik edilməlidir. Bank Olmayan Kredit Təşkilatlarının (BOKT) yaranması və fəaliyyəti də vaxtı keçmiş kreditlərin artmasına müəyyən dərəcədə təsir edir. Belə ki BOKT-lər, banklara nisbətən daha az tələblə və daha sürətli şəkildə kredit verə bilirlər. Borcalanlar ödəmə qabiliyyətlərini düzgün qiymətləndirə bilmədikdə isə bu borcların vaxtında ödənilməməsi riski artır.

(ardı 9-cu səhifədə)

# Prezident İlham Əliyev Mavritaniya səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Mavritaniya İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sid Əhməd əl-Bekaye Hamadinin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycanın və Mavritaniyanın ənənəvi olaraq dostluq şəraitində əməkdaşlıq etməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı bunun beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də qarşılıqlı dəstək və birgə fəaliyyətdə də özünü büruzə verdiyini dedi. Prezident İlham Əliyev müxtəlif sahələrdə münasibətlərimizin möhkəmləndirilməsinin önəminə toxunaraq, siyasi əlaqələrimizin genişləndirilməsinin, ikitərəfli əməkdaşlığın inkişafında qarşılıqlı səfərlərin təşkilinin, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini qeyd etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir, ilk növbədə, Mavritaniya Prezidenti Məhəmməd uld Şeyx əl-Qazuaninin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Sid Əhməd əl-Bekaye Hamadi vurğuladı ki, Mavritaniya Prezidenti dost ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi və möhkəmləndirilməsi ilə bağlı ona tapşırıqlar verib.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mavritaniya Prezidentinə çatdırmağı xahiş etdi.

Sid Əhməd əl-Bekaye Hamadi COP29-un çox uğurla keçirilməsi və Azərbaycan Prezidentinin müdrik rəhbərliyi ilə ölkəmizin böyük nailiyyətlər qazanması və sürətli inkişafı münasibətilə təbriklərini çatdırdı.

Ölkələrimiz arasında əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğunu deyən səfir səhiyyə, təhsil, kənd təsərrüfatı, balıqçılıq və mədənçilik sahələrindəki geniş imkanları qeyd etdi. O, həmçinin Mavritaniyadan olan tələbələr üçün Azərbaycanda təhsil təqaüdlərinin verilməsi imkanlarına baxılmasını xahiş etdi.

Görüşdə ikitərəfli iqtisadi-ticari əlaqələrin potensialının araşdırılması üçün müvafiq işçi qruplarının yaradılması və səfərlərin təşkil edilməsi məsələsi qeyd olundu.

Söhbət zamanı elm və təhsil sahələrində əməkdaşlıqla bağlı da fikir mübadiləsi aparıldı.

# Yəmən səfirinin etimadnaməsi qəbul edilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Yəmən Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Saleh Əhməd Turiqin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı COP29 zamanı Yəmənin vitse-prezidenti ilə görüşünü xatırladaraq, bunun əlaqələrimizin tarixində bu səviyyədə ilk görüş olduğunu qeyd etdi və orada müzakirə olunan məsələlərin həyata keçirilməsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev, ilk növbədə, beynəlxalq müstəvidə qarşılıqlı dəstəyin davam etdirilməsinin, iqtisadi sahədə, o cümlədən ticarət, sərmayə qoyuluşu və digər istiqamətlərdə imkanların araşdırılmasının zəruriliyini bildirdi.

Səfir, əvvəlcə Yəmən Prezident Şurasının sədri Rəşad Məhəmməd əl-Aliminin salamlarını və Azərbaycan xalqının rifahı ilə bağlı yeni uğurlar arzusunu Prezident İlham Əliyevə, həmçinin Yəmən xalqının salamlarını Azərbaycan xalqına çatdırdı. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Yəmən Prezident Şurasının sədrinə çatdırmağı xahiş etdi.

Məhəmməd Saleh Əhməd Turiq, eyni zamanda, bu günə qədər beynəlxalq təşkilatlar çərçivəsində Yəmənə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi və bunu yüksək qiymətləndirdiklərini dedi.

Səfir COP29-un çox yaxşı səviyyədə təşkili ilə bağlı təbriklərini ifadə edərək vurğuladı ki, bu tədbir dövlətimizin başçısının müdrik rəhbərliyini bütün dünyaya göstərdi, COP29-da iştirak edənlər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın gücünün, qüdrətinin bir daha şahidi oldular.

Məhəmməd Saleh Əhməd Turiq Azərbaycan ərazilərinin işğaldan azad edilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bu yaxınlarda Qarabağa səfərini məmnunluqla xatırladı və bundan şərəf duyduğunu dedi. Səfir dövlətimizin başçısının rəhbərliyi ilə orada aparılan bərpa və quruculuq işlərinin böyük heyranlıq doğurduğunu vurğuladı, qısa müddətdə şəhərlərin salınmasının, yol-nəqliyyat qovşaqlarının, tunellərin ərsəyə gətirilməsinin Azərbaycan dövlətinin gücünün bir daha təzahürü olduğunu qeyd etdi.

Diplomat Yəmənin hər zaman Azərbaycanın yanında olduğunu deyərək, iki qardaş ölkə arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı səylərini əsirgəməyəcəyini bildirdi. Səfir Yəmənin iqtisadi sahədə də Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olduğunu vurğuladı və bununla bağlı ölkəsinin iş adamlarının Azərbaycana səfərinin təşkilinin önəmini qeyd etdi.

Hələ sovet dövründə Azərbaycanda Yəməndən çoxsaylı tələbənin təhsil aldığını və həmin mütəxəssislərin müxtəlif sahələrdə Yəmənin inkişafına töhfə verdiklərini deyən səfir yəmənli tələbələrin ölkəmizdə təhsil alması ənənələrinin davam etdirilməsinin vacibliyinə toxundu.

Söhbət zamanı Azərbaycanın və Yəmənin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd olundu, iqtisadiyyat, ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə işbirliyi imkanlarının araşdırılmasının vacibliyi bildirildi.

***AZƏRTAC***

# E.S.İsayevin Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Elbrus Saleh oğlu İsayev Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 dekabr 2024-cü il**

# El-Salvador səfiri etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də El-Salvador Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Enrike Haime Kalderonun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı əməkdaşlığımızın qurulması istiqamətində səfirin öz səylərini əsirgəməyəcəyinə, bu baxımdan onun Azərbaycanın rəsmi qurumları ilə səmərəli əlaqələr quracağına ümidvar olduğunu bildirərək, bir sıra sahələrdə, o cümlədən, iqtisadi əməkdaşlıqla bağlı imkanların müəyyənləşdirilməsinin zəruriliyini vurğuladı.

Səfir, ilk növbədə, COP29-da ölkəsinin iştirakını məmnunluqla xatırlayaraq, bu tədbirin yüksək səviyyədə təşkil edilməsi ilə bağlı Azərbaycan Prezidentini təbrik etdi. O vurğuladı ki, COP29-un təşkili, ölkəmizin inkişafı və əldə etdiyi nailiyyətlər, Bakı şəhərinin gözəlliyi bu tədbir zamanı El-Salvadordan Azərbaycana səfərə gəlmiş nümayəndə heyətinə dərin təəssürat bağışlayıb.

Bu il Azərbaycanla El-Salvador arasında diplomatik münasibətlərin yaradılmasının 25 illiyinin qeyd edildiyini deyən Enrike Haime Kalderon müxtəlif istiqamətlərdə əməkdaşlığın qurulmasının vacibliyinə, o cümlədən infrastruktur, nəqliyyat, energetika sahələri üzrə ölkəsinə investisiya qoyuluşu imkanlarının müəyyən edilməsinin önəminə toxundu.

Səfir Azərbaycanın energetika sahəsində böyük uğurlar qazandığını vurğulayaraq, bu istiqamətdə ölkəmizin təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını bildirdi.

Dövlətimizin başçısı əlaqələrimizin irəli aparılması üçün, ilk növbədə, adi insanların və biznes dairələrinin ölkələrimiz barədə daha çox məlumatlanmalarının vacibliyinə toxundu.

Söhbət zamanı Azərbaycanla El-Salvador arasında iqtisadiyyat, ticarət, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivlərin olduğu qeyd edildi.

# "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" təkrar nəşrinin I kitabı

**Azərbaycan Dövlət Nəşriyyatı ("Azərnəşr") "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinə başlayıb.**




Çoxcildliyin birinci kitabına ulu öndər Heydər Əliyevin xalqın istəyi və tələbi ilə yenidən ölkə rəhbərliyinə gəldiyi 1993-cü ildə çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri və s. daxil edilib. Kitabda yer alan materiallar 1993-cü ilin iyunundan oktyabrınadək olan dövrü əhatə edir. Bu materiallarda həmin dövrdə ölkəmizin ictimai-siyasi həyatında baş vermiş mürəkkəb proseslər müdrikliklə, obyektiv şəkildə təhlil olunur. Kitabda müstəqilliyin qorunub saxlanılmasının, inkişaf etdirilməsinin dahiyanə təcrübəsi əksini tapıb, milli dövlət quruculuğu prosesinin başlıca istiqamətləri dəqiqliklə və uzaqgörənliklə müəyyənləşdirilib.

Xatırladaq ki, ümummilli lider Heydər Əliyevin zəngin və mənalı ictimai-siyasi fəaliyyətinin 1993-cü ilin iyunundan sonrakı dövrünü əhatə edən "Müstəqilliyimiz əbədidir" kitabı ilk dəfə "Azərnəşr" tərəfindən 1997-ci ildən başlayaraq 46 cilddə nəfis tərtibatda nəşr edilib. Çoxcildlik respublika ictimaiyyətinə yaxşı məlumdur. Cildlərin xronoloji ardıcıllıqla təqdim edilməsi tədqiqatçılar üçün geniş imkanlar yaradır. Kitablarda Heydər Əliyevin müxtəlif ölkələrə səfərləri, sammitlərdə iştirakı, görüşləri, bəyanatları, məktubları, Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı mühüm çıxışları, Azərbaycana gələn xarici ölkə rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri və digər qonaqlarla görüşləri zamanı çıxış və nitqləri təqdim olunub və bütün bunlar o dövrün öyrənilməsi üçün dərs vəsaiti kimi qəbul olunur.

"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından ruhlanan "Azərnəşr"in kollektivi "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyini təkrar nəşr edib oxuculara çatdırmağı qarşısına məqsəd qoyub. Təkrar nəşrin səbəbi cəmiyyətin bütün təbəqələrindən olan insanların – gənclərin, tələbələrin, tədqiqatçıların, elm adamlarının, dissertantların, politoloqların, iqtisadçıların – bir sözlə, çoxminli oxucu kütləsinin istəyi və tələbatıdır. İnanırıq ki, bu kitabı incəliklərinə qədər öyrənərək mənimsəyən Azərbaycan vətəndaşları qətiyyətlə və məsuliyyətlə deyəcəklər: "Heydər Əliyevin hər bir əsəri dərslikdir – vətəndaşlıq, dövlətçilik və Vətənə sevgi dərsliyi".

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# BTQ-nin icraçı direktoru BMT sessiyasında çıxış edib

**Dekabrın 2-də Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı Baş Qərargahında Afrikaəsilli xalqların hüquqları üzrə ekspertlər işçi qrupunun 35-ci sessiyası başlayıb.**



Məclisin məqsədi əsasən Afrika əsilli xalqların müstəmləkəçilik siyasətindən gördüyü zərərlər ətrafında fikir mübadiləsi aparmaqdır. Müstəmləkəçiliklə mübarizədə fəal beynəlxalq QHT olaraq Bakı Təşəbbüs Qrupu da tədbirə dəvət alıb.

Toplantıda çıxış edən təşkilatın icraçı direktoru Abbas Abbasov qrupun fəaliyyət coğrafiyasının genişlənməsi ilə bağlı məlumat verib və müstəmləkə regionlarındakı cari vəziyyəti tədbir iştirakçılarının diqqətinə çatdırıb. Həmin regionlarda Afrikaəslli xalqların da yaşadığını qeyd edən BTQ-nin icraçı direktoru təşkilat olaraq onların apardığı müstəqillik mübarizələrinə beynəlxalq hüquq çərçivəsində dəstək verməyə və aidiyyəti beynəlxalq təşkilatlara çağırış etməyə davam edəcəklərini bəyan edib.

Sessiya dekabrın 6-dək davam edəcək.

**XQ**

# Papikyanın ABŞ-yə səfəri – Vaşinqtonun Moskvaya “jesti”

**(əvvəli 1-ci səhifədə)**

Aydın məsələdir ki, məğlub ölkənin hərbi nazirinin ABŞ kimi supergücə üz tutmasının yalnız bir məqsədi ola bilər: Ağ Evdən hərbi-texniki və maliyyə yardımı dilənmək. Papikyanın səfərini Azərbaycanla müharibədə rüsvayedici şəkildə məğlubiyyətə uğrayan, indi yeni ordu qurmağa girişən Ermənistanın revanşist xəyallardan əl çəkmək istəməməsi kimi də qiymətləndirmək mümkündür. Sübut üçün



uzağa getməyə ehtiyac yoxdur. Baş nazir Nikol Paşinyanın yaxın adamı sayılan, Avropa partiyasının rəhbəri Tiqran Xzmalyanın bəyanatına nəzər yetirmək kifayətdir. Xzmalyan ərz edib ki, “Ukraynanın Krımın müvəqqəti ilhaqı müqabilində NATO və Aİ-yə üzvlük mexanizmi Dağlıq Qarabağa (?) münasibətdə də tətbiq olunmalıdır”. Müqayisəyə fikir verdinizmi? Yəni, Xzmalyan belə düşünür ki, Krım kimi Qarabağ da hazırda işğal altındadır. Onun diplomatik etiketi aşan bəyanatının altından Ermənistan hakimiyyətinin gizlətməyə çalışdığı əsl niyyətinin sulieti də görünür. Yəni, biz nəyin bahasına olursa-olsun, Qarabağa qayıdacağıq, hətta bundan ötrü müharibə etməyə məcbur olsaq belə.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** dedi ki, Suren Papikyan Ermənistanın müdafiə naziri postuna təyin olunandan sonra hər il Birləşmiş Ştatlara səfərlər edir, Pentaqonda görüşlər keçirir. Doğrudur, ABŞ-nin hərbi naziri onu qəbul etməyib, sadəcə, müavini tərəfindən qəbul olunub. Keçən görüşlərin əsas müzakirə mövzusu hərbi təhsillə bağlı idi. Aydın məsələdir ki, Ermənistanın ABŞ-dən müasir texnika, silah-sursat alacaq qədər maliyyə imkanına malik deyil. Amma danılmaz fakt ondan ibarətdir ki, rəsmi İrəvan Rusiya ilə hərbi sövdələşmələri minimuma endirəndən sonra Qərbin iki dövləti ilə bu sahədə əməkdaşlığa can atır. Bunlar Fransa və ABŞ-dir. Fransadan müəyyən qədər hərbi texnika əldə etsə də, ABŞ-dən hələlik heç bir şey əldə edə bilməyib. Birincisi, həmin hərbi texnika çox bahadır, ikincisi, buna Konqresin xüsusi icazəsi lazımdır. Konqresdə ermənipərəst lobbinin güclü olmasına baxmayaraq, Ermənistanın Rusiyanın dominantlıq etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olaraq qalması faktı İrəvanın əleyhinə işləyən ciddi amildir. Nikol Paşinyan hər dəfə bu hərbi-siyasi blokun fəaliyyətini tənqid atəşinə tutsa da, maraqlıdır ki, Ermənistan bugünədək KTMT-ni tərk etməyib”.

Hazırda ABŞ-da hakimiyyətin demokratlardan respublikaçılara təhvil-təslim prosesi davam edir və Donald Trampın Ağ Evdə administrasiyasını formalaşdırmağa başlayacağına hələ ayyarım qalır. Məlumdur ki, Azərbaycanın Qarabağı separatçı-xunta rejimindən tamamilə təmizləməsi, bunun ardınca İrəvanın Vaşinqtonla hərbi-texniki əməkdaşlıq səylərini artıqması məhz Baydenin prezidentlik dönəminə təsadüf etdi. Pentaqonun həm NATO üzvü olan bəzi ölkələrlə birgə, o cümlədən Ermənistanın özündə hərbi təlimlər keçirməsi də son iki ilin yaddaşındadır. Bunun nəticəsi kimi, hayların müdafiə nazirliyində Pentaqonun emissarının oturmasını göstərə bilərik.



Mövzunun davamı olaraq E.Şahinoğlu 2025-ci il yanvarın 20-dən etibarən Ağ Evdə yeni administrasiyanın formalaşdırılacağını, Pentaqonda da rəhbərliyin dəyişəcəyinə diqqəti yönəltdi: “Görünən odur ki, Ermənistana hərbi dəstək məsələsi Trampı qətiyyən maraqlandırmır. İndi onu daha qlobal problemlər düşündürür. Əgər Papikyan ABŞ-a iki ay bundan sonra səfər etsəydi, bunu başa düşmək olardı. Onda ehtimal edə bilərdik ki, Vaşinqtondakı yeni Administrasiyasının, Pentaqonun təzə rəhbərliyinin Ermənistanla bağlı hansısa planları mövcuddur. İndiki məqamda isə Bayden administrasiyası Papikyanı Vaşinqtona çağırmaqla, bir növ, Moskvaya mesaj göndərir ki, Ermənistan ABŞ ilə hərbi ənəkdaşlığını davam etdirir. Bundan başqa Papikyanın bu səfərdən əlavə nəsə əldə edəcəyini düşünmürəm”.

Ermənistan müdafiə nazirinin Vaşinqtona səfərlər seriyasının fonunda cari ilin yayında Azərbaycanla sərhədə erməni əsilli ABŞ hərbçilərinin və ağır texnikasının gətirilməsi barədə yayılan və hələ də təkzib olunmayan xəbərlər geniş rezonans doğurmuşdu. Rəsmi Vaşinqton foto-video sübutlarla müşayiət olunan həmin informasiyanı bugünədək nə təsdiq, nə də təkzib edib. Bunun üzərinə iki ölkənin şərti sərhədində Bakının razılığı olmadan Avropa İttifaqının “binokllu” casus missiyasının anlaşılmaz fəaliyyətini də gəlsək, “kollektiv Qərb”in bölgədə suyu bulandırmaq planlarının arxasında nəyin gizləndiyini təxmin etmək çətin olmaz.

Donald Trampın Ağ Evə qayıtmasından erməni lobbisinin narahat olduğu şəksizdir. Yəni, ABŞ-dəki erməni diasporu yaxşı anlayır ki, ondan asılı olmayan yeni seçilmiş Prezident Tramp və onun administrasiyası Cənubi Qafqaza o qədər də maraq göstərməyəcək. Ekspertin qeyd etdiyi kimi, Tramp diqqətini dünyanın “daha qaynar nöqtələrində” baş verənlərə yönəldəcək. Fəqət, onun komandasında ermənipərəstlərin kifayət qədər yer alması da danılmaz faktdır.

Bəlkə də Papikyanın Vaşinqtona budəfəki səfəri İrəvanın Bayden administrasiyası ilə hədsiz yaxınlıq etdiyinə görə Trampdan üzrxahlıq diləmək məqsədinə xidmət edir? Ola bilsin ki, Suren Papikyan baş nazir Nikol Paşinyanın təlimatı əsasında ABŞ-nin yeni hökumətinə yaxınlaşmağın yollarını tapmaqdan ötrü göndərilib. Axı, İrəvan üçün Pentaqonla hərbi-texniki əməkdaşlığı bundan sonra da davam etdirmək “srtareji əhəmiyyət” kəsb edir.

Bu məqamda maraqlı bir detalı da xatırlatmağımız yerinə düşər. Donald Tramp seçkiqabağı kampaniyasının sonuna yaxın Kaliforniya ermənilərinə müraciətində arxivə göndərdiyimiz “artsax” ifadəsini işlədib. İntəhası, ABŞ-də seçki təşviqatında verilən vədlərin sonra sadəcə söz olaraq qalmasının az şahidi olmamışıq. Reallıq isə Birləşmiş Ştatlara onu diktə edir ki, onun milli maraqları Cənubi Qafqazda ən yaxın partnyoru, strateji tərəfdaşı kimi məhz regionda söz və güc sahibi olan Azərbaycanı seçsin. Bu seçim hələ də qonşularına qarşı ərazi iddialarından əl çəkməyən, Qərblə Rusiya arasında çapalayan, oturduğu “iki stul”dan yıxılma təhlükəsi ilə üzləşən Ermənistandan daha əlverişlidir.

Nəhayət, Ermənistanın əleyhinə işləyən daha bir fakt: Amerika Erməniləri Milli Komitəsi (ANCA) prezident seçkisində Donald Trampa dəstək çağırışını etmədi. Bunun əksinə olaraq rəsmi Bakı Trampın qələbəsində maraqlı olduğunu büruzə verdi. İrəvan bu dəfə də buraxdığı kobud diplomatik səhvin altını çəkməyə məhkumdur...

***İ.HƏSƏNQALA***
***XQ***

# Qərbi azərbaycanlılar Özbəkistanda da təşkilatlandılar



**Azərbaycanın Özbəkistandakı səfirliyinin dəstəyi ilə bu ölkədə yaşayan Qərbi azərbaycanlıların toplantısı keçirilib, icmanın təşkilat özəyi yaradılıb.**

Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən məclisdə direktor müavini Nadir Əlimirzəyev Qərbi Azərbaycanda ermənilərin əsrlər boyu azərbaycanlılara qarşı törətmiş etnik təmizləmə və deportasiya siyasəti haqqında, eləcə də XIX–XX əsrdə azərbaycanlıların Qafqazın və Ermənistanın ictimai-siyasi, ədəbi-mədəni mühitində oynadıqları mühüm rol barədə məlumat verib.

Qərbi Azərbaycan əsilli Vidadi Qurbanov, Qalib Müslümov, Ədalət Qocamanov, İsmayıl Məmmədov, Dürrə Əmirquliyeva, Emin Quliyev dünyanın müxtəlif ölkələrində yaşayan həmyerlilərinin əlaqəli fəaliyyət göstərməyin vacib olduğunu bildiriblər. Onlar Qərbi azərbaycanlıların dünyanın harasında yaşamaqlarından asılı olmayaraq Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdışla bağlı siyasətinə dəstək verdiklərini vurğulayıblar.

İcma üzvü İlham Abdullayev bildirib ki, toplantının əsas məqsədi “Özbəkistanda yaşayan Qərbi Azərbaycanlılar” İctimai Birliyini yaratmaqdır.

Müzakirələdən sonra Qərbi Azərbaycanın Basarkeçər rayonunun Bala Məzrə kəndindən olan İlham Abdullayev Özbəkistanda Yaşayan Qərbi Azərbaycanlılar İctimai Birliyinin sədri, həmin rayonun Daşkənd kəndində doğulmuş Ədalət Qocamanov sədrin müavini seçiliblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

**Necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Ermənistanın baş naziri Nikol Paşinyanın son dövrlərdəki bəzi açıqlamarını məhz bu prizmadan qiymətləndirmək mümkündür. Ona görə ki, o, bir yandan erməni milli identikliyinə xas mənfi cəhətləri sadalayır, onlardan uzaqlaşmanın vacibliyini bildirir, əməli fəaliyyətə gəldikdə isə həmin saxta identiklikdən irəli gələn məqamların üzərində dayanır.**

# Paşinyanın “məzlum millət” və “yeni güclü ordu” xəyalları

## *Pataloji milli xəstəlik şəraitində tragikomik tamaşa*

Məsələn, Paşinyan bir müddət əvvəl erməni millətinin təmsilçisi olan iki şəxsin nənələrinin tikdiyi qırmızı paltarı geyinmələrinə dair əhvalat uydurmuşdu. Bildirmişdi ki, salamatlıqları naminə getdikləri yolda dayanmış və qırmızı rəngə aqressiv münasibəti ilə seçilən öküzlərə görə həmin şəxslərin paltarlarını çıxarmaları, səliqə ilə büküb rəmz olaraq bir sandıqda saxlamaları və yola davam etmələri lazımdır. Halbuki, rəsmi İrəvanın hazırkı siyasət xətti bunun əksidir.



Paşinyanın daha bir formulu isə “Real Ermənistan”dır. Yəni, aydındır ki, o, heç bir qonşusuna qarşı ərazi iddiası irəli sürməyən, sərhədləri daxilində maraq və mənafelərini üstün tutan dövlətdən dəm vurur. Ancaq mahiyyətə nəzər salanda görürük ki, Nikol vəlvələdən, ya zəlzələdən formalaşmış “Real Ermənistan”ı qorumaq barədə düşünmür, əksinə, onu qlobal konfrantasiyaların episentrinə çevirir. Elə vəziyyət formalaşdırır ki, istər-istəməz, sual olunur: Ümumiyyətlə, Ermənistan adlı nə isə olubmu ki, onun real mahiyyətindən söz açılsın?

Digər tərəfdən, məlumdur ki, Qarabağ avantürası və Azərbaycanın torpaqlarının işğalı erməni varlığının “Real Ermənistan” formulu ilə barışmamasının, tamahkar xislətinin, barbarlığının zay məhsulu kimi meydana çıxmışdı. Deyilə bilər ki, Paşinyan bu məhsuldan imtinanı əsas götürməkdədir. Elə isə, görəsən, hazırda Qarabağ erməniləri və bölgənin erməni mirası barədə rəsmi İrəvanın və havadarlarının qaldırdıqları isteriya nədir? Nikol mövzuya dair hansısa izahat verirmi, yaxud verə bilirmi? Xeyr! Axı tam aydındır ki, sözügedən isterik ritorikanın özü də avantürizmə hesablanıb. Daha doğrusu, məqsəd avantürizmə, bir növ, niskil gətirmək, onun daşıyıcılarını məzlum qiyafəsində göstərməkdir. Deməli, belə qənaətə gəlirik ki, Paşinyan, komandasının digər üzvləri kimi, heç də səmimi deyil. “Məzlumluğa” isə qayıdacağıq.

Nikol, sadəcə olaraq, öz aləmində fərqli Ermənistan və fərqli erməni tipi formalaşdırmaq istəyir. Buna ehtiyac var. O, çox yaxşı bilir ki, dünya erməni amilinin “özünütəsdiq kriteriyalarından” və həmin “kriteriyaların” yeri gəldi-gəlmədi gözə soxulmasından bezib və mövcud səbəbdən yeni erməni tipi ilə köhnə stereotiplərdən uzaqlaşmaq istəyir, beynəlxalq aləmin münasibətini dəyişməyə qol çırmayır. Necə deyərlər, hiyləgərliyin təzə metod və formalarını işə salır. Onun sonuncu açıqlaması da məhz bu baxımdan maraq doğurmaqdadır.

Beləliklə, Ermənistanın baş naziri dünyanın erməniləri “məzlum xalq” kimi təsəvvürə gətirdiyini vurğulayır və bundan uzaq durulmasının zəruriliyini əsaslandırır. O, ölkə parlamentində 2025-ci ilin dövlət büdcəsinin müzakirəsi zamanı etdiyi çıxışında bu barədə bir sıra digər məqamlara da toxunub ki, yazımızda onlara nəzər salacağıq. Həmçinin, Nikolun reallıqları açıqlama tərzindən söz açacaq, bəzi fikirləri diqqətə çatdıracağıq.

“Ümumiyyətlə, dünyaya mesajımız belədir: hökumətimizin ən mühüm missiyası “məzlum millət” statusunu aşmaqdır. Deməliyəm ki, bizim reallıqda, necə formalaşmasından asılı olmayaraq, bu gündəm yeni deyil. Orta hesabla vəziyyətə reaksiyamız belə olub və müəyyən dərəcədə belə də davam edir: “Məzlum millət” düsturunun həlli “ordu millət” düsturudur. Hesab edirəm ki, “ordu millət” formulu “Məzlum millət” formulunun məntiqi davamıdır. Ancaq cavabın (gəlinən nəticənin – red.) düzgünlüyünə əmin deyiləm”, – deyə Paşinyan bildirib.

Baş nazirin sözlərinə görə, Ermənistanda güclü ordunun olması zərurəti barədə çox danışılıb. “Biz bu gündəliyi həyata keçirməyə davam etməliyik. Amma mən istəyirəm ki, özümüzə sual verək: Biz nə qədər güclü orduya sahib olmaq və kimdən güclü olmaq istəyirik? Bu məsələdə aydın olmalıyıq. Biz xalqımıza mesaj verməliyik. Mən indi konkret ölkələri misal çəkmək istəmirəm, lakin biz bu suala cavab verməliyik”, – deyən Paşinyanın fikrincə, “məzlum millət” və “ordu millət” düsturlarına qalib gəlmək üçün yalnız öz maraqlarını güdən dövlətçilik anlayışını qəbul etmək lazımdır. Üstəlik, bu anlayış müəyyən edilmiş ərazi daxilində olmalı, dövlət xarici siyasətində beynəlxalq hüquqla məhdudlaşmalıdır.

N.Paşinyanın reallıqları açıqlaması fonunda onu da vurğulayaq ki, erməni varlığı Cənubi Qafqaz coğrafiyasına təxribatlar törətmək üçün yerləşdirilib. Məqsəd onun köməyi ilə Türk dünyasında xristian bufer zonası yaratmaq olub. Əlbəttə, daha geniş miqyasda Türk dünyasını bir-birindən ayırmaq və onu parçalamaq məramı əsas götürülüb. Ermənilər tərəddüdsüz olaraq, bu işə qol çırmayıblar. Habelə, xarici qüvvələr, erməni varlığı üçün müəyyən saxta hekayələr uydurublar və həmin hekayələr ermənilərin fantaziyaları ilə daha da “dolğunlaşıb”. Nəticə etibarilə, haylar danışdıqları yalanlara özləri də inanıblar və məsələ pataloji xəstəlik halını alıb. Bu gün də həmin xəstəlik təsirini saxlamaqdadır.

N.Paşinyan mahiyyətcə ermənilərin simasında məzlumların düşdükləri reallıqlara adekvat reaksiyasından söz açır. Yəni, bir xalq əzilirsə, buna qarşılıq özündə güc tapmağı bacarmalıdır. Güc isə ordu yaratmaqdan keçir. Əslində, reallıq budur ki, erməni varlığı Cənubi Qafqazda və Anadoluda onu bölgəyə yerləşdirən xarici qüvvələrin maraq və mənafelərini təmin etmək üçün daim təxribatlar törədib, qətllər, qarətlər reallaşdırıb və cavabını alıb. Yəni heç kəs dinc dayandıqları yerdə ermənilərə nə isə etməyib. Haylar isə bəd əməllərinin qarşılığında üzləşdikləri adekvat tədbirləri “soyqırımı” kimi qiymətləndirib, özlərini məzlum qiyafəsində təqdim ediblər və sonra intiqam almaq məqsədi ilə silaha sarılıb, yenidən mənfur fəaliyyətlərini davam etdiriblər. Görəsən, bu gün vəziyyət necədir? Ermənistanda, eləcə də Paşinyanın kabinetində 44 günlük müharibədəki rüsvayçılığı ilahi ədalət olaraq qiymətləndirən neçə nəfər var? Sual ritorikdir, çünki belələrinin sayı barmaqla sayılacaq qədərdir. Əksinə, İrəvanda daşı atsan, hansısa revanşistə dəyəcək.

Deməli, erməni təfəkkür tərzində dəyişiklik yoxdur və nəzərə alsaq ki, balıq başdan iylənir, o zaman, diqqətə çatdırdığımız tendensiyanın mövcudluğunun bir səbəbi elə Nikolun yeritdiyi siyasi kursdur. Hazırda Paşinyan ölkəni qlobal ziddiyyətlərin mərkəzinə atırsa, Azərbaycanla sülhə gəlməkdən yayınırsa, tam lüzumsuz yerə barış sazişini imzalamağa deyil, silahlanmağa diqqət ayırırsa, sülh gündəmini Avropaya inteqrasiya məntiqi ilə əvəzləyirsə və mövcud xüsusda dividend əldə etməyə, saxta demokrat imitasiyası ilə bəşəri dəyərləri avantürizm üçün sipərə çevirməyə cəhdlər göstərirsə, deməli, baş nazirin yalnız avazı yaxşı gələcək olmayacaq. Ən əsası, məzlum erməni obrazının revanşizmə köklədiyi təqdirdə “ordu millət” düsturunun şüurlarda qalması, Ermənistanı tamamilə məhvə sürükləyəcək. Əsl məzlumluq məhz o zaman yaşanacaq. Hələlik Ermənistan bir tragikomik səhnəli tamaşa meydanıdır, Paşinyan isə saxta qəhrəman. Qəhrəman isə hər sözü, hər fikri ilə ən yaxşı halda, milləti özünə güldürməkdə davam edir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İƏT XİN Şurası COP29-un nailiyyətlərinə yüksək dəyər verib

**Dekabrın 3-də xarici işlər naziri Ceyhun Bayramov İranın Məşhəd şəhərinə işgüzar səfəri çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 28-ci iclasında çıxış edib.**




Ceyhun Bayramov çıxışında İƏT çərçivəsində əməkdaşlığın gücləndirilməsi, Təşkilatın institusional inkişafı, iqtisadi-ticarət, enerji təhlükəsizliyi, ətraf mühit, nəqliyyat və kommunikasiyalar, bağlantılar və sair istiqamətlər üzrə əməkdaşlıq imkanlarından istifadə ilə bağlı ölkəmizin baxışından bəhs edib.

Nazirlər Şurasının 28-ci iclasının İƏT-in 2023-cü il oktyabrın 10-da Şuşa şəhərində keçirilən görüşündən bəri Təşkilatın ehtiyacları və üzv dövlətlər arasında əməkdaşlıq imkanlarının gücləndirilməsi ilə bağlı əldə olunan irəliləyişlər və gələcək planların müzakirəsi baxımından əhəmiyyəti qeyd edilib. 2024-cü ildə Təşkilata sədrliyinə, habelə Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 28-ci iclasının təşkilinə və qonaqpərvərliyə görə İran İslam Respublikasına təşəkkür edilib, Təşkilata növbəti il sədrlik edəcək Qazaxıstan Respublikasına uğurlar arzulanıb. Növbəti il ölkəmizin İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə ev sahibliyi etmək niyyətində olduğu, bu istiqamətdə bütün üzv ölkələrin aktiv iştirak və töhfələrinin vacibliyi diqqətə çatdırıb.

Üzv dövlətlər arasında mövcud iqtisadi potensiala əsaslanan, bu istiqamətdə regional çağırışlarla mübarizədə hədəfləri təsbit edən və dayanıqlı inkişaf gündəliyi ilə uyğunluq təşkil edən "İƏT-ə Baxış 2025" strategiya sənədinin əhəmiyyəti vurğulanıb.

İƏT ölkələrinin bir çoxunun dənizə çıxışı olmadığını nəzərə alaraq, xüsusilə, Şimal-Cənub Dəhlizi, Şərq-Qərb Transxəzər Orta Dəhliz, Rəqəmsal İpək Yolu, Bakı-Tbilisi-Qars dəmiryolunun modernləşdirilməsi, habelə İran ərazisindən keçərək Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Şərqi Zəngəzur iqtisadi bölgəsini əlaqələndirəcək regional nəqliyyat və infrastruktur layihələrinin əhəmiyyəti diqqətə çatdırılıb.

Ötən ay ölkəmizin ev sahibliyi etdiyi, İƏT regionunda ilk dəfə keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsindəki nailiyyətlərdən ətraflı bəhs edən nazir Bakı Maliyyə Məqsədi daxil olmaqla, COP29 çərçivəsində əldə edilmiş razılıqların iqlim dəyişikliyi ilə mübarizə istiqamətində vacib dönüş nöqtəsi olduğunu bildirib.

Regional dayanıqlı inkişaf təşəbbüslərindən bəhs edən Ceyhun Bayramov bu istiqamətdə COP29 çərçivəsində imzalanmış "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in bölgəmizdə iqtisadi inkişaf və enerji təhlükəsizliyinin təminində müstəsna rol oynayacağına dair inamını ifadə edib.

Sonda "Məşhəd Kommünikesi" adlı yekun sənəd qəbul edilib.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov İqtisadi İranın xarici işlər naziri Seyid Abbas Araqçi ilə görüşüb.**

Görüşdə Azərbaycan və İran arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiyalar sahələri üzrə birgə layihələr, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Ceyhun Bayramov İƏT-in Xarici İşlər Nazirləri Şurasının 28-ci iclasının yüksək səviyyədə təşkilinə, habelə Təşkilata uğurlu sədrliyə görə İran tərəfini təbrik edib. O, iki ölkə arasında tarixi qonşuluq, dostluq, mədəni bağlara əsaslanan əməkdaşlığın inkişafında ali və yüksək səviyyəli dialoqun, qarşılıqlı maraq kəsb edən məsələlərin müzakirəsinin vacibliyini qeyd edib.

Xüsusilə energetika və nəqliyyat dəhlizləri sahəsində Azərbaycan-İran əməkdaşlığının inkişafı istiqamətində bir sıra vacib təşəbbüslərin həyata keçirildiyi, əldə olunan razılıqların və onların icrasının əhəmiyyəti qeyd olunub. İran ərazisindən keçərək Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Şərqi Zəngəzur iqtisadi bölgəsini əlaqələndirəcək regional nəqliyyat və infrastruktur layihələrinin əhəmiyyəti diqqətə çatdırılıb.

Regional və beynəlxalq çoxtərəfli platformalar, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb.

***XQ***

# Paşinyanın sülhə alternativi – Avrointeqrasiya



**(əvvəli 1-ci səhifədə)**

Ondan başlayaq ki, Gürcüstanın Avropaya inteqrasiyası Ermənistandan xeyli əvvəl başlayıb. Tbilisi mövcud istiqamətdə nəzərəçarpacaq məsafə qət edib. Məsələn, hazırda Gürcüstan vətəndaşları Avropaya vizasız gediş-gəliş hüququna malikdirlər. Bu, o qədər böyük əhəmiyyət daşımasa da, cəlbedicidir. O anlamda ki, sıravi gürcü özünü Avropa ailəsinin tərkibində sayır və düşüncədə müəyyən cazibədarlıq ab-havası var.

Demokratiyanın, obrazlı desək, qapıdan və pəncərədən deyil, birbaşa bacadan daxil olduğu Ermənistanın əhalisi üçün də Avropa ailəsinə üzvlük, böyük ölçüdə, "Köhnə qitə"yə vizasız gediş-gəliş imkanından başqa bir şey deyil. N.Paşinyan administrasiyası "EuroVote" təşəbbüsünü qaldırmaqla yalnız buna ümid bəsləyə bilər. Əlbəttə, Nikolun hədəfləri daha böyükdür. Daha doğrusu, "ağaları" onun qarşısında hədəflər müəyyənləşdiriblər...

Qərb vəziyyətdən asılı olaraq, Ermənistana istədiyini verə bilər. Nəzərə alaq ki, birinci Gürcüstanda seçki məğlubiyyəti ilə üzləşib və onun seçkisonrası törətdiyi iğtişaşlar iqtidarı devirmək gücündə deyil. Bu məğlubiyyətin isə Ermənistana təsiri şübhəsizdir. İstər-istəməz Paşinyan administrasiyası üçün risk yaranır. Axı 2026-cı ildə Ermənistanda da seçkilər keçiriləcək. Məsələyə mövcud prizmadan yanaşsaq, Qərbin Ermənistanı Avropa ailəsinə yaxınlaşdırmaq istiqamətində daha ciddi addımlar atması günün təxirəsalınmaz tələbidir.

Deməli, erməniləri "xəyallarına qovuşdurmaq" lazımdır. Xəyal isə yarımçıqdır. Tutaq ki, onlar üçün "köhnə qitə"yə vizasız-gediş təmin olundu. Burada qazanc nədir? Bir halda ki, sıravi erməni Vyananın, Parisin, Berlinin, Romanın küçələrində bulka yeyib "Kola" içməklə gün keçirəcək, görəsən, 60 avroluq viza xərcinin aradan qaldırılması nə kimi dividenddir? Əlbəttə, heç bir üstünlük yoxdur. Hələ İrəvandan Avropanın hansısa şəhərinə təyyarə biletini və digər nəqliyyat xərclərini kənara qoyuruq. Erməni əhaliyə, loru dildə desək, pul lazımdır, "Çörək və tamaşa" yox. Hazırda Paşinyanın partiyasının "EuroVote" təşəbbüsü isə ikincini rəhbər tutur. Ermənistan vətəndaşının isə sosial-rifah halı bərbad durumdadır.

Bəli, Nikol ölkəsinin, guya, Avropa ailəsinin bir üzvü olduğunu göstərmək isyəyir. Daha doğrusu, Ermənistanı qitəyə sırıyır. Əlbəttə, vurğuladığımız kimi, bu planlaşdırılmış "izdivac"dır və əslində, Qərb Cənubi Qafqazdakı yeganə dayaq nöqtəsini möhkəmləndirmək barədə düşünür. "EuroVote" məhz buna hesablanıb. Axı Ermənistan "avrosentristləri"nin əllərinə rəqibləri ilə mübarizədə ciddi arqument vermək lazımdır. Nəzərə alaq ki, hazırkı durumda Ermənistan Qərbin Cənubi Qafqaz planlarının reallaşdırılması üçün son dərəcə vacib alətdir və Gürcüstandakı hadisələr fonunda bu alətin əhəmiyyətinin artacağı şübhəsizdir.

*

Qeyd edək ki, Paşinyanın tərəfdarları "EuroVote" yolunda Ermənistanın mərkəzi seçki komissiyasına 60 min vətəndaşın imzasını təqdim ediblər. Həmin imzalar qurumda yoxlanıldıqdan sonra layihə parlamentin dövlət və hüquq məsələləri daimi komitəsində müzakirəyə çıxarılacaq. Bu instansiya müsbət rəy verəcəyi təqdirdə, təşəbbüs milli assambleyanın plenar iclasların gündəliyinə daxil ediləcək, birinci və ikinci oxunuşlarda müzakirəyə çıxarılacaq.

Tutaq ki, erməni parlamenti Aİ-yə qoşulma prosesinə rəsmən başlamaq məqsədi daşıyan layihəni rədd etdi. Bu zaman cəmi 300 min imza lazımdır ki, məsələ birbaşa referenduma çıxarılsın. Lakin ikinci ssenari nəzəri xarakter daşıyır. Çünki hakim "Vətəndaş sazişi" təşəbbüsün lehinə səs verdikdən sonra prosesin reallaşmaması mümkünsüzdür.

Ancaq referendum variantı özlüyündə ağlabatandır. Əvvəla, Paşinyan Avropadakı ağalarına prosesin çətinliyini göstərib, guya, böyük iş görürmüş kimi mənzərə formalaşdıra, bir növ, minnət qoya bilər. İkincisi isə Cənubi Qafqazın bir ölkəsində Aİ-yə qoşulmaq üçün ümumxalq səsverməsinin təşkili səs-küylü təqdimatdır. Üstəlik, bu təqdimatın risklərdən sığortaolunma mahiyyəti də var.

Risklərdən söz düşmüşkən, Ermənistanın baş nazirinə yaxın mənbələr N.Paşinyanın "EuroVote" təşəbbüsü ilə Aİ-yə üzvlük prosesinin başlanmasının tərəfdarı olduğunu bildirsələr də, onlar risklərin idarə olunmasının vacibliyini vurğulayırlar. Hakim partiya daxilində məsələyə ehtiyatlı yanaşmağa çağıran kəsim mövcuddur. Bununla belə, partiyadakı deputatların əksəriyyəti Aİ yolçuluğunu dəstəkləyirlər.

Daha böyük risk amilinə gəlincə, erməni təhlükəsizlik rəsmiləri mövcud xüsusda Rusiya və Azərbaycanın hərəkətə keçməsi üzərində dayanırlar. Onlar bildirirlər ki, Bakı və Moskva erməni avrointeqrasiyasını əngəlləmək üçün hərbi-siyasi təzyiq göstərəcək və bu, narahatlıq doğurmaqdadır. Paşinyan özü isə mövzu ilə bağlı ölkənin İctimai televiziyasına müsahibəsində bildirib ki, Aİ ilə yaxınlaşmaq istəyinə dair bəyanatı sosial mediada ən çox yayılan videolardan biridir.

Yeri gəlmişkən, Nikol sözügedən müsahibəsində Aİ-yə qoşulmaqla əlaqədar ictimai reaksiyanın həvəsləndirici olduğunu vurğulamışdı. O demişdi ki, Ermənistanda hakim çoxluğun liderinin Avropa Parlamentinin tribunasında (Ermənistanın indiki qədər Aİ-yə yaxınlaşmağa hazır olmamasına dair) bəyanat verməsindən sonra Avropa və Ermənistan ictimaiyyəti nəyə görə Aİ-yə üzvlük prosesinə başlamaqdan imtina edildiyini və ya "EuroVote" layihəsinin əleyhinə səs verildiyini soruşa bilər: "Deyə bilərlər: "Siz gəlib Avropa Parlamentində bunu dediniz. Camaatınız müsbət cavab verdi, indi buna qarşısınız? Bunun heç bir siyasi məntiqi yoxdur".

*

Göründüyü kimi, N.Paşinyan Qərb tərəfindən ona verilmiş tezisi, kifayət qədər, reklam etməklə məşğuldur. Özü deyir, özü müzakirə açır, Azərbaycanın və Rusiyanın prosesə, guya, maneçilik törədəcəyinə dair risk qondarır və sair. Nikolun tərəfdarları, eyni zamanda, İran amili üzərində də dayanırlar. Söhbət Tehranın İrəvanın Aİ-yə qoşulmasına münasibəti ilə bağlı söz-söhbətlərdən gedir. Erməni mənbələri bildirirlər ki, İran Ermənistanın Aİ-yə üzvlük perspektivinə müsbət rəy verib.

Digər tərəfdən, İranın İrəvandakı səfiri Mehdi Sobhaninin Azadlıq radiosuna bir müddət əvvəlki müsahibəsində dilə gətirdiklərini xatırlayaq. Nəzərə alaq ki, səfirdən birbaşa olaraq, İrəvanın Aİ-yə daxil olmasına münasibət öyrənilmişdi. "Ermənistan müstəqil ölkədir və biz onun qərarlarına hörmətlə yanaşırıq. Erməni xalqının öz müqəddəratını təyin etmək hüququ var. Ermənistanın öz siyasətində müxtəlif istiqamətlər yürütmək qərarına da hörmət edirik. Bizim üçün vacib olan odur ki, xarici siyasətdə müxtəliflik İran – Ermənistan münasibətlərinə xələl gətirməsin", - deyən M.Sobhani əlavə etmişdi ki, Tehran Ermənistanın inkişafını, infrastrukturunun tərəqqisini istəyir. Səfirin sözlərinə görə, Avropa sərmayələri gələndə, İran Ermənistanın çiçəklənməsinə töhfə verən yollar, su anbarları, enerji sektoru layihələrində iştiraka hazırdır.

Səfir Sobhani onu da bildirmişdi ki, Ermənistan hökuməti digər ölkələrlə münasibətlərinin İranla əlaqələrə mənfi təsir göstərməyəcəyinə dair təminat verib və Tehranda buna etibar olunur. Başqa bir yandan, hazırda Meğri istiqamətində İran-Ermənistan sərhəd gömrük-keçid məntəqəsinin Avropa Bankının maliyyələşdirdiyi İran şirkəti tərəfindən təmir edildiyi də məlumdur.

*

Sonda əvvəldə vurğuladımız məqama keçid alaq. Əminliklə deyə bilərik ki, hazırda Azərbaycanla Ermənistan arasındakı sülh mövzusu ikinci plandadır. Ermənistanın Aİ-yə qoşulmaqla bağlı təşəbbüsü isə məsələni gündəmdən tamamilə çıxaracaq kimi görünür. Hər halda, bunu söyləmək üçün əsaslar yetərincədir. Deməli, qəti şəkildə onu da söyləyə bilərik ki, Ermənistan "EuroVote"ni Azərbaycanla sülh sazişinə alternativ görür. Yəni, İrəvanın indiyədək barışdan yayınmaq məqsədilə ilə müxtəlif manipulyasiyalara baş vurma reallığını nəzərə alsaq, hazırkı məqamda "EuroVote", bir növ, sipərdir.

Yuxarıda Paşinyanın tərəfdarlarının təşəbbüsün riskli tərəfi kimi Rusiya ilə yanaşı, Azərbaycanın adını çəkmələrini təsadüfən diqqətə çatdırmadıq. Bunun yalnız bir adı var - qabaqdangəlmişlik. Halbuki, indiki məqamda Cənubi Qafqazda sülh və əməkdaşlıq məsələləri başlıca prioritet olmalıdır. Daha dəqiq desək, Bakı – İrəvan barış sazişinin imzalanması mühüm əhəmiyyət daşımalıdır. Ancaq...

Belə qənaətə gəlmək mümkündür ki, qarşıdakı müddətdə, yəni dekabr ayı ərzində, həmçinin, 2025-ci ilin yanvarında Paşinyan və komandasının üzvləri ölkənin başını "EuroVote" ilə qatacaqlar. Əlbəttə, onlar Azərbaycanın da başını qatdıqlarını düşünəcəklər. Nəticə etibarilə, Ermənistan rəhbərliyi həm sülhdən yayınacaq, vaxt qazanıb güclənməyə çalışacaq, həm də Avropaya inteqrasiya məntiqinə su vurmaqla, Azərbaycana qarşı dünyanın dəstəyini gücləndirməyə çalışaq. Daha bir nəticəmiz isə budur: Ermənistan Qərbin Cənubi Qafqazdakı anti-Rusiya cəbhəsindəki forpost ampluasını möhkəmləndirəcək. Əlbəttə, bütün bu "ssenarilərin" təkcə Paşinyanın yastığının altından çıxmadığı gün kimi aydındır. Bu "ssenarinin" Ermənistanı məhvə apardığı da həmçinin.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Köşə

# "Bankanı" kim çalxalayır?

## *Qaynar nöqtələrə tökülən yağ həmişə Qərbdən gəlir*



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

**Son zamanlar ölkəmizin sosial şəbəkələrində alman əsilli Amerika yazıçısı Kurt Vonnequta istinadən (bu adam dörd universitetin, bir liseyin məzunudur) maraqlı bir hekayət paylaşılır. Sən demə, əslində "fantastik" yazıçı olan bu müəllif təbiət hadisələri üzərində apardığı qeyri-adi müşahidələrin nəticəsini də bədii dillə qələmə alırmış. Məsələn, o yazır:**

"Bir bankaya 100 qara qarışqa və 100 qırmızı qarışqa qoysanız, nə olar? Heç nə. "Sülh içində" yaşayarlar. Amma bankanı bərk silkələsəniz, qarışqalar bir-birini öldürməyə başlayar. Qırmızı qarışqalar bu "zəlzələ"ni qara qarışqalardan, qara qarışqalar isə qırmızı qarışqalardan görər. Əsl düşmən isə qabı silkələyəndir. Eyni şey insan cəmiyyətində də olur. Beləliklə, bir-birimizi düşmən bilib hücum etməzdən əvvəl, bankanı kimin silkələdiyini öyrənməliyik!"

Necə də bizim yaşadığımız zamanın (Vonnequt 1922-ci ildə İndianada doğulmuş, 2007-ci ildə Nyu-Yorkda vəfat etmişdir) problemləri ilə üst-üstə düşür. Bəlkə də yazıçı həmin faktı lokal məkana, yaxud məişət çəkişmələrinə şamil etmək istəyib. Ancaq bu gün həmin arqument lokallıqdan çox uzaqdır və "bankanı silkələyənin" kim olduğunu Asiyada və Afrikada hamı yaxşı bilir. Elə Amerika qitəsinin özündə də "banka silkələyən", daha doğrusu, çalxalayan əllər az adama məlum deyil.

Afrikanı, Amerikanı bir kənara qoyaq. Bizim "qulağımızın dibindəki" Yaxın Şərqi, Ukraynanı, Gürcüstanı kimin çalxaladığını görməyən, bilməyən varmı? Qərb siyasətçiləri Ukraynanı Avropa İttifaqına və NATO-ya qəbul etmək vədləri ilə nə günə saldılar? O qədər iqtisadi, maddi, mənəvi, hərbi itkilərdən sonra Kiyev gah ortada tək qalır, gah silah verib ardınca da "Rusiyaya atma" xəbərdarlığı göndərilir, gah Qərbdən gələn silahlarla Rusiyaya atəş açmaq icazəsi verib Ukraynanın ərazilərinə od yağdırılmasına səbəb olurlar, gah da "Krımdan əl çək, müharibə dayansın" kimi alçaldıcı, təhqiredici planlar ortaya qoyulur. Halbuki, Ukrayna kimi güclü potensiala, iqtisadiyyata malik olan bir ölkə bu taleni yaşamalı deyildi. Qərb Ukraynanı bu günə saldı.

Ancaq təkcə ruslarla eyni kökdən – slavyan olan Ukraynanımı? Qətiyyən yox. Sərhəd qonşumuz olan Gürcüstanda da bankanı amansızcasına silkələyərək gürcü xalqının iki yerə parçalanmasına nail oldular. İndi Tbilisidə qardaş qardaşla, əmioğlu əmioğlu ilə fərqli səngərdə durub. Səngərin birində dayananlar Avropanın göndərdiyi "ailə dəyərlərinə tüpürərək əxlaqsızlığı qəbul edin" tövsiyəsini dəstəkləyirlər, o biri səngərdəlkilər isə min illərdən bəri formalaşmış gürcü mədəniyyətini, ailə ənənələrini, özünüdərkini qoruyub saxlamağa çalışırlar.

Qərbin yağ tökdüyü qaynar nöqtələrin ən dəhşətlisi isə Yaxın Şərqdədir. Qərb ideoloqları otuz-qırx il ABŞ-dən gələn iqtisadi sanksiyalara dözərək ayaq üstdə durmağı bacaran İranın "qol-qanadını sındırmaq" üçün Suriyanı qanına qəltan edirlər. Bu ölkədə 2015-ci ildə başlamış və Rusiya, Türkiyə və İranın vastəçiliyi ilə səngidilmiş vətəndaş müharibəsi bilavasitə Qərbdən gələn göstərişlərlə yenidən vüsət alır. Qan-qana qarışır, alov alova. İtirən müsəlman asiyalılardır, qazanan isə imperialist təfəkküründən əl çəkə bilməyən Qərb.

Elə Ermənistanda da eyni ssenari davam etdirilir. Bu ölkənin kütləvi informasiya vasitələri açıq aydın yazırlar ki, İkinci Qarabağ müharibəsindən sonra reallığı qəbul edərək Türkiyə və Azərbaycanla münasibətlərin normallaşasına çağıran erməni siyasətçi və ziyalılarının çoxalması təkcə Fransada deyil, ABŞ-də də çox ciddi narahatlıq yaradır. Həm Yelisey sarayı, həm də Ağ Ev ermənilərin öz yolu ilə getməsinə qətiyyən icazə vermirlər. Məqsəd revanşist təfəkkürlü erməniləri silahlandıraraq Cənubi Qafqazda yeni münaqişə ocağı yaratmaqdır.

Ekspertlərin bir çoxu ABŞ və Fransanın həmin addımları Rusiyanın bu regiondan sıxışdırılıb çıxarılması üçün atdıqlarını deyirlər. Digər ekspertlər isə Cənubi Qafqazın yenidən qarışdırılması istəyinin arxasında həm də iqtisadi maraqların dayandığı qənaətindədirlər. Yəni həm Fransa, həm də ABŞ köhnə və ya təzə silahlarını satmağa, üstəlik, Şimal – Cənub və Şərq – Qərb nəqliyyat dəhlizlərində Rusiyanın pay sahibi olmamasına çalışırlar. Yəni yeni qaynar nöqtələrin yaradılması zamanı aldadılan və itirən də məlumdur, aldadan və qazanan da.

Allah Azərbaycanı bəd nəzərdən qorusun ki, biz ələ keçən bütün bankaları çalxalayaraq qardaşı qardaşa, qonşunu qonşuya düşmən edən həmin bədheybətlərin fitnə-fəsadlarından uzağıq. Əslində əvvəllər biz də o qədər uzaq olmamışıq. Otuz ilə qədər torpaqlarımızın düşmən əsarətində qalması da məhz həmin monstrların "əl işləri" idi. Ancaq indi zaman başqadır. Bizim aldanmaq limitimiz tükənmişdir.

# AMEA-nın İnkişaf Konsepsiyası və “Yol xəritəsi”



## I MƏQALƏ

**AMEA-nın Rəyasət Heyəti 2025–2030-cu illər üçün İnkişaf Konsepsiyası və “Yol xəritəsi”nin hazırlanması ilə bağlı qərar qəbul etmişdir. Bununla bağlı xüsusi komissiya və işçi qrupu yaradılmışdır. İşçi qrupu artıq ilk müzakirəsini keçirmişdir. Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli konseptual xarakterli çıxışında sənədlərin hazırlanması üçün zəruri fəaliyyətin özəlliklərini diqqətə çatdırmışdır. Bu kontekstdə məsələnin bir sıra vacib və aktual məqamları üzərində dayanmağa çalışacağıq.**

### İnkişaf konsepsiyası

“Konsepsiya” latıncadan (conceptio) tərcümədə “anlamaq sistemi” mənasını verir. Əsas xüsusiyyətləri:

- hansısa məsələyə baxışların elə kompleksidir ki, qarşılıqlı əlaqələri vardır və vahid sistem əmələ gətirirlər;
- müəyyən hadisələrin anlamını, onların izahını, nöqteyi-nəzəri ifadə edən idarəedici ideyadır;
- fəaliyyətin konstruktiv prinsipidir, aparıcı fikridir;
- məsələlərin həlli yollarının sistemidir;
- konkret məsələlərə aid olan anlam, fərqləndirmə və interpretasiya üsuludur.

İnkişaf konsepsiyası təşkilatın ümumi sənədidir. O, ümumi fəaliyyət istiqamətlərini ifadə edir. Əsas məqsədə nail olmaq üçün hazırlanır. Bu zaman təşkilatın mövcud resursları ilə strateji məqsəd arasında uyğunluq olmalıdır. Əks halda, inkişaf konsepsiyası həyata keçirilmək şansını itirir. Burada həm əsas məqsəd dəqiq müəyyən edilməlidir, həm də ona nail olmaq üçün nəzərdə tutulan ümumi fəaliyyət planı təşkilatın imkanlarına uyğun olmalıdır. Əksər hallarda inkişaf konsepsiyaları pilləli (mərhələli) olur. Lakin onları vahid məntiqi məqam birləşdirir. Belə ki, öncədən hər sonrakı mərhələ üçün həyata keçirilməli olan proqramlar dəqiq müəyyən olunmalıdır.

Əgər təşkilat dövlət qurumudursa, onun inkişaf konsepsiyası mütləq surətdə dövlətin və ölkənin strateji inkişaf kursuna tam uyğun olmalıdır. Müəyyən olunan strateji məqsəd ölkənin inkişafının strateji məqsədinin məzmunu, məntiqi və məqsədi kontekstində konkretləşməlidir.

İnkişaf konsepsiyası açıq, dinamik və nəticəverici tərkibə malik olmalıdır. Zaman məsələsi ciddi surətdə nəzərə alınmalıdır.

### Strategiya

“Strategiya”nın müxtəlif tərifləri vardır. Onları ümumi formada belə ifadə etmək olar: strategiya detallaşdırılmamış ümumi plandır. Uzun müddəti əhatə edir. Öncədən müəyyən edilmiş mürəkkəb məqsədlərə nail olmaq üsuludur. İnsan fəaliyyətinin hər bir sferasına aid ola bilər.

Strategiyanın vəzifəsi mövcyd resurslardan maksimum optimal (səmərəli) istifadə etməklə məqsədə çatmaqdan ibarətdir.

### “Yol xəritəsi”

“Xəritə” sözü latınca (vərəq, kağız və yunanca papirus kağızı mənasını verir. Əvvəlcə, bu termin səyyahlar üçün yolların xəritəsi kimi işlədilmişdir. XX əsrdə əsas olaraq avtomobil sürücüləri üçün nəzərdə tutulmuşdur. İlk dəfə “xəritə” sözünü Avropada orta əsrlərdə intibah dövründə işlətmişlər. Ona qədər avropalılar “tabula” və “descriptionis” (rəsm) terminlərindən istifadə etmişlər. Xəritə çoxmənalı termindir.

“Yol xəritəsi” ingiliscədə “roadmap”-dir. Bu, elə bir sənəddir ki, əyani surətdə hansısa layihənin strateji planını əks etdirir. Onun başlıca məqsədlərini, vəzifələrini, yerinə yetirilmə müddətini, məsul və əsas mərhələlərini ehtiva edir. Yol xəritəsinin plandan başlıca fərqi layihənin yalnız ümumi təsvirini (şərhini) verməkdən ibarətdir. Mərhələlərin detallaşdırılmasını nəzərdə tutmur. Belə alınır ki, işləyən komandanın hara istiqamətləndiyini və varmalı olduğunu vizuallaşdırır.

Yol xəritəsi prosesin mətn formasında qrafikidir. O, strategiyanı əks etdirməklə ideyadan tutmuş məsələlərin həllinə qədər bütün mərhələləri əhatə edir. Bura iştirakçılar, məsul əməkdaşlar, hər məsələnin müddəti və statusu da daxildir. Ümumi halda “Yol xəritəsi” müəyyən strateji məqsədə aparan tədbirlərin sistemidir.

### Elm konsepsiyası

Təşkilatdaxili inkişaf konsepsiyası ilə ölkə miqyasında nəzərdə tutulan inkişaf konsepsiyası arasında ciddi məzmun və məqsəd fərqləri mövcuddur. Xüsusilə, elm kimi özünün strateji mahiyyətli və sosial-mədəni aspektdə son dərəcə həssas



sahə olması bu baxımdan incə yanaşma tələb edir. Elmin inkişaf konsepsiyası təşkilatdaxili miqyasda elə müəyyən olunmalıdır ki, daxili məntiqi bağlantı əsasında, eyni zamanda, təşkilatın və ölkənin inkişaf yolu arasında əsaslı “ideya körpüsü” rolunu oynasın. Təşkilatın uğurlu inkişaf yolunu ölkənin inkişaf kursu çərçivəsində dəqiq müəyyən etsin. Bu mənada AMEA-nın inkişaf konsepsiyası qarşıdakı beş ildə Azərbaycanın inkişaf strategiyasının məntiqi daxilində təşkilatın yeniləşməsini sistemli, davamlı və konkret nəticəverici olaraq reallaşmasını nəzərdə tutur. Burada çox mühüm bir terminoloji transformasiya baş verməlidir. Daha dəqiqi odur ki, AMEA müasir Azərbaycan tarixində ilk dəfə olaraq strateji kontekstdə terminoloji transformasiyanı konkret məzmuna malik fəaliyyət planına transformasiyasının konseptual əsasını hazırlamalıdır. Bu tezisin fəlsəfi və semantik mənası aşağıdakı kimidir.

### Təşkilatın yeniləşməsi

Biz “təşkilatın yeniləşməsi” ifadəsinin “elmin inkişaf konsepsiyası” anlayışına leksik və semantik keçidi ilə məzmun transformasiyasının sintezini nəzərdə tuturuq. Məlumdur ki, AMEA mühüm elmi dövləti təşkilatdır. Onun yeniləşməsi kursu avtomatik olaraq ölkənin və dövlətin inkişaf yolu kontekstində olmalıdır. Eyni zamanda, AMEA ayrıca bir qurum olduğundan özünün daxili elmi inkişaf konsepsiyası mütləq olmalıdır. Məhz bu məqamda təşkilatın avtonom inkişafı mütləq surətdə ölkənin strateji inkişaf kursu ilə vəhdət təşkil etməlidir. Ancaq bunun üçün öncədən terminoloji vəhdəti məzmun və fəaliyyət harmoniyasına “çevirə” biləcək konsepsiya və “Yol xəritəsi” olmalıdır. AMEA-nın 2025–2030-cu illər üçün hazırladığı inkişaf konsepsiyası və “Yol xəritəsi” bu zərurətdən yaranmışdır və ölkə miqyasında ilk təcrübədir.

Bununla AMEA müasir mərhələdə iki vacib məsələni aktuallaşdırır. Birincisi, nəzəri-konseptual səviyyədə terminoloji keçidi inkişaf konsepsiyasının məzmunu müstəvisinə necə transformasiya etməyin əsaslı elmi təhlilini verir. İkincisi, alınan ümumi qənaətlərin həyata keçməsinin sistemli “Yol xəritəsi”ni tərtib edir! Məsələnin birinci tərəfi inkişaf konsepsiyasında ifadə olunur, ikinci tərəfi “Yol xəritəsi”ndə əksini tapır. Lakin yekun mənzərə bu iki aspektin sintezində yaranır.

Burada başqa incə fəlsəfi məqam ondan ibarətdir ki, AMEA-nın yeniləşməsi kursu ilə İnkişaf Konsepsiyası və “Yol xəritəsi” eyni məzmuna malik deyil, yəni onları eyniləşdirmək olmaz. Yeniləşmə kursu bütövlükdə konkret müddəti nəzərdə tutmur – AMEA daim yeniləşməyə qadir struktur-funksional keyfiyyətə malik olmalıdır. Bununla yanaşı, yaxın beş il müddətində təşkilatın yeniləşməsinin fəlsəfəsi və “xəritəsi” kimi də təsəvvür edilə bilər.

Deməli, yeniləşmənin termin olaraq semantik və leksik transformasiyası, əslində, özündə konseptual və feili məqamları ehtiva edən məzmun transformasiyasının mahiyyətini ifadə edir.

Etiraf edək ki, AMEA-nın İnkişaf Konsepsiyası və “Yol xəritəsi” hazır olanda aydınlaşacaq ki, bu elmi təşkilat, faktiki olaraq, ölkənin elmi gündəminə yeni bir çalar gətirir. Həmin məzmun çaları təşkilatdaxili inkişaf konsepsiyası ilə ölkə miqyasında strateji inkişaf kursunun məzmun cəhətdən vəhdətinə nail olmaqla əlaqəlidir.

### “Yol xəritəsi” və strateji inkişaf

Qarşıdakı beş il üçün AMEA-nın “Yol xəritəsi”ni hazırlaması lazımlı bir addımdır. Onu təşkilatın fəaliyyətinin strateji planı kimi də təsəvvür etmək olar. Əsas cəhətlərdən biri ondan ibarətdir ki, “Yol xəritəsi” strateji planın təşkilatdaxili miqyasda başlıca məqsədlərini, vəzifələrini, yerinə yetirilmə müddətini, məsul və əsas mərhələlərini konkret müddəalarda ifadə edir.

Əlbəttə, “Yol xəritəsi” vurğulanan məqamların ümumi təsvirini verə bilər. Bununla AMEA-nın “Yol xəritəsi” faktiki olaraq, qarşıdakı beş il müddətində yaradıcı komandanın fəaliyyət istiqamətini və başlıca məqsədə çatmanın əyani obrazını yaratmalıdır. Obrazlı desək, “Yol xəritəsi” təşkilatdaxili inkişaf konsepsiyası ilə ölkənin strateji inkişaf kursunun əsas müddəalarının “ortaq münasibətlər (dialoq, təmas) məkanları”nı müəyyən etməlidir. Həmin anlamda “Yol xəritəsi” AMEA-nın yeniləşmə kursu fonunda təşkilatın inkişaf konsepsiyası ilə ölkənin strateji inkişaf kursunu birləşdirən mühüm tədbirlər “məkanı”dır.

Burada məsələnin başqa bir aspekti – AMEA-nın İnkişaf Konsepsiyası və “Yol xəritəsi” ilə ölkənin elm, təhsil müəssisələri və beynəlxalq elmi mərkəzləri arasındakı münasibətlərin məzmunu aktual görünür. Çünki AMEA təcrid olunmuş fəaliyyət göstərə bilməz. Bundan başqa, Azərbaycanın strateji inkişaf kursu bütövlükdə ölkənin müxtəlif elm, təhsil ocaqları arasında müəyyən koordinasiyanı tələb edir. Təbii ki, bunlarla yanaşı, 2025–2030-cu illərdə AMEA-nın fəaliyyətinin beynəlxalq miqyasda əməkdaşlığa uğurlu proyeksiyası çox vacib vəzifədir. Onun baş verməsi isə yeniləşmə kursu çərçivəsində təşkilatdaxili inkişaf fəlsəfəsi ilə beynəlxalq əlaqələrin inkişaf fəlsəfəsinin harmoniyasını tələb edir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Regional seminar**




# Kreativ iqtisadiyyat və əqli mülkiyyət

**Xəbər verdiyimiz kimi, Bakı şəhərində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının birgə təşkilatçılığı ilə “Kreativ iqtisadiyyat: data modeli, ölçülməsi və əqli mülkiyyət” mövzusunda regional seminar keçirilib. İki gün davam edən tədbirdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının mütəxəssisləri tərəfindən kreativ iqtisadiyyatın aktual məsələlərinə dair maraqlı təqdimatlar edilib.**

Regional seminarda Ümumdünya Əqli Mülkiyyət Təşkilatının department direktorunun müavini Dimiter Qançevin “Kreativ iqtisadiyyatın mövcud ölçmə modellərinə ümumi baxış” mövzusunda məruzə edib. O, yaradıcı sektorun müxtəlif məsələlərinə toxunaraq kreativ sənaye tədqiqatlarının təkamülü, qurumun metodologiyası, kreativ dəyər zənciri haqqında ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, yaradıcı sənayelər iqtisadiyyatın mühüm sektorlarından biridir və ümumi daxili məhsula və məşğulluğa əhəmiyyətli töhfələr verir. D.Qançev statistik göstəriciləri təqdim edib və bu statistik göstəricilərin yaradıcı sənayelər və kreativ iqtisadiyyat üçün nə qədər strateji əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Beynəlxalq təşkilatın nümayəndəsi Rimantas Vaicenavicius “Müəllif-hüquq sənayesi Ümumdünya Əqli Mülkiyyət Təşkilatının çərçivəsində” mövzusunda təqdimatında məşğulluq və beynəlxalq ticarətə diqqət yetirilməsinin əhəmiyyətini vurğulayıb və sahə üzrə əsas indikatorları təhlil edib.

Qurumun digər nümayəndəsi Felipe Buitragonun “Kreativ iqtisadiyyatın data modelinin yaradılması” mövzusunda etdiyi təqdimatda kreativ iqtisadiyyat üçün data modelinin qurulmasının iqtisadiyyatda mühüm rolundan geniş bəhs edib. O, kreativ iqtisadiyyatın müxtəlif sektorları arasında məlumat axınını təmin etməklə, ekosistem yaratmaqla iqtisadiyyatın dayanıqlı inkişafını təmin etməyin mümkün olduğunu vurğulayıb. Təqdimatda sahibkarlığın bir ölkənin iqtisadi inkişafının əsas hərəkətverici qüvvələrindən biri olduğu və bunun üçün şərait yaradılmasının əhəmiyyəti vurğulanıb. Bununla yanaşı, kreativ iqtisadiyyatda informasiya piramidasının yaradıcı fəaliyyətlərin effektiv idarə olunması, innovasiyaların təşviqi və bazar tendensiyalarına uyğun qərarlar qəbul etmək üçün vacib olduğu söyləyib və informasiya piramidasının elementləri haqqında ətraflı məlumat verilib.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının daha bir nümayəndəsi KübraArataş isə “Modelin çərçivəsi, strukturu və indikatorları” mövzusunda məruzə edib. O, kreativ iqtisadiyyatın strukturu və komponentləri haqqında ətraflı məlumat verib, Kreativ İqtisadiyyat Data Modelinin kreativ iqtisadiyyatda fəaliyyət göstərən müxtəlif sahələr arasında məlumatların toplanması, təsnifatı, analizi və istifadəsini təmin edən bir məlumat strukturu olduğunu vurğulayıb. Qeyd olunub ki, bu model kreativ iqtisadiyyatın dəyər zəncirinin hər bir mərhələsində qərarların daha dəqiq qəbul edilməsi baxımından xüsusi önəm daşıyır.

Regional seminara onlayn rejimdə qoşulan professor Vanus James indeks metodologiyası və məlumat mənbələri, onlara olan tələblər barədə danışıb.

Sonra seminar iştirakçısı Felipe Buitrago “Məlumat mənbələrinin müəyyən edilməsi üzrə problemlər” mövzusunda təqdimatla çıxış edib. Bu sahədə mənbələrin müəyyən edilməsi sahəsində mövcud problemlər haqqında danışan məruzəçi məlumatların parçalanması, məlumat keyfiyyətinin dəyişkənliyi, məlumatlarda məhdud əlçatanlıq kimi məsələlərin informasiya mənbələrinin müəyyən edilməsinin əsas problemləri olduğunu vurğulayıb.

Daha sonra Ümumdünya Əqli Mülkiyyət Təşkilatının nümayəndəsi Valeria Brusnikinanın “Kreativ aktivlərlə rəqəmsal tranzaksiyalardan əldə edilən məlumatların istifadəsi” mövzusun məruzəsi dinlənilib. O, çıxışında kreativ sənayelərin ekosistemi, müəlliflik hüququ obyektlərinin yaradılması, qorunması, monetizasiyası, müxtəlif rəqəmsal platformalarda istifadəsi və monitorinqi, qeyri-qanuni istifadənin qarşısının alınması məsələlərindən ətraflı bəhs edib.

Tədbirdə Filippinin misalında təcrübənin öyrənilməsi və “Subregional hazırlığın qiymətləndirilməsi: Kreativ iqtisadiyyatın milli statistik perspektivləri” mövzusu ətrafında müzakirələr təşkil olunub. Regional seminarın iştirakçıları tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə təşəkkürlərini çatdırıblar.

Bununla da, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının birgə təşkilatçılığı ilə “Kreativ iqtisadiyyat: data modeli, ölçülməsi və əqli mülkiyyət” mövzusunda regional seminar öz işini başa çatdırıb.

Qeyd edək ki, Azərbaycan ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında kreativ iqtisadiyyat sahəsində əməkdaşlığın davamı olan iki günlük beynəlxalq tədbirdə qurumu təmsil edən nümayəndə heyəti ilə yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstandan olan nümayəndələr müzakirələrdə fəal iştirak ediblər.

***M.QULİYEV***
***XQ***

---

# Sumqayıtda yaşayış binasındakı partlayış zamanı xəsarət alan 6 nəfər tibb müəssisələrinə təxliyə olunub

**Sumqayıt şəhəri, 13-cü mikrorayon ərazisində mənzildə partlayış baş verməsi səbəbilə xəsarət alan 6 nəfər (4 kişi, 2 qadın) Sumqayıt Tibb Mərkəzinin nəzdində olan tibb müəssisələrinə təxliyə olunub.**

TƏBİB-dən verilənən məlumata görə, Sumqayıt Tibb Mərkəzinin Təcili Tibbi Yardım Xəstəxanasına ağır yanıq xəsarətləri ilə yerləşdirilən 1977-ci il (kişi), 2007-ci il (kişi) və 2010-cu il (qadın) təvəllüdlü şəxslərə zəruri tibbi yardımlar göstərilib. Onlar ixtisaslı tibbi yardımın göstərilməsi üçün Nərimanov Tibb Mərkəzinin nəzdində olan Yanıq Mərkəzinə təxliyə olunublar.

Təcili Tibbi Yardım Xəstəxanasına hospitalizasiya olunan 1952-ci il təvəllüdlü (kişi) şəxsə arterial hipertenziya səbəbilə zəruri tibbi yardımlar göstərilib. Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsində müalicəsi davam etdirilir, vəziyyəti stabildir.

1975-ci il təvəllüdlü (qadın) şəxsə sol ayağın yüngül kəsilmiş yarası diaqnozu təyin edilib. Sözügedən şəxs stasionar müalicədən imtina edib.

Uşaq Xəstəxanasına hospitalizasiya olunan 2008-ci il təvəllüdlü (kişi) şəxsə diz oynağının açıq yarası diaqnozu təyin edilib. Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsində müalicəsi davam etdirilir, vəziyyəti stabildir.

Novxanı bağları massivindəki partlayışla əlaqədar isə Sumqayıt Tibb Mərkəzinin nəzdində olan Təcili Tibbi Yardım Xəstəxanasına xəsarət alan 2 nəfər (1 qadın, 1 kişi) hospitalizasiya olunub.

1949-cu il təvəllüdlü (kişi) şəxsə müxtəlif nahiyələrin I, II dərəcəli termiki yanığı diaqnozu, 1959-cu il (qadın) təvəllüdlü şəxsə əzilmiş, cırılmış yaralar diaqnozları təyin edilib.

1949-cu il təvəllüdlü şəxs ixtisaslı tibbi yardımın göstərilməsi üçün Nərimanov Tibb Mərkəzinin nəzdində olan Yanıq Mərkəzinə təxliyə olunur.

Hazırda digər şəxsin müalicəsi reanimasiya şöbəsində davam etdirilir, vəziyyəti ağırdır.

XQ-nin müsahibəsi

# “Qərb demokratiya və ədaləti çoxdan ayaqlar altına atıb”

**Avropanın, ABŞ-nin postsovet məkanında, konkret olaraq Cənubi Qafqaz respublikalarında hansı maraqları güddüyü heç kəsə sirri deyil. Bölgədə hadisələrin son 30 illik xronologiyasına nəzər yetirsək, bu bölgənin “böyük güclər”in görünən və görünməyən qarşıdurması, özəl maraqlarını təmin etmələri üçün sınaq meydanına çevrildiyini tam əminliklə söyləyə bilərik. Müəyyən dövrlərdə, keçid mərhələlərində bu qarşıdurmanın xarakteri fərqli formalar alsa da, mahiyyəti dəyişməyib. Bunun sonu olacaqmı? Bölgədənkənar aktorların güzəştsiz mübarizəsində Azərbaycanı hansı təhlükələr gözləyə bilər? Bu və digər suallarımızı Qərbi Kaspi Universitetinin professoru, diplomat, politoloq Fikrət Sadıxov cavablandırır.**





***– Fikrət müəllim, son 30 ildə Qərbin postsovet məkanındakı respublikalara münasibətində müşahidə olunan tendensiya demokratik prinsipləri geosiyasi və iqtisadi maraqlara qurban verilməsidir. Bu dəyişikliyin əsas səbəbləri hansılardır?***

– Qərbin postsovet məkanındakı bir sıra respublikaları öz nəzarəti altına almaq planları bu günün məsələsi deyil. Bu, keçmiş SSRİ ərazisində onun maraqlarını təmin etməsindən ötrü əsas prinsipinə çevrilib. Təbii olaraq, Qərb üçün bu prinsip naminə demokratik dəyərlər də arxa plana keçib. Bunların yerini geosiyasi və iqtisadi maraqlar tutub. Aydın məsələdir ki, bu prinsiplərə üstünlük verilməsinin əsas səbəbi Qərblə Rusiya arasında davam edən qarşıdurmanın nəticəsidir. Bəli, bu iki düşərgə arasında postsovet respublikaları uğrunda amansız mübarizə gedir. Yəni, Qərbin bir çox ölkələri, beynəlxalq təşkilatları, institutları bütün üsullardan yararlanmaqla bu respublikaları özlərinə loyal oyunçulara çevirməkdən ötrü çalışırlar. Əlbəttə ki, bu, heç də asanlıqla alınan məsələ deyil. Misal üçün, Azərbaycan heç vaxt kənar güclərin diktəsi ilə hərəkət etməyib və yaşamayıb. Bakı siyasi və diplomatik addımlarını yalnız milli mənafedən çıxış edərək atıb. Doğrudur, Azərbaycandan fərqli olaraq, bəzi respublikalar Qərbin qarşısında əyilib, digərləri isə ciddi müqavimət göstərməkdədir. Onlardan biri də qonşuluğumuzdakı Gürcüstandır.

***– Konkret Ermənistan–Azərbaycan münaqişəsinə yanaşmada biz ikili standartların, hətta xristian həmrəyliyinin əyani şahidi olduq. Doğrudanmı, Qərb bəyan etdiyi beynəlxalq hüquqa söykənən, qanunun aliliyi kimi ümumbəşəri dəyərləri ayaqlar altına atıb?***

– Qərb üçün bəşəri dəyərlər həmişə ritorik anlayış olub. Eyni zamanda, onu da deməliyik ki, Avropanın beynəlxalq hüququ, bəşəri dəyərləri sözdə üstün tutması onu göstərir ki, onlar elan etdiyi həmin prinsip və normaları özləri ayaqlar altına atıblar. Bunu biz öz təcrübəmizdən yaxşı bilirik. Ermənistanın otuz il ərzində Azərbaycana qarşı davam edən işğalçılıq siyasətinə, ərazimizə təcavüzünə demokratiyadan, insan hüquqlarından pafosla danışan Qərbin ikili standartlarla yanaşmasını unutmamışıq. Azərbaycan özünün ərazi bütövlünü və suverenliyini tam bərpa edəndən sonra həmin qüvvələrin təşvişə düşdüklərini də görürük. “Kollektiv Qərb”in məhz beynəlxalq hüququ, ədaləti bərpa edən, bölgədə reallığı dəyişən Azərbaycana qarşı açıq şəkildə həm siyasi, həm də diplomatik müstəvidə hansı addımları atmağa başladığına bütün dünya şahidlik edir. Birmənalı şəkildə deyə bilərik ki, Qərb Cənubi Qafqazda özünün korporativ maraqlarını təmin etmək naminə hər şeyi – demokratik prinsipləri, bəşəri dəyərləri qurban verməyə hazırdır. Rəsmi Bakının da bu münasibətə tamamilə adekvat münasibət sərgiləməyə haqqı var. Çünki Azərbaycan daha otuz əvvəlki zəif və siyasi iradəsi kövrək ölkə deyil.

***– Cənubi Qafqazdan söz düşmüşkən, “kollektiv Qərb” özü üçün bu bölgəni, sanki, təcrübə zonasına çevirib. İndi Gürcüstanda ciddi hadisələr baş verir. Qonşu ölkədə davam edən eskalasiyada Qərbin rolunu necə qiymətləndirərdiniz?***

– Görünən odur ki, “kollektiv Qərb” nəyin bahasına olursa-olsun, Cənubi Qafqazı özünün nəzarəti altına götürmək istəyir. O, bu missiyasına vaxtilə elə Azərbaycanda başlamışdı. Amma burada alınmadı. Qəti mövqe və siyasi iradə nümayiş etdirən, balanslı diplomatiyaya üstünlük verən Azərbaycanın yalnız milli maraqlarından çıxış etməsi Qərbi düşünməyə vadar etdi. Bakının bu cəsarətli mövqeyi, deyə bilərik ki, onları “yuxudan ayıltdı”. İntəhası, Avropanın bu məkrli planları Ermənistana münasibətdə alınır. Hər halda bunun baş verməsi üçün Fransa əlindən gələni edir. Məhz Parisin təhriki sayəsində Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi anti-Azərbaycan yönümlü qətnamə və bəyanatların məqsədi Bakını əyilməyə məcbur etmək idi. Bu da alınmayanda, görünür, növbə Gürcüstana çatıb. Görünən mənzərə ondan ibarətdir ki, “kollektiv Qərb”, xüsusilə də, Avropa İttifaqı açıq şəkildə bəyan edir ki, Gürcüstan yalnız mənə tabe olmalı və yaxın gələcəkdə deyil, indi, dərhal mütləq onun üzvünə çevrilməlidir. Vətəndaş cəmiyyəti nümayəndələrini, gəncləri küçələrə çıxarmaqla bu məqsədinə nail olacağını düşünür. Gürcüstan prezidentinin hətta məktəbliləri, azyaşlıları etiraz aksiyalarına qoşulmağa çağırması da kənardan verilən təlimatların nəticəsi, orada yazılmış ssenarinin tərkib hissəsidir. Yəqin bu yolla istəyirlər ki, gürcü uşaqları da gözyaşardıcı qazların təsirinə məruz qalsınlar. Ardınca Qərbin “insan hüquqlarının müdafiəsi üzrə” institutları hay-küy qaldırsınlar ki, bəs Gürcüstanda azyaşlılara zor tətbiq edirlər. Guya, bu üsullarla Avropa İttifaqı Gürcüstanı özünə yaxınlaşdırmağı planlaşdırır. Amma qonşu ölkənin ictimaiyyətinin böyük qismi bunun əleyhinədir. Əslində, keçirilən seçkilərin nəticələri də bu reallığı təsdiqləmiş oldu.

***– Amma bəzi dairələrdə səsvermə prosesində saxtakarlığa yol verilməsi ilə bağlı iddialar eşidilirdi...***

– Seçkinin nəticələrinə kölgə sala biləcək heç bir fakt, tutarlı arqument ortaya qoya bilmədilər. Demək istəyirəm ki, hər şey siyasi ritorika, bəyanatlar səviyyəsindədir. Hesab edirəm ki, Gürcüstandakı mövcud hakimiyyət öz yoluna və prinsiplərinə tam uyğun addımlar atmalı, ölkənin suverenliyini axıra qədər müdafiə etməlidir. Hakimiyyət heç bir halda respublikanın daxili işlərinə kənar müdaxiləyə yol verməməlidir.

Baxmayaraq ki, həmin “kollektiv Qərb” belə müdaxilələr sahəsində “zəngin təcrübəyə” malikdir. Bunun əyani misalı olaraq, Fransanın uzun illər müstəmləkələrini ordusunun, polisinin müdaxiləsi ilə, yerli xalqları sərt məngənələrdə sıxmaqla əlində saxlamağa çalışmasını göstərmək olar. Bu, qeyri-qanuni, qeyri-insani neokolonialist siyasətin sonda nə ilə nəticələndiyi hazırda bütün dünyaya məlumdur.

Qərbin aparıcı dövlətlərindən biri hesab olunan Fransa ilə müqayisədə Azərbaycan heç bir dövlətin daxili işlərinə qarışmır və özünə qarşı belə cəhdlərə heç vaxt imkan verməyəcək. Bunu avropadakılar kimi, okeanın o tayındakılar da çox yaxşı bilirlər.

*Qələmə aldı:*
***İmran BƏDİRXANLI***
***XQ***

# Milli QHT Forumunun pozuntu və sui-istifadə hallarına dair bəyanatı

**Azərbaycan Milli QHT Forumu İctimai şuraların formalaşdırılmasında pozuntulara və üzvlükdən sui-istifadə hallarına dair bəyanat yayıb.**

“Apardığımız təhlillər göstərir ki, hazırda mərkəzi icra hakimiyyəti qurumları üzrə mövcud İctimai şuraların təxminən 25%-i eyni şəxslərdən ibarətdir. Azərbaycan əleyhinə iş aparan bir sıra xarici donorlarının, Qərb səfirliklərinin təsiri altında olan şəxslərin dövlət qurumları yanında İctimai şuralara müxtəlif üsullarla düşməsi, bu statusdan sui-istifadə etməsi, mandatlarından kənar fəaliyyət halları, özlərini “qrant vasitəçiləri” kimi apararaq məlumatlar toplaması barədə siqnallar narahatlıq doğurur. Bəzi Qərb səfirliklərinin Azərbaycanda İctimai şuralarda təmsil olunan QHT-ləri ələ almağa çalışaraq, onlara özlərinin balansında olan nəqliyyat vasitələrini bağışlamaq istəkləri barədə də məlumatlar var.

Milli QHT Forumu hesab edir ki, İctimai şuraların “İctimai iştirakçılıq haqqında” Qanunun tələblərinə uyğun fəaliyyəti təmin olunmalı, İctimai şuralar yalnız ictimai maraqlara xidmət etməli, ictimai nəzarəti təmin etməli, bu şuraların tərkibinin formalaşmasında və fəaliyyətində sui-istifadə halları aradan qaldırılmalıdır”, – deyə bəyanatda bildirilib.

***XQ***

# Tbilisidə “etirazçı”ların 30 faizi xaricilərdir

**Tbilisidə keçirilən etiraz aksiyalarında saxlanılanların 30 faizi xarici ölkələrin vətəndaşlarıdır.**

Bu barədə “Gürcü Arzusu–Demokratik Gürcüstan” Partiyasının icraçı katibi Mamuka Mdinaradze dünən keçirdiyi brifinqdə məlumat verib. Onun sözlərinə görə, təkcə bir gecədə saxlanılan 10 nəfərdən 8-i xarici ölkə vətəndaşlarıdır. Saxlanılanlar arasında Rusiya, ABŞ, Böyük Britaniya və Niderland vətəndaşları var. M.Mdinaradze deyib: “Ən radikal etirazçılar arasında xarici vətəndaşlardan əlavə, keçmiş Baş nazir Giorgi Qaxariyanın “Gürcüstan üçün” və “Birləşmiş Milli Hərəkat” partiyasının fəalları da olub”.



***XQ***

# İndiki etirazlardan “qızılgül qoxusu” gəlmir

**(əvvəli 1-ci səhifədə)**

Analitiklərin fikrincə, Qərb – Gürcüstan münasibətlərinin qarşıdurma mərhələsinə keçməsi regionun gələcəyi barədə ciddi düşünməyə əsas verir. Çünki qonşu ölkədə siyasi vəziyyətin xarakteri regiona da təsir göstərir. Doğrudur, Gürcüstanda radikal qüvvələrin hökumətə qarşı destruktiv fəaliyyəti Qərbin arzuladığı nəticəni vermir, rəsmi Tbilisi hər hansı bir xaosa yol verməyəcəyini bildirir, asayişi pozmağa çalışanlara qarşı qanun çərçivəsində tədbirlər görür. Bununla belə, paytaxtda baş verən hadisələrin inkişafı belə ehtimal etməyə əsas verir ki, radikal qüvvələr qarşıdurmanın xarakterini dəyişməyə cəhd göstərirlər. Aydındır ki, Qərb kursu qəsdən hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” Partiyasını sarsıtmaq məqsədi ilə ölkə daxilində vəziyyətin sabitliyini pozmağa can atır. Belə siyasətin əvvəllər Moldova və Ukraynada sınaqdan keçirildiyi hamıya məlumdur. Siyasi müşahidəçilərin sözlərinə görə, Qərb Gürcüstanda idarə olunan müxalifəti hakimiyyətə gətirməyə çalışmaqla, respublikanı geosiyasi qarşıdurmada “Qoca qitə”nin müttəfiqinə çevirməyi planlaşdırır. Bu siyasət, əlbəttə ki, çox risklidir, çünki Gürcüstanı yad oyunun iştirakçısına çevirə bilər.



Qonşu ölkədə görürlər ki, etiraz aksiyalarını açıq şəkildə qərbyönümlü QHT üzvlərindən olan əcnəbilər və ya onların az tanınan muzdlu emissarları idarə edirlər. Syasi texnoloqlar bu faktı gürcü iğtişaşları ilə Ukraynanın “Maydanı” arasında ciddi fərq kimi qabardırlar. Məsələ ondadır ki, “Maydan”da ukraynalı siyasətçilər əsas rol oynamışdılar və 2014-cü ildə Qərbi razı salan namizəd prezident seçilmişdi. Bugünkü Gürcüstan etirazlarında gürcü siyasətçilərinin özləri, hətta müxalifət partiyalarının liderləri də artıq arxa plandadırlar. Mütəxəssislərin qənaətinə görə, onları kənardan birbaşa liderlər və koordinatorlar əvəzləyiblər.

Əlbəttə, Tbilisidə gecələr keçirilən etirazlardan “qızılgül qoxusu” gəlmir. Gürcüstan ötən iyirmi ilin Gürcüstanı deyil. Xalq artıq siyasi çəkişmələrin yeri olacaq Gürcüstanı qəbul etmir. Sıravi gürcü vətəndaş kənardan dürtülən ideya və vədlərin ziyanını çox yaxşı bilir. İndiki iğtişaşların da uğurla nəticələnəyi gözlənilmir, çünki hazırda beynəlxalq şərait də tam fərqlidir. “Rossiya v qlobalnoy politike” jurnalının baş redaktoru Fyodor Lukyanovun sözlərinə görə, vəziyyət 21 il əvvəlkindən köklü şəkildə fərqlənir. İlk dəfə 2000-ci illərin əvvəllərində Gürcüstanda sosial-iqtisadi vəziyyət yaxşı deyildi. F.Lukyanov vurğulayır ki, Gürcüstan hazırda sabitlik və nisbətən uğurlu inkişaf şəraitində yaşayır, beynəlxalq fırtınalarla bağlı təhlükələrdən yayınır. Rusiyalı mütəxəssis düşünür ki, mövcud mühitdə hakimiyyətin dəyişməsi, demək olar ki, zəmanətli xaos demək olardı.

F.Lukyanov belə bir sual verir: “Əsas sual odur ki, etirazçılar cəmiyyəti həqiqətən sarsıdacaq bir zorakılıq səviyyəsinə nail ola biləcəklərmi? Təxribatlar bu cür hadisələrin ayrılmaz hissəsidir, deyə bilərik ki, onlar özünəməxsus “oyun qaydaları”nın bir hissəsidir. Etirazçıların vəzifəsi “qəsbkar hakimiyyət”in “vəhşi” simasını dünyaya göstərməkdir, hakimiyyətin vəzifəsi zəifliyə yol verməmək, möhkəm dayanmaq, eyni zamanda, təxribatlardan mümkün qədər yayınaraq çevik olmaqdır. Bu işə böyük bacarıq və dözüm tələb olunur”.

Gürcüstan hökuməti bu vəzifənin öhdəsindən gəlir. Bundan başqa, rəsmi Tbilisi iğtişaşların arxasındakı qüvvələri da yaxşı tanıyır. Ötən gün Baş nazir İrakli Kobaxidze brifinqdə açıqladı ki, Gürcüstanın müxalif siyasi qüvvələrinin fəalları, eləcə də qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri Gürcüstan paytaxtında etiraz aksiyaları təşkil edirlər: “Əlbəttə, bu zorakılığı təşkil edən, lakin özləri kabinetlərində gizlənən siyasətçilər bu günlərdə baş verən hadisələrə görə məsuliyyətdən qaça bilməyəcəklər. Onu da xatırladacağam ki, bu zorakı aksiyalarda iştirak edən və onlara dəstək verən varlı QHT rəhbərləri bu ofislərdə gizlənirdilər”.



Gürcüstan hökumətinin başçısı onu da əlavə etdi ki, hakimiyyət nümayişçiləri gözyaşardıcı qazdan xüsusi qoruyucu eynəklərlə təmin edən, onlara pirotexniki vasitələr və digər ləvazimatlar alan QHT-lərin olduğunu da bilir.

Təəssüf ki, xarici qüvvələr və ölkələr baş verən hadisələrin Gürcüstanın daxili işi olduğunu “unudurlar”, demokratik əsaslarla keçirilən seçkilərin nəticələrinə hörmət etməyə meyil göstərmirlər. Əksinə, Qərb müxtəlif sanksiya alətlətini işə salaraq, qanuni seçilmiş hökumətə təzyiq göstətməyə çalışır, radikal müxalifəti və onun orbitində fırlanan QHT nümayəndələrini, eləcə də macərə axtaranları dəstəkləyərək təxribata sürükləyirlər. Amma bütün bu destruktiv siyasətin fiaskoya uğrayacağı şübhə doğurmur. Milli problemlərin həllinə köklənən müdrik gürcü xalqının kənar qüvvələrin bədnam planlarının ölkədə reallaşmasına imkan verməyəcəyinə inam böyükdür.

***S.ELAY***
***XQ***

# Milli Məclisin plenar iclası



**Dekabrın 3-də Sahibə Qafarovanın sədrliyi ilə parlamentin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda hökumət üzvləri də iştirak ediblər.**

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyə 10 məsələnin – 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələrinin ikinci oxunuşda daxil edildiyini diqqətə çatdırıb.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov birinci məsələ – "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. O bildirib ki, layihə həm komitələrdə, həm də Milli Məclisin plenar iclasında birinci oxunuşda geniş müzakirə olunub. Azər Əmiraslanov qeyd edib ki, 2025-ci ilin büdcə zərfində makroiqtisadi sabitlik, davamlı iqtisadi artım və büdcə dayanıqlılığı, iqtisadi siyasətin prinsipləri və əsas hədəfləri müəyyən edilir. Rifaha və iqtisadi artıma yönəldilmiş xərclər bir-birini tamamlayır və günün reallıqlarına cavab verir. Müzakirələrin yekununda qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra gündəliyin növbəti iki məsələsi – "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələri təqdim edilib. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bu məsələlər barədə məlumatında hər iki layihənin birinci oxunuşda ətraflı təqdim edildiyini söyləyib. O xatırladıb ki, Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsinin gəlir və xərcləri cari illə müqayisədə 10,5 faiz, İşsizlikdən Sığorta Fondunun növbəti il büdcəsinin gəlir və xərcləri isə cari illə müqayisədə 9,5 faiz çoxdur.

Sonra Azər Əmiraslanov hər iki sənəd barədə bu komitənin müsbət rəyini açıqlayıb. Müzakirələrdə çıxış edənlər təqdim olunmuş sənədlərin əhalinin sosial rifahının yaxşılaşmasında, xalqımızın gələcək həyat səviyyəsinin daha da yüksəldilməsində mühüm əhəmiyyət daşıdığını söyləyiblər. Bildirilib ki, təqdim olunan qanun layihələri 2025-ci ildə də sosial siyasətin uğurla davam etdirilməsinə xidmət edəcək. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Layihəyə əsasən, əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği 2025-ci il üçün ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən edilir. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məsələyə dair bu komitənin müsbət rəy verdiyini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Komitə sədri Musa Quliyev "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. O, 2025-ci il üçün ehtiyac meyarının həddinin 285 manat məbləğində müəyyən edildiyini diqqətə çatdırıb. Azər Əmiraslanov məsələ barədə komitənin müsbət rəyini səsləndirib. Iayihə ikinci oxunuşda qəbul edilib.

Azər Əmiraslanov, eyni zamanda, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Sənəddə investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılmasına dair, teatr, kino, muzey və simfonik orkestr fəaliyyəti üzrə vergi güzəştlərinin verilməsi, bəzi xidmət sahələri üzrə mikrosahibkarların gəlirlərinə 75 faiz vergi güzəştinin müvafiq tələblərlə şərtləndirilmədən tətbiq edilməsi, ölkə ərazisində istehsal olunan avtobusların satışının, habelə təsdiqedici sənəd əsasında istehsal məqsədilə avtobusların ehtiyat hissələrinin idxalının ƏDV-dən azad edilməsi, tibb turizminin inkişafı məqsədilə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə tax-free rejimində ƏDV-nin geri qaytarılması , sənaye məhəllələrinin istifadəsində olan torpaq sahələrinə və əmlaklara görə idarəedici təşkilatın və operatorun torpaq və əmlak vergisindən azad edilməsi ilə bağlı və digər güzəştlər nəzərdə tutulub.

Sonra komitə sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Vergi ödəyiciləri və vergi orqanı arasında qarşılıqlı məlumat mübadiləsinin asanlaşdırılması məqsədilə hazırlanan qanun layihəsində heç bir dəyişikliyin aparılmadığını deyən komitə sədri sənədin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Növbəti məsələ – "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı da komitə sədri Azər Əmiraslanov təqdim edib. O bildirib ki, nağd hesablaşma limitləri ilə bağlı olan bu qanun layihəsi ilə əlaqədar hər hansı bir qeyd, təklif daxil olmayıb.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) mahiyyəti barədə məlumatı diqqətə çatdırıb. Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Daha sonra komitə sədri Azər Əmiraslanov gündəliyin sonuncu məsələsi olan "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin bugünkü plenar iclası başa çatıb.

# İslam dünyası gənclərinin Şuşa görüşü



**Gənclər və İdman Nazirliyi, İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə İslam dünyasının "Gənclər Paytaxtı" olan Şuşa şəhərində beynəlxalq proqram keçirilir.**

Tədbirdə İslam Əməkdaşlıq Təşkilatına üzv və müşahidəçi ölkələrin 300-ə yaxın rəsmi nümayəndəsi, gənclər və könüllülər iştirak edirlər.

Gənclər və İdman Nazirliyinin şöbə müdiri Ramil Cabbarov konfransda iştirak edən gənclərə uğurlar arzulayıb. İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun departament direktoru Tuğba Ceren Çerçi Şuşada olduğu üçün qürur hissi duyduğunu söyləyib və qonaqpərvərliyə görə Azərbaycana minnətdarlığını çatdırıb.

Həmçinin nazirliyin "Yaradıcılıq marafonu"da dünən start götürüb. Bu proqram İƏT-ə üzv ölkələrdən olan müxtəlif istedadlı və yaradıcı gəncləri birləşdirən platformadır. Burada gənclər dörd sahə – animasiya, film, moda, dizayn üzrə fərqli məhsullar yaradacaqlar. Tədbirdə qaliblər elan ediləcək. Bağlanış mərasimi dekabrın 4-də Şuşa şəhərində reallaşacaq.

***XQ***

# Naxçıvanda yeni yollar salınır



**"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksinin, Culfa şəhərdaxili və Darıdağ Arsenli Su Müalicə Mərkəzinin avtomobil yolları əsaslı təmir olunub.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli yollarda aparılan əsaslı təmir işləri ilə tanış olub.

"Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri Bəhruz Əsgərov məlumat verib ki, 13,9 kilometrlik "Əshabi-Kəhf" yolu sökülərək torpaq və qum-çınqılla bərkidilib, genişləndirilib, qalın asfalt örtüyü salınıb. Yolun torpaq hissəsinin eni 11, asfalt hissəsinin eni isə 7,4 metrdir. Avtomobil yolunda 80 müvafiq yol nişanı və 600 işıq əksetdirici siqnal dirəkləri quraşdırılıb.

Culfa şəhərinin mərkəzi avtomobil yolu ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki,7,8 kilometrlik mərkəzi avtomobil yollarına ikiqat asfalt örtüyü salınıb. 910 ton yol keçidi və qapı ağızlarında asfalt-beton işləri aparılıb. 7-9 metr enində asfaltlanan yolda 52 müvafiq nişan quraşdırılıb, təhlükəsiz və rahat hərəkət təmin edilib. Sakinlər yollarda yaradılan müasir şəraitə görə dövlətimizə minnətdarlıq ediblər.

Darıdağ Arsenli Su Müalicə Mərkəzinə gedən avtomobil yoluna baxış zamanı məlumat verilib ki, yolun əsası bərkidilib, 3,5 kilometr məsafədə üçqat asfalt örtüyü salınıb. Yolun torpaq hissəsinin eni 10, asfalt hissəsinin eni isə 8 metrdir. Müvafiq yerlərdə sürət həddini nizamlamaq, təhlükəsiz hərəkəti təmin etmək üçün 52 yol nişanı və 156 işıq əksetdirici siqnal dirəkləri quraşdırılıb.

# Ordubadda sakinlərlə görüş



**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ordubad rayonunda sakinlərlə görüşüb. Görüşdən əvvəl səlahiyyətli nümayəndə ümummilli lider Heydər Əliyevin Ordubad şəhərində ucalan abidəsini ziyarət edib, xatirəsini ehtiramla anıb.**

Sonra vətəndaşları, o cümlədən şəhid ailəsi üzvünü qəbul edən səlahiyyətli nümayəndə onların hər biri ilə fərdi söhbət aparıb, problem və təkliflərini dinləyib. Müraciətlər qeydə alınıb, həlli ilə bağlı qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görüləcəyi bildirilib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

**Naxçıvan Muxtar Respublikası – 100**

# Şanlı tarixin fundamental tədqiqi

**Azərbaycanımızın ən qədim mədəniyyət mərkəzlərindən biri tarixlər şahidi ulu Naxçıvan torpağıdır. Bu diyar tarix boyu müxtəlif imperiyaların göz dikdiyi strateji əhəmiyyətli məkanlardan biri olmuşdur. Əldən-ələ keçən bu cənnətməkan diyar XX əsrin əvvəllərində muxtariyyət qazanmaqla taleyini birdəfəlik Azərbaycanla bağlamışdır.**

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı imzaladığı sərəncamda bu torpağın qəhrəmanlıq tarixi və ölkəmizin ayrılmaz hissəsi olduğu mötəbər əksini tapıb: "Naxçıvanın qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir".

Sərəncamda da qeyd edildiyi kimi, təəssüf ki, Naxçıvanın qədim keçmişi, Muxtar Respublikanın yaranması və inkişaf tarixi sovet dövründə Azərbaycan tarixşünaslığında doğru-düzgün şəkildə işıqlandırılmamışdır. Bu mənada akademik İsmayıl Hacıyevin bu yaxınlarda "Elm və təhsil" nəşriyyatında çapdan çıxan "Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi" adlı monoqrafiyası sərəncamdan irəli gələn vəzifələrin araşdırılması istiqamətində qədim diyarın 100 illik yubiley tədbirləri ərəfəsində ərsəyə gələn fundamental elmi-tədqiqat əsəridir.

Naxçıvan diyarının muxtariyyət statusu əldə etməsi və bu əsasda Azərbaycanın tərkibində Muxtar Respublikanın yaradılması dövlətçiliyimizin tarixində müstəsna əhəmiyyətli hadisə olmuşdur. Əks halda, Naxçıvan da Qərbi Zəngəzur kimi itirilə bilərdi. Bu tarixi uğura baxmayaraq, Naxçıvanın şərəfli tarixi, xüsusən, muxtariyyət qazanması məsələləri son illərədək öz sistemli elmi təfsirini tapmamışdı.

Tarixçi akademik İsmayıl Hacıyevin elmi fəaliyyətində naxçıvanşünaslığın tədqiqi məsələləri xüsusi yer tutur. "Azərbaycan dövlətçiliyi tarixində Naxçıvan" adlı doktorluq dissertasiyası da daxil olmaqla o, son 30 ildə Naxçıvan diyarının siyasi tarixi, muxtar respublikada dövlətçiliyin yaranması və inkişafı məsələlərini geniş və yüksək elmi səviyyədə araşdırmaqla məşğuldur. Alimin "çoxsaylı kitab, monoqrafiya və məqalələri Naxçıvan tarixinin azərbaycançılıq ideologiyası işığında tədqiqi baxımından sanballı və aktual elmi silsilə təşkil edir. Bu istiqamətdə akademikin yeni çapdan çıxmış "Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi" monoqrafiyası isə çoxillik tədqiqatların ümumiləşdirici yekunu sayıla bilər. Giriş, 7 fəsil və nəticədən ibarət olan monoqrafiyaya geniş ədəbiyyat siyahısı, şəxs və coğrafi adlar göstəricisi və əlavələrin də daxil edilməsi əsəri daha da zənginləşdirib.

Girişdə Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi probleminin tədqiqi səviyyəsi haqqında müvafiq mənbələr əsasında geniş şəkildə məlumat verilir. "Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə" adlanan birinci fəsil 5 yarımfəsildən ibarətdir. Çar Rusiyası 1917-ci ildə süqut etdikdən sonra Cənubi Qafqazda da vəziyyət mürəkkəbləşmiş, bölgə nəzarətdən çıxmışdı. Ona görə müəllif bu fəsildə Azərbaycanda dövlətin bərpası uğrunda mübarizə dövründə Naxçıvan (1917–1918), yeni yaranan Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan (1918–1920) məsələlərindən, həmin dövrdə Türkiyənin Naxçıvan bölgəsinə siyasi-hərbi yardımından, İngiltərə və ABŞ-nin Naxçıvan bölgəsinə dair ikili siyasətindən və bu kontekstdə ermənilərin bölgəyə ərazi iddiaları və silahlı müdaxiləsi məsələlərindən ayr-ayrı başlıqlar altında əhatəli bəhs etmişdir.




Müəllif göstərir ki, Naxçıvanın işğalçılardan müdafə olunması üçün osmanlı ordu birliklərini regiona yerləşdirən Kazım Qarabəkir paşa 1918-ci il noyabr ayında ordu Naxçıvanı tərk etməyə məcbur olduqda bölgənin düşmənlərdən qorunması üçün yeni siyasi qurum – Araz–Türk Cümhuriyyətinin yaradılması ideyasını irəli sürənlərdən biri olmuşdur. Araz–Türk Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu" adlanan II fəsil bu siyasi təşkilatın fəaliyyətinin öyrənilməsinə həsr edilmişdir. Alim ilk dəfə bu monoqrafiyada Araz–Türk Cümhuriyyətinin sərhədləri, fəaliyyəti, hökumətin tərkibi ilə bağlı bəzi mübahisəli məsələləri aydınlaşdırmağa nail olmuşdur.

Monoqrafiyanın III fəsli "Naxçıvanda sovet hakimiyyətinin qurulması, muxtariyyət statusu və Naxçıvan MSSR-in təşkili" adlanır. Məlumdur ki, bu dövrdə daşnak Ermənistanı Naxçıvanı işğal etmək üçün var qüvvəsi ilə çalışırdı. Naxçıvanı qoruyan Türk hərbi birliyi buna imkan vermirdi. Yerli əhali Naxçıvanın sovet Azərbaycanının tərkibində olmasını istəyirdi. Naxçıvanda sovet hökumətinin yaradılması 1920-ci il iyulun 28-də elan edilmişdi. Amma daşnak Ermənistanı Naxçıvana ərazi iddialarından əl çəkmək istəmirdi.

Hərc-mərcliyə və Ermənistanın ərazi iddialarına son qoymaq üçün B.Şahtaxtinskinin iştirakı ilə 1921-ci ilin yanvar ayında Naxçıvanda referendum keçirildi. Referendumun nəticələri Moskva hökumətini məcbur etdi ki, yerli əhalinin iradəsini nəzərə alsın. Monoqrafiyada göstərilir ki, Moskva müqaviləsində Naxçıvanın ərazisi 6 min 238 kvadratkilometr göstərildiyi halda, 6 ay sonra imzalanmış Qars müqaviləsində bu ərazi 285 kvadratkilometr azaldılmışdır.

Türkiyənin təzyiqi ilə meydana çıxan bu müqavilələr, müəllifin təsbit etdiyi kimi, Moskvanın yüksək dairələrində qısqanclıqla qarşılanmış, onun icrasına imkan verilməmişdir. Diyar gah Naxçıvan ölkəsi, gah Naxçıvan Sosialist Sovet Respublikası adlandırılmış, Ermənistanın tərkibinə verilməsi üçün zəmin hazırlanmışdır. Türkiyənin tələbi ilə, nəhayət, 1924-cü il 9 fevral tarixində Azərbaycan tərkibində bu il 100 illiyi tamam olan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası elan edilmişdir.

Bu monoqrafiyada ilk dəfə muxtar respublikanın statusu məsələsi dövlət hüququ prinsipləri əsasında yüksək elmi səviyyədə tədqiq və təhlil olunmuşdur. "Naxçıvan MSSR XX əsrin 20–30-cu illərində" adlı IV fəslində muxtar respublika kimi bu bölgənin 15 illik siyasi-iqtisadi və mədəni məsələləri 4 yarımfəsildə arxiv materialları əsasında, azərbaycançılıq ideologiyası işığında araşdırılmışdır. Bu fəsildə Zəngəzur probleminin ortaya çıxması, sovet rəhbər dairələri üzərində erməni təsirinin güclənməsi nəticəsində Naxçıvan muxtariyyətinə qəsd, Azərbaycanla Naxçıvanı ayırmaq üçün qanunsuz olaraq ərazimizin Ermənistana verilməsi, bunun nəticəsində muxtar respublikanın 6 min 38 kvadratkilometr ərazisinin 1933-cü ildə 5 min 329,6 kvadratkilometrə endirilməsi məsələləri və bunun acı nəticələri faktlar əsasında şərh edilmişdir.

Monoqrafiyanın "Naxçıvan Muxtar Respublikası 1941–1945-ci illər müharibəsi dövründə" adlı V fəslində naxçıvanlıların müharibə cəbhələrində və arxa cəbhədəki fəaliyyətlərindən ətraflı şəkildə arxiv materialları əsasında yeni maraqlı məlumatlar verilmişdir. "Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı" adlanan VI fəsildə qədim diyarın müharibədən sonrakı dövrdən müstəqillik dövrünə qədərki ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı yeni arxiv materialları əsasında şərh və təhlil edilmişdir.

Bu qiymətli əsərin sonuncu VII fəsli diyarın müstəqillik dövründəki ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı məsələlərinin araşdırılmasına həsr olunmuşdur. Bu fəslin ilk bölməsi "Naxçıvan tarixində Heydər Əliyev dövrü (1990-1993)" adlanır. Bu, o vaxt idi ki, Naxçıvan böhran və səfalət içində idi, 20 Yanvar qırğını baş vermiş, Kərki kəndi işğal edilmişdi, Bakı ilə nəqliyyat əlaqəsi kəsilmək üzrə idi. Bu təhlükələri mərkəzin diqqətinə çatdırmaq üçün hətta Naxçıvan MSSR Ali Soveti 19 yanvar 1990-cı il tarixdə növbədənkənar sessiya çağırıb özünü müstəqil respublika elan etdi. Bu qərarla əlaqədar Heydər Əliyev demişdi ki, bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi.

Müəllifin bu fəsildə qeyd etdiyi kimi, "Heydər Əliyev Naxçıvana qayıdışı ilə bu bölgəni və bütün Azərbaycanı gözləyən real təhlükədən xilas etdi. Onun Naxçıvana gəlişi burada ictimai-siyasi həyatı daha da canlandırdı, xalqın mübarizə əzmini möhkəmləndirdi. Heydər Əliyev xalq deputatı, sonra isə Ali Məclisin sədri kimi fəaliyyət göstərdiyi dövrdə bütün respublika üçün böyük əhəmiyyət kəsb edən qərarlar qəbul edildi.

"Naxçıvan MR-in əsas inkişaf istiqamətləri və nailiyyətləri" bölməsində isə göstərilir ki, müstəqillik dövründə muxtar respublikada stabil hakimiyyətin yaradılması blokada şəraitinə baxmayaraq, sosial-iqtisadi, elmi-texniki və mədəni inkişaf sahələrində böyük uğurlara yol açdı. Muxtar respublikanın sosial-iqtisadi göstəriciləri kəmiyyət və keyfiyyət baxımından yüksəlməyə başladı. Beləliklə, Naxçıvanın Azərbaycanın həyatındakı rolu genişləndi və daha da möhkəmləndi.

Ümumiyyətlə, akademik İsmayıl Hacıyev "Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi" monoqrafiyası ilə bir daha sübut etdi ki, "ümummilli lider Heydər Əliyevin dediyi kimi: "Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb siyasi bir şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir".

***Əbülfəz QULİYEV,***
***AMEA-nın müxbir üzvü***

COP29

# Qalıq yanacaq istehlakına “STOP”

## *Bunun üçün sərt tədbirlər və birgə səylər lazımdır*

**BMT-nin 29-cu iqlim sessiyasının bağlanış plenar iclasında Paris Sazişinin 6-cı maddəsinin tam təsdiq edilməsi yüksək inteqrasiya olunan karbon bazarları üzrə danışıqların 10 ildən sonra uğurla başa çatması demək idi. COP29 Sədrliyinin əsas prioritetlərindən biri olan Paris Sazişi tərəflərin intensiv ikitərəfli texniki və siyasi danışıqları vasitəsilə, nəhayət, tam təsdiqini tapdı. Bununla da illərlə davam edən adıçəkilən strateji sənədin reallaşdırılmasına yol açıldı.**



Xatırladaq ki, Paris Sazişinin 6-cı maddəsi iqlimlə bağlı hədəflərə çatmaq məqsədilə əməkdaşlıq edən ölkələr üçün etibarlı və şəffaf karbon bazarlarının gerçəkləşdirilməsi nəzərdə tutulur. Bu transsərhəd əməkdaşlıq sayəsində ölkələrin milli iqlim planlarının həyata keçirilməsi nəticəsində xərclərin ildə 250 milyard dollara qədər azalcağı gözlənilir.

COP29 Sədrliyi tərəfləri bu vəsaiti daha böyük iqlim ambisiyalarına yenidən investisiya yatırmağa təşviq edir. Gələn ilin fevral ayında təqdim ediləcəyi planlaşdırılan növbəti nəsil etibarlı və şəffaf karbon bazarlarının yaradılması dünyanın 1,5 dərəcə hədəfinə çatmaqda mühüm əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, iqlim diplomatiyasında ən mürəkkəb və texniki problemlərdən birinin həlli sayılan 6-cı maddə üzrə razılıq kömür zavodlarının istismardan çıxarılması, külək stansiyalarının qurulması və meşələrin salınması kimi məsələləri əhatə edir. Ekspertlərin fikrincə, bu, inkişaf etməkdə olan dünyada yeni investisiya dalğası deməkdir. Eyni zamanda, həmin maddə üzrə yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünün təmin edilməsini şərtləndirir.

Bu qərarın, real, əlavə, yoxlanıla və ölçülə bilən emissiyaların azaldılması və aradan qaldırılması vasitəsilə karbon bazarlarının şəffaflığını və dayanıqlılığını təmin etməkdə, qlobal iqlim investisiyalarına təkan verməküçün böyük potensialı üzə çıxarmaqda önəmli rol oynayacağı gözlənilir. Ümumiyyətlə, bu istiqamətdə qəbul edilmiş təlimatlar və qaydalar karbon layihələrinin praktikliyinin və inklüzivliyinin qorunub saxlanmasını təmin etmək üçün nəzərdə tutulur. Həmin təlimatlar və qaydalar elə təşkil olunub ki, onlar karbon layihələrinin öz praktikliyinin və inklüzivliyinin qorunub saxlanmasını təmin edir, insan hüquqlarına hörmət bəsləyir və davamlı inkişafa dəstək göstərir, o cümlədən ölkələrə və layihə tərtibatçılarına Paris Sazişi çərçivəsində inamla əməkdaşlıq etmək imkanı verir.

İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynovun sözlərinə görə, qlobal temperaturun artması, qütb buzlaqlarının əriməsi və ekosistemlərin dəyişməsi kimi təhlükəli təsirlərin qarşısını almaq üçün qalıq yanacaqlardan istifadədən alternativ enerji mənbələrinə keçid sürətləndirilməlidir.

Bu barədə BMT-nin İqlim Dəyişikliyi Konfransının 29-cu sessiyasında da geniş müzakirələr aparılıb. Sessiyada tullantıların idarə edilməsi, bərpaolunan enerji həlləri, ekoloji cəhətdən təmiz mobillik, istixana qazı emissiyalarının idarə edilməsi və xalis sıfır karbon emissiyasına nail olmaq səyləri müzakirə olunub. Bildirilib ki, mövcud vəziyyəti dəyişmək üçün təkcə emissiyaların azaldılması üzrə beynəlxalq təşəbbüsləri dəstəkləmək deyil, həm də qalıq yanacaqlardan asılılığın azaldılmasına yönəlmiş texnologiyaların tətbiqi zəruridir. Buraya günəş və külək kimi bərpa olunan enerji mənbələrinə sərmayə qoymaq, infrastrukturu inkişaf etdirmək, elektrik avtomobillərdən istifadəni artırmaq lazımdır.

Dünyada, o cümlədən ölkəmizdə elektrik avtomobillərdən istifadə diqqət mərkəzində saxlanılıb. Çünki elektrik avtomobillərinə keçid də istixana qazlarının emissiyasının azalmasına təsir edə bilər. Hazırda bir çox ölkələrdə elektrik avtomobilləri havanın çirklənməsini azaltmağa təsir edir. Qaz və ya dizellə işləyən avtomobillərdən əhəmiyyətli dərəcədə aşağı istixana qazı emissiyaları yaradır. Eyni zamanda, bir çox elektrik avtomobilləri hələ də qalıq yanacaqlardan istehsal olunan elektrik enerjisi ilə işləyir. Deməli, bu sahədə də külək, günəş enerjisinə keçməyin vaxtı gəlib çatıb.

Yuxarıda qeyd etdiyimiz kimi, elektrik avtomobillərinə ölkəmizdə maraq artır. Bu ilin yanvar–oktyabr aylarında Azərbaycan 2 min 592 ədəd yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələri idxal edib. Bundan əlavə 12 min 529 ədəd elektrik enerjini xarici mənbədən doldurma qabiliyyətinə malik olanlar istisna olmaqla daxili yanma mühərriklə yanaşı, elektrik mühərriklə də hərəkətə gətirilən nəqliyyat vasitələri idxal edilib. Həmçinin sözügedən dövr ərzində ölkəyə 205 milyon 693 min ABŞ dolları dəyərində 6457 ədəd elektrik enerjisini xarici mənbədən doldurma qabiliyyətinə malik olan daxili yanma mühərriklə yanaşı, elektrik mühərriklə də hərəkətə gətirilən nəqliyyat vasitələri gətirilib.

Artıq evlərdə enerji mənbəyinin dəyişdirilməsinin də vaxtı çatıb. Mümkünsə, külək və ya günəş enerjisi kimi bərpa olunan enerji mənbələrinə keçilməlidir. Ev üçün müvafiq miqdarda enerji yaratmaq üçün damlara günəş panelləri quraşdırılmalıdır. Ev təsərrüfatlarının enerjisinin neft, qaz və ya kömürdən külək, eləcə də günəş kimi bərpa olunan enerji mənbələrinə keçirmək karbon qazı tulantılarını azaldır.

Bundan əlavə, ictimaiyyəti iqlim problemləri ilə bağlı müzakirələrə cəlb etmək və bütün maraqlı tərəfləri nəzərə alan strategiyalar hazırlamaq vacibdir. Amma bir faktı da unutmaq olmaz. Qalıq yanacaqların artan istehlakı əhəmiyyətli iqtisadi və sosial nəticələrə malikdir. Kömür, neft və qazdan asılı olan ölkələr enerji qiymətlərinin dəyişməsi və beynəlxalq iqlim öhdəliklərini yerinə yetirmək zərurəti ilə bağlı ciddi problemlərlə üzləşirlər. Bu, xüsusilə iqtisadiyyatın karbohidrogenlərə fokuslandığı regionlarda iqtisadi qeyri-sabitliyə və sosial iğtişaşlara səbəb ola bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan və BƏƏ “yaşıl” həmrəyliyə sadiqdir

**“Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında iqtisadi əməkdaşlığın, xüsusən qarşılıqlı hədəflərə mühüm töhfə verə biləcək davamlı inkişaf və enerji təhlükəsizliyi sahələrində işbirliyini daha da genişləndirmək üçün böyük potensial mövcuddur”.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov BƏƏ-nin Milli Gününə həsr olunmuş tədbirdə çıxışı zamanı daha sonra bildirib ki, iki ölkə arasında ticarət əlaqələri və sərmayələr sahəsində əməkdaşlıq davamlı inkişaf edir. Azərbaycanın dostu və etibarlı tərəfdaşı olan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələri getdikcə dərinləşir, bundan əsas məqsədin isə birgə fəaliyyətin daha da şaxələndirilməsidir.



M. Cabbarov vurğulayıb ki, Azərbaycan “yaşıl” və dayanıqlı iqtisadiyyata keçidə tam sadiq ölkədir: “İqlim dəyişikliyinə qarşı mübarizə aparmaq və müsbət nəticə əldə etmək əsas məqsəddir. Belə ki, 2050-ci ilə qədər istilik effekti yaradan qazların emissiyalarını 40 faiz azaltmaq qarşıda prioritet vəzifə kimi durur. Bu məqsədlə bərpa olunan enerji, enerji səmərəliliyi və dayanıqlı resursların idarə edilməsi sahələrində genişmiqyaslı təşəbbüslər həyata keçirilir və beynəlxalq iqlim dəyişiklikləri çərçivələri ilə uyğunluq gerçəkləşdirilir”.

Nazir xatırladıb ki, 2023-cü ildə Dubayda keçirilən COP28-dən sonra bu il COP29-u Azərbaycanda gerçəkləşdirmək, qlobal ətraf mühit təşəbbüslərinin önündə olmaq üçün ölkəmiz yorulmaz fəaliyyət göstərib.

M. Cabbarov qeyd edib ki, Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanın “yaşıl enerji”yə keçid prosesində mühüm tərəfdaşıdır: “BƏƏ-nin “Masdar” şirkəti bu prosesdə həlledici rol oynayır. Ötən il “Masdar” tərəfindən açılışı edilən 230 MVt gücündə “Qaradağ” Günəş Elektrik Stansiyası bərpa olunan enerji sahəsində uğurlu əməkdaşlığın əyani nümunəsidir. Azərbaycanda xarici sərmayə ilə tikilən ilk bərpa olunan enerji stansiyası həm də regionda ən böyük günəş elektrik stansiyasıdır.

Əminəm ki, Azərbaycan “yaşıl” iqtisadiyyatın inkişafı yolunda irəlilədikcə, BƏƏ ilə əməkdaşlığımız qarşılıqlı etimad, ortaq baxış və güclü iqtisadi əlaqələr hesabına davamlı uğurun gerçəkləşdirilməsi üçün daha da inkişaf edəcək”.

# Moldova COP29-un maliyyə razılaşmasını alqışlayır

**Moldova BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı ölkələrin iqlim dəyişikliyi ilə mübarizə üçün əlavə 1 trilyon ABŞ dolları toplamaq üçün “Bakı – Belen yol xəritəsi”ni işə salmaq barədə razılığa gəlməsini alqışlayır.**



Bu barədə mətbuata açıqlamasında Moldovanın ətraf mühit naziri Sergiu Lazarenku ölkəsinin məmnunluğunu bildirib. Onun sözlərinə görə, Moldova hesab edir ki, 1,3 trilyon dollar rəqəmi inkişaf etməkdə olan ölkələrin iqlim təsirlərinə artmasından qorunması və aşağı karbonlu yola keçməsi üçün lazım olan maliyyələşdirmə səviyyəsinə xeyli yaxındır. Onun sözlərinə görə, Bakıda əldə edilmiş 2035-ci ilə qədər ildə azı 300 milyard ABŞ dolları ayrılması ilə bağlı yeni hədəf əvvəlki hədəfdən 3 dəfə çoxdur.

Bunun inkişaf etməkdə olan ölkələr üçün emissiyaların azaldılması və iqlim dəyişikliyinin artan təsirlərinin aradan qaldırılması ilə bağlı ehtiyac duyulan maliyyənin səfərbər edilməsinə yönəldildiyini diqqətə çatdıran nazir deyib ki, daha çox maliyyələşdirmənin cəlb edilməsi ilə yanaşı, yeni hədəfin qəbul edilməsi maliyyənin keyfiyyəti və əlçatanlığı problemini həll etmək üçün də imkan yaradtı: “Moldova Respublikası ilə bağlı maliyyələşdirmə növü (qrantlar, kreditlər və onlara nə qədər asan çıxış əldə etmək) onların məbləği qədər vacibdir. Hesab edirik ki, maliyyənin ən həssas ölkələrə çatmasını təmin etmək üçün vəsaitlərin bölüşdürülməsi diqqət mərkəzində saxlanılmalıdır”.

Zəngin ölkələrin iqlim maliyyələşdirməsinin daha əhəmiyyətli artımına razılaşmamasından təəssüfləndiyini vurğulayan moldavalı nazir COP29-da 2 həftəlik gərgin danışıqlardan sonra iqlim maliyyəsinin yeni hədəfi barədə razılaşmanın əldə edilməsinin vacibliyinə toxunub. O deyib ki, razılaşma regionlardan, gəlir səviyyələrindən və ya xərc növlərindən asılı olaraq konkret maliyyə hədəflərinin müəyyən edilməsi kimi daha konkret tələblərdən yan keçir ki, bu da bizdə emissiyaların azaldılması və iqlim dəyişikliyinin artan təsirlərinin həlli üçün kifayət qədər maliyyələşmə əldə etmək uğrunda mübarizə aparmalı olacağımız barədə narahatlıq yaradıb.

Sergiu Lazarenkunun sözlərinə görə, inkişaf etməkdə olan ölkələr, həmçinin beynəlxalq maliyyə institutları ilə əlavə islahatlar üzərində işləmək, innovativ maliyyələşmədən istifadə və kapitalın artırılması, eləcə də Qlobal Həmrəylik Vergiləri üzrə Hədəf Qrupunda iştirak da daxil olmaqla 300 milyard ABŞ dolları hədəfinə çatmaq yollarını öyrənə bilərlər: “Bizim fikrimizcə, bütün maliyyə sisteminin – özəl sektor, ölkələrin öz resursları və milli inkişaf bankları da daxil olmaqla – öz maliyyə axınlarını Paris Sazişinin məqsədlərinə uyğunlaşdırması və genişləndirməsi üçün daha çox iş görülməlidir”.

S.Lazarenko müsahibəsinin sonunda onu da bildirib ki, ölkələr irəli getmək üçün iqlim maliyyələşməsi məsələlərində daha yüksək hədəflər qoymağa yanaşı, bu öhdəlikləri yerinə yetirməyə davam etməlidirlər.

# TAP konsorsiumunun “qızıl” metan hədəfləri

**Trans–Adriatik Boru Kəməri (TAP) konsorsiumu 2026-cı ilə qədər metan emissiyaları üzrə hesabatlılıq sahəsində qızıl standartına çatmağı hədəfləyir. Bu barədə TAP-ın icraçı direktoru Luka Skyeppati mətbuata açıqlamasında bildirib.**



Metan emissiyalarının idarə olunmasının TAP-ın qlobal emissiya idarəetmə strategiyasının əsas elementi olduğunu vurğulayan icraçı direktorun sözlərinə görə, bu strategiyanın mərkəzində 2022–2025-ci illəri əhatə edən karbon idarəetmə planına daxil edilmiş metan emissiyalarının azaltma məqsədi dayanır. O deyib ki, TAP fəaliyyətə başladığı vaxtdan etibarən qeyri-mütəşəkkil metan emissiyalarının aşkarlanması və kəmiyyətcə qiymətləndirilməsi üçün bir sıra kampaniyalar həyata keçirib: “Bu tədbirlər itkilərin aşkarlanması və aradan qaldırılması kampaniyaları olaraq tanınır, Yunanıstan və Albaniyada 2021 və 2023-cü illərdə, həmçinin İtaliyada 2021, 2022 və 2023-cü illərdə əsas obyektlərdə keçirilib. Onların məqsədi təşkil olunmamış emissiyaların aşkar edilməsi, ölçülməsi və bu problemlərin həlli üzrə planın hazırlanması və həyata keçirilməsidir”.

Kampaniyalar çərçivəsində qeyri-mütəşəkkil emissiyalara məruz qalan bütün infrastruktur elementlərinin – klapanlar, birləşdiricilər, təzyiq təhlükəsizlik klapanları, ventilyasiya dəlikləri, axın ölçənlər və flanşların diqqətlə yoxlanıldığını xatırladan Luka Skyeppati deyib ki, TAP karbon izinin azaldılması istiqamətində innovativ yanaşmalar tətbiq etməyə davam edir və metan emissiyalarının idarə edilməsində şəffaflıq və məsuliyyət nümunəsi olmağı hədəfləyir.

Qeyd olunub ki, 2023-cü ilin yanvarında TAP Neft və Qaz Sənayesi üzrə Metan Tərəfdaşlığı təşəbbüsünə qoşulub. “Bu proqram BMT-nin Ətraf Mühit Proqramı çərçivəsində təşkil olunan metan emissiyalarının hesabatlılığı və azaldılması sahəsində qabaqcıl bir təşəbbüsdür. Onun məqsədi emissiyalar haqqında məlumatların dəqiqliyini və şəffaflığını artırmaqdır. TAP 2025-ci il məlumatlarına əsaslanaraq 2026-cı il hesabat dövründə qızıl standartına çatmağı hədəfləyir. Üstəlik, TAP artıq 2023-cü il məlumatları əsasında 2024-cü il hesabat dövründə qızıl standartına nail olub ki, bu da metanın effektiv idarə edilməsinə və ekoloji göstəricilərin daimi yaxşılaşdırılmasına sadiqliyimizi göstərir”, – deyə o əlavə edib.

# Həssas qrupları iqlim təsirlərindən qoruyaq!

**Dünən Bakıda Beynəlxalq Əlillər Günü münasibətilə “Əlilliyi olan şəxslərin iştirakı ilə iqlim həllərinin təkmilləşdirilməsi” mövzusunda görüş keçirilib.**

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov belə məclislərin əhəmiyyətindən danışıb. Beynəlxalq Əlillər Gününün önəmini vurğulayan nazir müavini deyib ki, bu gün Azərbaycan da bu cəmiyyətin diqqətini həssas qruplardan olan şəxslərin sosial müdafiəsinə yönəldir. Ötən ildə ölkəmizdə bu məqsədlə bir sıra layihələr həyata keçirilib. İndiyədək əlillərə verilən müavinətlər 3 dəfə, pensiyalar isə 2 dəfə artırılıb. Azərbaycanda əlilliyi olan şəxslərə dəstəyin dövlət siyasətinin əsasını təşkil etdiyini diqqətə çatdıran A. Kərimov qeyd edib ki, Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasında (COP29) da əlillərlə bağlı məsələ, o cümlədən onların cəmiyyətə inteqrasiyası məsələsi müxtəlif tədbirlərlə geniş gündəmə gətirilib.

Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva isə noyabrın 11–24 tarixləri arasında Azərbaycanın uğurla ev sahibliyi etdiyi COP29-da əlilliyi olan şəxslərin iştirakının təminatı üçün görülən işlərdən danışıb. Onun sözlərinə görə, COP29-un keçirildiyi məkanda əlilliyi olan şəxslərin konfransın işində fəal iştirakı, ehtiyac olduqda tibbi xidmətlərlə təmin olunması və zərurət yarandıqda operativ təxliyəsi üçün hər cür şərait yaradılması onlara verilən önəmin ifadəsidir.




Hazırda əlillərin planet əhalisinin 16 faizini təşkil etdiyini diqqətə çatdıran BMT rəsmisi deyib ki, onların arasında çox sayda istedadlı şəxslərin olması sevindiricidir. Qeyd olunub ki, bu il Nyu-York şəhərində “Gələcəyin Paktı” adlı sənəd qəbul olunub. “Bu sənəd statusundan asılı olmayaraq hər kəsin səsinin bütün dünyada eşidilməsinə imkan verəcək. Hesab edirəm ki, biz bu paktın icrası üçün əlimizdən gələni etməliyik”, – deyə o, əlavə edib.

Konfrans panel müzakirələrlə davam etdirilib.

Tədbirin sonunda “Əsa” teatrının kollektivinin təqdimatında insanları təbiəti qorumağa təşviq edən “Onları bağışlaya bilərikmi?” adlı tamaşa nümayiş etdirilib.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Kredit şərtləri asanlaşdırılır



(əvvəli 1-ci səhifədə)

Ekspertlər, eyni zamanda, bildirirlər ki, BOKT-lərin fəaliyyətinin inkişaf etdirilməsi maliyyə inklüzivliyinin bir elementi olmaqla əhalinin, kiçik və orta sahibkarların maliyyə resurslarına daha geniş çıxış imkanlarını gerçəkləşdirir. Azərbaycan Respublikasının Mərkəzi Bankı həmin maliyyə qurumlarının bu rolunun artırılması, eləcə də onların təklif etdikləri kredit məhsullarının əlçatanlığı və şəffaflığının reallaşdırılması üçün öz mandatı çərçivəsində zəruri addımlar atır.

"Bank olmayan kredit təşkilatları haqqında" Qanuna 2023-cü ildə edilmiş dəyişiklərə əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin 15 noyabr 2024-cü il tarixli qərarları ilə "Bank olmayan kredit təşkilatlarının fəaliyyətinin prudensial tənzimlənməsi Qaydası" və "Bank olmayan kredit təşkilatlarında kredit risklərinin idarə edilməsi Qaydası" təsdiq edilib. Bu dəyişikliklər Mərkəzi Bankın "2024–2026-cı illərdə maliyyə sektorunun inkişafı Strategiyası"nda müəyyən edilmiş strateji hədəflər çərçivəsində qəbul olunub.

Qaydalarda keyfiyyət xarakterli yeni tələblər müəyyənləşdirilib. Belə ki, BOKT-lərdə kredit riskinin idarə edilməsi sisteminin təşkili, kredit riski siyasəti, kredit risklərinin qiymətləndirilməsi və inzibatçılığı prosedurları, risk monitorinqi, habelə kredit müqaviləsi üzrə faktiki illik faiz dərəcəsinin hesablanması qaydası ilə bağlı requlyativ tələblər gətirilib. Bununla yanaşı, vurğulanan qaydalarda ilk dəfə qısamüddətli "gündəlik" kreditlər üzrə anlayış, məbləğ, müddət və gündəlik faiz dərəcəsi üzrə maksimal hədlər, habelə bu cür kreditlər üzrə daha sərt prudensial normativlər nəzətdə tutulub.

Eyni zamanda, qaydalarda kəmiyyət xarakterli və maliyyə dayanıqlığına təsir göstərən tələblər formalaşdırılıb. Belə ki, qaydalara əsasən, yeni yaradılan BOKT-lərdə nizamnamə kapitalına dair tələb 1 milyon manata çatdırılıb, mövcud və yeni BOKT-lərə 1 milyon manat kapital tələbi və öhdəliklərin kapitala nisbəti tələbi müəyyənləşdirilib, ehtiyatların yaradılmasına dair tələblərə də yenidən baxılıb.

Qaydalardakı tələblər BOKT-lərin maliyyə dayanıqlığının gücləndirilməsi və istehlakçı hüquqlarının qorunması məqsədini daşıyır. Mərkəzi Bank BOKT sektorunda gedən cari prosesləri, eləcə də dünyada bu sahədə qabaqcıl ölkələrin təcrübələrini diqqətdə saxlamaqla mövcud istiqamət üzrə təkmilləşdirmə fəaliyyətini davam etdirməyə mühüm önəm verir.

Qeyd edək ki, Mərkəzi Bank rəhbərinin imzaladığı yeni qərara əsasən, BOKT-lər üçün nizamnamə kapitalı tələbi 3 dəfədən çox artırılıb. Ekspertlərin fikrincə, BOKT-lər üçün nizamnamə kapitalı tələbinin artırılması risklərin sığortalanması və eyni zamanda, bu sahədə etibarlılığın gücləndirilməsi məqsədini daşıyır.

Ümumiyyətlə, BOKT-lərin nizamnamə kapitalının məbləği əvvəllər yüksək deyildi, bu da həmin maliyyə qurumlarında formalaşmanı şərtləndirirdi. Nəticə etibarilə sözügedən təşkilatlar bir sıra hallarda kifayət qədər yüksək faizlə kredit təklif edirdilər ki, bu da təbii olaraq vətəndaşlarımızın borclanmasına, daha sonra həmin borc kreditlərinin geri qaytarılmasında çətinliklərin müşahidə olunmasına gətirib çıxarırdı.

Ona görə də yeni qaydalar birmənalı şəkildə həm risklərin sığortalanması, həm də bu sahədə rəqabətin gücləndirilməsi məqsədi daşıyır. Bu, nəticə etibarilə BOKT-lər üçün sektorun payının artırılması və ümumi kredit portfelində payının çoxaldılması baxımından zəruridir.

Beləliklə, BOKT-lər banklara nisbətən daha yüksək faizlə kreditlər təklif etdiklərindən bu faizlərin optimallaşdırılmasına və azaldılmasına ehtiyac var. Deməli, burada, təbii ki, həm kredit resurslarından səmərəli istifadə olunması, həm də yüksək faizli borclanmanın qarşısının alınması qarşıda mühüm vəzifə kimi durur.

**Ekspert rəyi**

**Eldəniz ƏMİROV**
**iqtisadçı-ekspert**



Həm bankların, həm də bank olmayan kredit təşkilatlarının fəaliyyətlərinin nəzarət olunub tənzimlənməsinə ehtiyac daim duyulub. Sözügedən addım da bu səbəbdən atılıb. Onu da qeyd edim ki, istər banklar, istərsə də bank olmayan kredit təşkilatları yalnız kredit verməkdə maraqlıdırlar. Lakin onlar verdikləri kreditin bir sıra hallarda risklərini düzgün qiymətləndirmirlər. Bilərəkdən və ya bilməyərəkdən bəzən krediti qarşı tərəfə (bura həm sahibkarlar, həm də vətəndaşlar daxildir) daha sərt şərtlərlə təqdim edirlər. Bu isə insanlara həm maddi çətinliklər yaradır, həm də bir müddət sonra problemli kreditə çevrilir. Bu kütləviləşəndə isə problemli kreditlərin həcminin artmasına səbəb olur.

Bir neçə illə müqayisədə hazırda həm banklara, həm də bank olmayan kredit təşkilatlarına ciddi nəzarət müşahidə olunur. Bank olmayan kredit təşkilatlarında kredit risklərinin idarə edilməsi qaydasında fərqliliklər də məhz bu zərurətdən yaranır.

Burada əsas yanaşma BOKT-lərin kredit bazarında rəqabətə təsir göstərə bilmələrinin gerçəkləşdirilməsidir. Çünki indiki halda ölkədə fəaliyyət göstərən 50-dən çox bank olmayan kredit təşkilatlarının kredit bazarında rəqabətə təsir imkanları məhduddur. Ona görə də mərhələli şəkildə BOKT-lərin də bazarda əsas aktorlardan birinə çevrilməsinə ciddi ehtiyac var.

# Fermerlərin subsidiya şəffaflığı

## *Onlar əkin məlumatlarını bəyan etməlidirlər*

**Əkin və torpaq məlumatlarını sistemə daxil etməyən şəxslərə subsidiya ödənilməyəcək. Bununla bağlı Kənd Təsərrüfatı Nazirliyi fermerlərə müraciət edib.**




Qeyd olunub ki, payızlıq əkinlərin bəyan müddəti 2024-cü il dekabrın 30-da başa çatdığından həmin vaxtadək əkin və torpaq məlumatlarını, digər tamamlayıcı sənədləri (torpaq analizinin nəticələri, aqrar sığorta müqaviləsi və s.) sistemə daxil etməyən şəxslərin subsidiya ilə bağlı elektron ərizəsi formalaşmayacaq və onlara subsidiya ödənişi həyata keçirilməyəcək.

Nazirliyin müraciətində bildirilir ki, fermerlər əkinləri bəyan etmək üçün Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində yaratdıqları şəxsi kabineti aktivləşdirməli, öz torpaq və əkin məlumatlarını müvafiq bölmələrə daxil etməlidir. Əkinləri bəyan edərkən hər hansı çətinliklə üzləşə biləcək fermerlər texniki dəstək üçün Dövlət Aqrar İnkişaf Mərkəzləri, Xaçmaz və Yevlax KOB evlərinə, eləcə də regional ASAN xidmət mərkəzlərinə müraciət etməklə payızlıq əkinləri bəyan edə bilərlər.

Bununla yanaşı, fermerlər bəyan dövründə əkinin dəyişdirilməsi ehtimalı varsa, fermerlərə bəyanı daxil etdikdən sonra "Müraciət et" düyməsinə sıxmadan dekabrın 30-dək bəyanı dəyişdirmək imkanı yaradılıb. Bəyan edilən bitkinin dəyişdirilməsi nəzərdə tutulmursa, fermerlər bəyanla eyni gündə "Müraciət et" düyməsinə sıxmaqla müraciətini yekunlaşdıra bilər. Əkin subsidiyasına müraciət bitkinin bəyan edilməsi, torpaqdan istifadə hüququnun təsdiqlənməsi, müraciətin edilməsi ardıcıllığına uyğun aparılır. Fermerlər öz elektron kabinetləri vasitəsilə müraciətləri ilə bağlı proseslərin qeyd edilən ardıcıllığa uyğun aparılıb-aparılmadığını izləyə, problem müəyyən etdikdə Dövlət Aqrar İnkişaf Mərkəzlərinə müraciət edə bilərlər.

"Bəyanların vaxtında edilməsi monitorinqlərin sürətli və operativ təşkilinə, əkin subsidiyasının qısa zamanda ödənilməsinə imkan yaradır. Monitorinq zamanı aşkarlanmış yanlış bəyan fermer üçün subsidiyanın az ödənilməsi, yaxud 1 və ya 2 il ödənilməməsi ilə nəticələnə bilər. Ödəniş aparıldıqdan sonra bilərəkdən yanlış bəyan müəyyən edilərsə, İnzibati Xətalar Məcəlləsinin 411-2-ci maddəsinə əsasən cərimə tətbiq oluna bilər", – deyə məlumatda bildirilib.

Xatırladaq ki, ölkə üzrə payızlıq əkinlərin bəyanına 2024-cü il sentyabrın 1-dən start verilib. Fermerlərə əkinlərini bəyan etməsi üçün isə 4 ay vaxt ayrılıb.

# Azərbaycan qazı Slovakiyada alovlanacaq



**Dekabrın 1-dən Azərbaycan Dövlət Neft Şirkəti Slovakiyanın dövlətə məxsus ən böyük enerji təchizatçısı – SPP şirkətinə təbii qaz tədarükünə başlayıb. Bu barədə socar.az saytı məlumat yayıb.**

Bildirilib ki, qaz təchizatı SOCAR və SPP arasında qısamüddətli pilot müqavilə əsasında reallaşdırılan əməkdaşlıq çərçivəsində həyata keçirilir. Azərbaycan və Slovakiya şirkətləri daha uzunmüddətli enerji tərəfdaşlığını inkişaf etdirməyi hədəfləyirlər.

Göründüyü kimi, Avropada Azərbaycan qazına olan tələbat getdikcə artır ki, bu da SOCAR-a öz ixrac istiqamətlərini şaxələndirməyə imkan yaradır. Beləliklə, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya və Şimali Makedoniya ilə birlikdə Slovakiya Azərbaycan qazını alan on ikinci ölkə olub.

# Bu il Orta Dəhlizlə 300 konteyner qatarı yola salınıb



(əvvəli 1-ci səhifədə)

Məlumatda Qazaxıstan ərazisindən Azərbaycana gedən sonuncu 300-cü yubiley qatarı yükgöndərənlərin Orta Dəhlizə marağının yüksək olduğu və bu marşrutun Çin ilə Avropa arasında sürətli və səmərəli əlaqəni gerçəkləşdirən əsas nəqliyyat dəhlizlərindən biri kimi strateji önəm daşıdığı vurğulanıb.

"Qazaxıstan Dəmir Yolu" Şirkətindən bildirilib ki, ötən il Orta Dəhliz vasitəsilə 11, bu ilin əvvəlindən isə artıq 300 konteyner qatarı daşınıb. Bu nəticə əvvəlki illərin göstəricilərini əhəmiyyətli dərəcədə üstələyib və Orta Dəhlizin səmərəliliyinin sürətlə artdığını təsdiqləyib.

Məlumatda, eyni zamanda, Siandakı terminalın Orta Dəhlizin inkişafına yeni təkan verən mühüm logistika qovşağı olduğu, Çinin müxtəlif əyalətlərindən yüklərin burada logistika proseslərini optimallaşdırmağa imkan verdiyi və nəticədə daşımalar üzrə yüksək göstəricilər əldə edildiyi vurğulanıb. Belə bir uğurun isə Çin, Azərbaycan, Qazaxıstan, eləcə də Orta Dəhlizin digər iştirakçılarının birgə səyi ilə əldə edildiyi diqqətə çatdırılıb.

Hazırda sözügedən dəhliz vasitəsilə Çindən daşımaların həcmi 20 fut ekvivalentində 27 min konteyneri ötüb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 25 dəfə çoxdur.



# İlin Qarabağ xərcləri – 3,6 milyard manat!

**Bu ilin yanvar–sentyabr ayları ərzində işğaldan azad edilmiş rayonlarda tikinti-quraşdırma işlərinə 3 milyard 604 milyon 307 min manat vəsait sərf edilib.**

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, hesabat dövründə ən çox vəsait Kəlbəcər ( 797 milyon 437 min manat), Ağdam (527 milyon 112 min manat) və Laçın ( 567 milyon 497 min manat) rayonlarına ayrılıb.

Xatırladaq ki, cari ilin yanvar – sentyabr aylarında Azərbaycanda əsas kapitala 12 milyard 711 milyon manat vəsait yönəldilib ki, bununda 9 milyard 193 milyon manatı tikinti-quraşdırma işlərinə sərf edilib. Beləliklə, hesabat dövründə işğaldan azad olunmuş ərazilər üzrə tikinti-quraşdırma işlərinə sərf olunan vəsait respublika üzrə yenidənqurma işlərinə sərf olunan vəsaitin 39,2 faizini təşkil edib.

# Vergi ödəyicilərinin sayı 5,6 faiz artıb

**Dövlət Vergi Xidmətindən "XQ"yə verilən məlumata əsasən, 2024-cü il noyabr ayının 1-nə respublika üzrə uçotda olan 1 milyon 583 min 592 vergiödəyicisinin 87,1 faizi fiziki şəxslər, 12,9 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.**



Ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin sayı 5,6 faiz, o cümlədən fiziki şəxslərin sayı 5,4 faiz, hüquqi şəxslərin sayı isə 7,3 faiz artıb. 2024-cü il noyabr ayının 1-nə qeydiyyatda olan kommersiya qurumlarının sayı 187 min 674-ə çatıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 faiz çoxalıb.

Yanvar–oktyabr aylarında 11 min 670 kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, onların 89,3 faizi yerli investisiyalı, 10,7 faizi xarici investisiyalıdır. Dövlət qeydiyyatından keçən kommersiya qurumlarının 82,8 faizi elektron qaydada, 17,2 faizi kağız daşıyıcılarda edilmiş müraciətlər əsasında qeydə alınıb.

2024-cü il noyabr ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində fəal ƏDV ödəyicilərinin sayı 39 min 399 vahid təşkil edərək ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,4 faiz artıb. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi isə 32,2 faiz təşkil edib. Fəal kommersiya qurumlarının sayı isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,8 faiz artıb.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

Beynəlxalq Türkoloji Konqres

# Türk milli kimliyi və ortaq dəyərlər

**Azərbaycan Milli Elmlər Akademiyasında Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi münasibətilə keçirilən "Türk dünyasında milli kimlik və mədəni irs" mövzusunda III Beynəlxalq Türkoloji Konqresin bağlanış mərasimi olub.**



AMEA-nın Mərkəzi Elmi Kitabxanasında keçirilən mərasimdə əvvəlcə Çankırı Karatekin Universitetinin rektoru, professor Harun Çiftçinin videoçıxışı konqres iştirakçılarının diqqətinə çatdırılıb. O, ortaq mədəni dəyərlərin qorunması, türk xalqları arasında əməkdaşlığın daha da inkişafı, eləcə də Türk dünyasının ortaq elmi mövzularının müzakirəsi baxımından konqresin önəmini qeyd edib, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkür edib.

Daha sonra tanınmış türkoloq, tarix elmləri doktoru Süleyman Kayıpov, türkmənistanlı türkoloq alim Narbibiş Şammayeva, AMEA Folklor İnstitutunun direktoru vəzifəsini icra edən filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanova, türkiyəli akademik Sacide Çobanoğlu və digərləri çıxış edərək konqresin Türk dünyasının öz məfkurəsini, ideologiyasını, əməkdaşlıq imkanlarını yüksəltməsi istiqamətində faydalı olacağını bildiriblər.

Tədbirə yekun vuran AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli konqresin bir çox cəhətdən əhəmiyyətli olduğunu söyləyib. O, Türk dünyasının indiki inkişaf mərhələsində Türkiyə ilə Azərbaycan elmi əlaqələrinin daha da inkişaf edərək Türk dünyasının bütün coğrafiyasını əhatə etdiyini vurğulayıb, III Beynəlxalq Türkoloji Konqresi Türk dünyasının bütövlüyünün, tamlığının və daha da möhkəmlənməsinin ən mühüm nəticələrindən biri kimi yüksək qiymətləndirib.

Akademik İsa Həbibbəyli ikigünlük konqres çərçivəsində səslənən məruzələrin ortaq tarix, ortaq dil, ortaq ədəbiyyat, ortaq mədəniyyət kimi mövzuları əhatə etməklə Türk dünyası birliyinin zənginliyini, çoxçeşidliyini göstərdiyini bildirib.

Konqresin həm də Türk dünyasının möhtəşəmliyini təqdim etdiyini söyləyən AMEA rəhbəri Türk ölkələrinin müxtəlif elmi qurumları arasında əlaqələrin qurulması, birgə layihələrin həyata keçirilməsi baxımından da tədbirin önəmini vurğulayıb.

Akademik İsa Həbibbəyli III Beynəlxalq Türkoloji Konqresin açılış mərasiminin I Türkoloji Qurultayın 100 illiyi ərəfəsində məhz AMEA-nın Rəyasət Heyətində keçirilməsinin tarixi əhəmiyyətini qeyd edib, tədbirin I Türkoloji Qurultayın 100 illiyinə hazırlıq kimi də mühüm rol oynadığını bildirib.

Akademiya rəhbəri həmçinin III Beynəlxalq Türkoloji Konqresin AMEA-nın 80 illik yubileyi ərəfəsində keçirildiyinin də xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

"XXI əsrin "Türk əsri" olacağı haqqında əfsanənin gerçəyə çevrildiyinin mümkünlüyünü meydana qoyduq", – deyə bildirən AMEA rəhbəri tədbirin Türk dünyasının birliyinə, həmrəyliyinə özünün böyük töhfəsini verdiyini deyib.

Daha sonra akademik İsa Həbibbəyli Türk dünyasının ən qiymətli kitablarından biri olan Mahmud Kaşğarinin məşhur "Divanü lüğat-it-türk" kitabının AMEA Rəyasət Heyətinin qərarı ilə çapdan çıxmış I, II və III cildlərini qonaqlara hədiyyə edib.

Sonda konqresdə fəal iştirak edən gənc tədqiqatçılar və tədbirin iştirakçıları təşəkkürnamələrlə təltif ediliblər.

***Qabil YUSİFOĞLU***
***XQ***

# NARGIS-in "yaşıl" sərgisi

**İctimai həyatın müxtəlif sahələrinə aid irimiqyaslı tədbirlər keçirən, Azərbaycanda və xaricdə maraqlı sərgilər təşkil edən NARGIS Nəşriyyat Evi öz fəaliyyətində sosial və ekoloji layihələrə də böyük önəm verir. Ülviyyə Mahmudun rəhbərlik etdiyi bu qurum artıq 5 ildir ki, ətraf mühitə məsuliyyətli yanaşmanı təbliğ edir, insanların fəaliyyətinin mənfi təsirləri haqqında ictimaiyyəti maarifləndirməyi və istehlak mədəniyyətinə təsir göstərməyi hədəfləyir.**

Ötən müddət ərzində NARGİS-in xəttilə 4 böyük ekoloji sərgi təşkil olunub. Bu ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, ötən ay Bakıda qlobal iqlim dəyişikliyi ilə mübarizəyə həsr olunan möhtəşəm COP29 sessiyasının uğurla keçirilməsi bu mövzunu daha da aktual etdiyi üçün NARGIS yeni bir əhəmiyyətli ekoloji layihə olan "Sıfır tullantı" sərgisini təqdim edib. Eyni adlı fotosərgisi və ekomebel COP29 çərçivəsində Yaşıl zonada yerləşən NARGIS köşəsində təqdim olunub və böyük maraq doğurub. Bu təşəbbüsün davam etməsi tullantıları azaldaraq materialların optimal istehlakı və yenidən istifadəsi ilə ətraf mühiti qorumağı hədəfləyir.




"Sıfır tullantı" sərgisi noyabrın 26-dan etibarən Müasir İncəsənət Muzeyində nümayiş olunur. Sərgi çərçivəsində qonaqlar "Vəhşi həyat" adlı fotosərgi ilə tanış ola bilərlər. Bu layihə "Nargis" jurnalı tərəfindən fotoqraf Aleksey Lyokin ilə birlikdə həyata keçirilib və Azərbaycanın müxtəlif bölgələrinə aid nadir və nəsli kəsilməkdə olan heyvan növlərinin şəkillərindən ibarətdir.

Layihə müəllifləri, o cümlədən baş sponsor olan Veysəloğlu Şirkətlər Qrupu ekoloji davamlılığa yönəlmiş fəaliyyətlərini genişləndirərək, eyni zamanda, dünyaca məşhur dizayn əsərlərindən ruhlanaraq, təkrar emal edilmiş tullantılardan məxsusi NARGIS üçün innovativ eko-mebellər hazırlayıblar ki, bu qeyri-adi nümunələr də sərgi çərçivəsində təqdim olunur. Bu, həm davamlı iqtisadiyyata töhfə, həm də ictimaiyyətə ekoloji təcrübələrin praktik əhəmiyyətini nümayiş etdirmək baxımından önəmlidir.

Qafqazın ən böyük metallurgiya şirkəti – "Baku Steel Company" QSC də bu dəfə NARGİS-in layihəsinə dəstək göstərir. Şirkət layihə çərçivəsində paytaxtımızda yerləşdirilmiş "ECO qutular"a toplanan tullantıların çeşidlənməsini, ətraf mühitə və ya insan sağlamlığına təhlükə yaradan məhsulların, qablaşdırmaların və materialların yandırılmadan, yerə, suya və ya havaya atılmadan təkrar emala verilməsini reallaşdırır.

"Zero Waste" ideyası dünyada aktual olaraq qalır. Şotlandiyada bu adda ayrıca ətraf mühit təşkilatı da fəaliyyət göstərir. Xatırlayırıq ki, ötən il ənənəvi Bakı Enerji Həftəsi çərçivəsində "Zero Waste" proqramı, xalis sıfır emissiya və yaşıl hidrogen mövzuları da ətraflı sərf-nəzər edilmişdi. Bu ilin avqustunda isə "Təmiz ölkəm" devizi altında Ümumrespublika Təmizlik Marafonu keçirilib və bu çərçivədə Xəzər dənizinin Novxanı sahili tullantılardan təmizlənib. "Nargis" jurnalı ilə bərabər, bələdiyyə nümayəndələrinin, "Təmiz Şəhər" ASC-nin, "Asan" könüllülərin və ekokönüllülərin iştirak etdiyi aksiyada 1 tondan artıq tullantı yığılaraq daşınıb.

Noyabr ayında "Nargis" jurnalı COP29 üçün xüsusi buraxılış hazırlayıb. Nəşr önəmli beynəlxalq tədbirin iştirakçıları arasında geniş yayılmaqla layihələrin məqsəd və mesajlarını daha geniş auditoriyaya çatdırmış olub.

"Gəlin, planetimiz üçün birləşək!" şüarını əsas götürərək, davamlı bir gələcəyə töhfələr verən NARGİS-in sərgisi dekabrın 25-dək davam edəcək.

***Ə.ƏLİYEV***
***XQ***

# Şirvanda şəfqət aksiyası

**Şirvan Şəhər İcra Hakimiyyətinin və Şirvan Reabilitasiya Mərkəzinin birgə təşkilatçılığı ilə 3 Dekabr Beynəlxalq Əlillər Gününə həsr olunmuş "Biz birlikdə güclüyük!" adlı toplantı keçirilib.**



Tədbirdə Beynəlxalq Əlillər Gününün 1992-ci ilin dekabrın 14-də BMT Baş Assambleyasının qərarı ilə təsis edildiyi, ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamı ilə 1994-cü ildən başlayaraq Azərbaycanda da geniş qeyd olunduğu bildirilib. Məclisdə Azərbaycanda əlilliyi olan şəxslərin hüquqlarının qorunması, rifah halının yaxşılaşdırılması, problemlərinin həlli, reabilitasiyası və cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirilən dövlət proqramlarından da danışılıb.

Əlillərlə bağlı dövlət siyasətinin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyi vurğulanıb. Birinci xanım Mehriban Əliyevanın şəhid ailələri və qazilərə göstərdiyi qayğı qeyd edilib. Bildirilib ki, Şirvan Şəhər İcra Hakimiyyəti aztəminatlı əlillərə hərtərəfli kömək göstərir. Mərkəzi Şəhər Xəstəxanasında, Diaqnostika və Reabilitasiya mərkəzlərində əlillərə xüsusi həssaslıqla yanaşılır, onların bərpa və müalicəsi ilə bağlı zəruri tədbirlər görülür.

Mərasim əlilliyi olan şəxslərin musiqi və rəqs nömrələri ilə davam edib, onların əl işləri təqdim edilib.

***XQ***

# Dərbənd Teatrı Bakıda



**Bakıda Dərbənd Azərbaycan Dövlət Dram Teatrının 120 illik yubileyi qeyd olunur.**

Yubiley mərasimi Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında keçirilib. Dərbənd Azərbaycan Dövlət Dram Teatrının 120 illik tarixindən söz açan teatrın baş rejissoru, Əməkdar artist Sərvər Əliyev, Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Hacı İsmayılov, Əməkdar artist Azad Şükürov və digər natiqlər qeyd etdilər ki, ölkəmizdə teatr inkişaf edir, bölgələrə səfərləri artır, bu sahəyə yeni nəsil axışır.

Sonra yaradıcı heyət dünən yubiley münasibətilə Miroslav Mitroviçin "Gecəyarısı soyğunçuluq" pyesinin motivləri əsasında hazırlanmış "Oğru" tamaşasını təqdim edib (Bu barədə daha ətraflı qəzetimizin gələn nömrəsində məlumat verəcəyik).

Qeyd edək ki, yubilyar kollektiv Azərbaycanın bölgələrinə də olacaq. Teatrın truppası rayonlara qastrollara gedəcək. Səfərlər dekabrın 14-nə kimi davam edəcək.

***XQ***

Təqdimat

# "Azərbaycan Atabəyləri" ekrana çıxdı



**Dünən Heydər Əliyev Mərkəzində "Azərbaycan Atabəyləri" filminin qala-premyerası olub. Azərbaycan Televiziyası, "Şahdağfilm", Türkiyənin "İkinciYeni Film", "Patik Prodüksiyon" və "Ernet Grup" prodakşnlarının birgə səyi ilə ərsəyə gələn ekran əsərinin rəsmi tərəfdaşı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, eyni zamanda, Azərbaycan Respublikası Kino Agentliyidir.**

"Azərbaycan Atabəyləri" filmi Orta əsrlərdə yaşamış Türk dünyasının iki böyük tarixi şəxsiyyəti, cəsur sərkərdələr – Qara Sunqur və Atabəylər dövlətinin qurucusu Şəmsəddin Eldənizin hekayəsindən bəhs edir. Filmin quruluşçu rejissoru Məcit Güvən, ssenari müəllifləri Sərvər Bayramov, İlqar Mehti, Səxavət Sahil və Ərcan Kayadır. Prodüsserlər eyni ilə İlqar Mehti, Sərvər Bayramov və qardaş Türkiyədən "İkinciYeni Fim"i təmsil edən Furkan Bəsli, quruluşçu rəssam isə Zəfər Malkoçdur.

Dünyaşöhrətli döyüşçü Zabit Səmədov Şəmsəddin Eldəniz, İlqar Mehti isə Qara Sunqur obrazlarını canlandırıblar. Digər əsas rolları isə Xalq artisti Mehriban Zəki (Möminə xatun), Əməkdar artist Bəhruz Vaqifoğlu (Məhəmməd Cahan Pəhləvan), Jalə Həsənli (Zübeydə xatun), Günay Əhməd (Laçın), Tural Əhməd (Arslan şah), İlqar Musayev (Candar Çavlı), Səmimi Fərhad (Vəzir Əl-Xəzni), Samir Qulamov (Gəncər bəy), Salam İsmayılov (Şeyx İmad), Türkay Cəfərli (Şeyx İmadın köməkçisi), Rəşad Kəsəmənli (sərkərdə), Hidayət Əliyev (Sultan Məsud) və ölkəmizin digər sənətçiləri ifa ediblər. Filmdə 100-dən çox aktyor epizodları canlandırıb, ümumilikdə isə heyətdə 500 nəfərdən çox insan çalışıb.

Filminin nümayişindən sonra İlqar Mehti və Məcit Güvən əsərin ərsəyə gəlməsi barədə danışıblar. Onlar filmdə xidmətləri olan hər kəsə təşəkkür ediblər.

Film dekabrın 5-dən etibarən kinoteatrlarda nümayiş olunacaq.

***XQ***

İlin yubileyləri: Qasım bəy Zakir – 240



onunla seçilirdi ki, o, yazdığı realist əsərlərində Azərbaycan həyatının tipik xüsusiyyətlərini ümumiləşdirməyi bacarıb, eyni zamanda, satirik şeirlərin yeni nümunələrini – mənzum məktub, taziyanə, mənzum hekayə və təmsil janrlarını yaradıb. Zakir avam kütlənin gözünü açmaq, camaatın savadlanmasına yardım etmək məqsədilə bədii gülüşün bütün növlərindən bacarıqla istifadə edib.

Aşiqanə şeirlərini, xüsusilə, qoşma, gəraylı, təcnis və bayatılarını yaradarkən şifahi xalq poeziyası ənənələrindən istifadə edən Zakirin "Ağlaram", "Öyrənib", "Ay mədəd" və s. rədifli qoşmalarını aşıq şeirindən ayırmaq çətindir. Həmçinin onun "Arasında", "Çağıdı", "Çəkər", "Gəlsin", "Gərək", "Məni", "Mirzə", "Durnalar" adlı qoşmaları çox məşhurdur.

**Bir saat havada qanad saxlayın,**
**Nizam ilə gedən qoşa durnalar!**
**Qatarlaşıb nə diyardan gəlirsiz,**
**Qaqqıldaşa-qaqqıldaşa, durnalar?**

# Həcvi ictimai satiraya çevirən şair

**Aqil gərək yeksan ola hər zaman,**
**Qoymaya qəlbinə yol tapa şeytan.**

Ömrü boyu bu əqidəyə sadiq qalmış dahi şəxsiyyətlərdən biri də Qasım bəy Zakirdir. Bu il 240 yaşı tamam olan görkəmli şair, satira ystası Zakir 1784-cü ildə Şuşada dünyaya göz açıb. Onun əsli Qarabağın məşhur Cavanşirlər nəslindəndir. Ulu babası Kazım ağa Pənahəli xanın doğma qardaşı olub. Zakir ilk təhsilini Şuşada mollaxanada alıb, ərəb və fars dillərini öyrənib. Bunun sayəsində Yaxın Şərqin Firdovsi, Nizami, Sədi, Hafiz kimi məşhur söz ustalarının əsərləri ilə tanış ola bilib.

İstedadlı şair Azərbaycan ədəbiyyatında realizmin görkəmli nümayəndəsi, maarifçi satiranın banisidir. Ədəbiyyat tarixində xüsusi mərhələ təşkil edən Zakir satiraları feodalizm cəmiyyətinin qüsurlarını aşkara çıxaran, xalqın hüquqlarını müdafiə edən sənət nümunələridir. Bu əsərlər əsas etibarilə çar hakimləri və çarizmin müstəmləkəçi qanunları əleyhinə idi. İfşaçılıq, kəskin tənqid və kinayəli gülüş Zakir satiralarının əsas xüsusiyyətlərindəndir. O, ictimai nöqsanları sadəcə təsvir etməklə kifayətlənməyib, eyni zamanda onlara qarşı özünün kəskin tənqidi münasibətini, nifrət və qəzəbini də bildirib.

Unudulmaz Xalq yazıçısı Mirzə İbrahimov yazırdı: "Qasım bəy Zakirin şeirinin uzun ömürlülüyünü həmişə onların məzmun və ifadə gözəlliyi ilə, forma və dil gözəlliyi ilə bağlamışlar. Zakirin şeirlərinə öz həqiqi qiymətini xalq vermişdir. Zakirin yaradıcılığında realizm daha da büllurlaşır, kəskinləşir, ictimai mübarizədə bir vasitə olur... Zakirin yaratdığı ədəbiyyat gələcək qüdrətli demokratik ədəbiyyatın ilk bünövrə daşı idi".

Qasım bəy Zakirin "Bax", "Xəbər alsan bu vilanın əhvalın", "Qarabağ qazısı" adlı satirik şeirləri var. Şair öz əsərləri ilə cəmiyyətin sağlam yollarla inkişafına, xüsusilə maariflənməsinə və bu yolla cəhalətdən qurtularaq bəy, məmur özbaşınalığına qarşı çıxmalarına çalışıb. Onun bu istiqamətdə yazdığı satiralar, o cümlədən "Aslan, qurd və çaqqal", "Tülkü və qurd" təmsilləri, "Dərviş və fəqir" mənzum hekayəsi və başqa yazıları 1988-ci ildə Tiflisdə nəşr edilən "Ana dili" dərsliyinə salınıb. Şairin yaradıcılığı bir də

Zakir ictimai mövzuda daha çox yazsa da, məhəbbət mövzusuna da biganə olmayıb. Onun xeyli müxəmməs, müstəzad, tərcibənd, tərkibbəndinin əsas mövzusu məhəbbətdir. "Gözüm yolda qaldı, könül intizar", "Dost yolu bağlandı, ümid kəsildi", "Fələk, səndə nə adətdir", "Nə müddətdir, dost yolları" misraları ilə başlayan qoşmaları məhəbbət mövzusunda yazılmış olsa da, ictimai məzmuna malikdir.

**Sürmə çəksin gözlərinə, qaşına,**
**Gündə yüz yol mən dolanım başına.**
**Zakir tək yanmağa eşq atəşinə,**
**Cürəti var isə, pərvanə gəlsin.**

Özündən əvvəlki Azərbaycan klassikləri kimi, Zakir də öz mənzum hekayələrinin çoxunu müasir həyatın tələblərinə uyğun olaraq yazırdı. O, "Aşiq və məşuq haqqında", "Dəvəsi itən şəxs", "Əmirzadeyi-məşuq və cavan aşiq", "Zövci-axər", "Məlikzadə və Şahsənəm", "Tərlanlar və elçilər", "Həyasız dərviş və ismətli qadın", "Həyasız dərvişlər haqqında" adlı mənzum hekayələrin müəllifidir. Zakirin mənzum hekayələrində məhəbbət insanın ülvi və nəcib hissi kimi təsvir olunur. Məhəbbətdə sədaqət, mətanət və dözümlülük, vəfada möhkəmlik bu hekayələrin bir qismində əsas məzmunu təşkil edir. Qasım bəy Zakir əruz vəznində qəzəl, müxəmməs, müstəzad, heca vəznində isə qoşma, gəraylı, təcnis kimi janrlardan öz yaradıcılığında daha çox istifadə edib. Realist ruhlu təmsillərində bir tərəfdən dövrünün ictimai və siyasi hadisələrinə özünün eyhamları ilə işarələr edir, zülmün əleyhinə çıxır, o biri tərəfdən zəmanə gənclərinə vəfa, sədaqət, mərdlik kimi nəcib tərbiyəvi məsləhətlər verirdi...

Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Qasım bəy Zakir Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına salınıb. Onun irsi tükənməz mənəvi sərvətlər xəzinəmizin qiymətli inciləri sırasındadır.

***Ə.DOSTƏLİ***
***XQ***

Beynəlxalq həyat

# Suriya: Hələbin ələ keçirilməsi nələr vəd edir?



**(əvvəli 1-ci səhifədə)**

Nəhayət, belə bir məqam yetişdi. Belə ki, bu il noyabrın 27-də Suriya Müvəqqəti Hökuməti tərəfindən idarə olunan Suriya Milli Ordusu (SMO) gözlənilmədən Hələbə hücum edərək 3 gün ərzində ölkənin bu 2-ci böyük şəhərini ələ keçirdi. Hökumət əsgərləri və onları dəstəkləyən proksi qüvvələr silah-sursatlarını ataraq biabırcasına meydandan qaçdılar.

Bununla da, Suriyada tamamilə yeni vəziyyət yarandı. Bir çox ekspertlərin fikrincə, Qərbin Prezident Barak Obama dönəmində "Ərəb baharı" şüari ilə başlatdığı Böyük Orta Doğu Projesi (BOP) son nəticədə regionun siyasi-inzibati xəritəsinin dəyişməsi ilə nəticələnməli idi. Bir çox imperialist qüvvələr Yaxın Şərqin ən güclü dövlətlərindən olan Türkiyənin də parçalanmasını arzulayırdılar. Açıq şəkildə beyinlərə bölgədə müstəqil kürd dövlətinin yaradılması ideyası yeridilirdi.

SMO-nun Hələb qələbəsi Qərbin dərin düşüncə quruluşlarının öz rəsmi hesabatlarında dəfələrlə dərc etdirdikləri bu layihəyə qətiyyətlə "yox" dedi. Təbii ki, bölgədə gərginliyi "azaltmaq", əslində, pozitiv proseslərin qarşısının alınması üçün bir sıra böyük dövlətlər intensiv müzakirələrə başlayacaqlar. Bundan sonra bütün hallarda bu danışıqlar Ankaranın siyasi-hərbi, diplomatik üstünlüyü şəraitində keçəcək.

Artıq regionda marağı olan güclər tələm-tələsik hərəkətə keçiblər. "Reuters" agentliyi xəbər verir ki, dekabrın 2-də Rusiya və İran prezidentləri Vladimir Putin və Məsud Pezeşkian Suriyadakı vəziyyəti telefonla müzakirə ediblər. Kremlin sözçüsü bildirib ki, Rusiya tərəfi Suriyanın legitim hakimiyyətinin ölkənin ərazi bütövlüyünün qorunması və ictimai-siyasi sabitliyin təmin olunması istiqamətindəki səylərini birmənalı olaraq dəsləkləyir.

İran prezidenti, öz növbəsində qeyd edib ki, Tehran regionda yaranan gərgin vəziyyəti nəzarət altına almaq üçün Moskva ilə əməkdaşlığa hazırdır. Onun sözlərinə görə, bölgədə baş verənlər "ABŞ və İsrailin regionda geosiyasi landşaftı pozmaq cəhdidir və bu təhlükəli planın qarşısı region dövlətlərinin birliyi və həmrəyliyi sayəsində alınacaq".

İranın xarici işlər naziri Abbas Araqçı, "Hələbin süqutu"ndan dərhal sonra əvvəlcə Dəməşqə, oradan da Ankaraya uçub. Türkiyənin xarici işlər naziri Hakan Fidan iranlı həmkarı ilə görüşdən sonra jurnalistlərə bildirib ki, "Suriyada baş verən olaylar bir daha Əsəd hökumətinin öz xalqı ilə barışmasının vacib olduğunu nümayiş etdirir və Ankara belə bir dialoqun qurulmasına öz töhfəsini verə bilər".

Yeri gəlmişkən, dünən Türkiyə dövlətinin lideri Rəcəb Tayyib Ərdoğan bu məsələ ilə bağlı mediaya açıqlamasında bildirib ki, Suriyada qeyri-sabitlik yalnız xalqın iradəsi nəzərə alınmaqla həll oluna bilər. Təcrübəli dövlət xadimi, həmçinin vurğulayıb ki, Ankara regionda baş verənləri diqqətlə izləyir və Türkiyənin milli təhlükəsizliyinə zərər vurulmaması üçün zəruri tədbirlər görür.

Xatırladaq ki, Türkiyə, Rusiya və İran liderləri Suriya probleminin həlli məqsədi ilə son 3–4 il bundan əvvələ qədər dəfələrlə görüşərək gərgin müzakirələr aparıblar. "Ankara prosesi" adı ilə tarixə düşən bu diplomatik səylər, hələlik, real nəticələr verməyib. Səbəb maraqların üst-üstə düşməməsidir.

Məlumdur ki, Rusiya və İran Suriya rejimini açıq şəkildə dəstəklədiyi halda, Türkiyə Suriyanın konstruktiv müxalifətinin tələb etdiyi kimi, ölkədə siyasi islahatların aparılmasını zəruri hesab edir və rəsmi Dəməşqdən xalqın səsini eşitməsini tələb edir. Təəssüf ki, Bəşər Əsəd rejimi zəruri islahatlar aparacağını vəd etsə də, bu istiqamətdə heç bir iş gömür, əksinə, əhalini zor gücünə qorxu və təzyiq altında saxlayır.

Suriya rejimi son illər terrorçu PKK-nın İraq və Suriyadakı uzantıları olan PYD və YPG ilə əməkdaşlığını da gücləndirib. Ankara, təbii ki, belə bir vəziyyətlə razılaşa bilməz. Regionda dəhşətli humanitar fəlakətə imza atan Dəməşq öz pozucu və təxribatçı əməlləri üçün cavab verməlidir. Cinayət varsa, cəza da olmalıdır. İlahi ədalət də bunu tələb edir!

Bu ilin əvvəllində hörmətli Rəcəb Tayyib Ərdoğan Bəşər Əsədlə ilə görüşüb regiondakı gərgin vəziyyəti übəüz müzakirə etmək təşəbbüsü ilə çıxış edib. Lakin qarşı tərəf bundan yayınıb. Türkiyə–Suriya münasibətlərində dərin çatlar yaranıb. Ankaranın Dəməşqdən haqq-hesab sormağa mənəvi və hüquqi haqqı var. Türkiyə Suriyadakı qarşıdurmalardan, hələlik, ən çox zərər çəkən dövlətlərdəndir.

Belə ki, 10 ildən çoxdur Türkiyə ərazisində 4 milyondan çox suriyalı qaçqın məskunlaşıb və bu da qardaş ölkənin büdcəsinə ağır yükdür. Beynəlxalq hüquq işləmir və dünya suriyalı köçkün ailələrinin öz ata-baba yurdlarına qayıtmaq tələbini gözardı edir. Hələbin azad edilməsi ilə qaçqınların böyük bir qisminin geri qayıtması təmin oluna bilər.

Okeanın o tayında, yəni ABŞ-də təbii ki, Yaxın Şərqdəki, eləcə də Suriyadakı son prosesləri diqqətlə izləyirlər. Məlumdur ki, ABŞ dövlət katibi Antoni Blinken Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə telefon əlaqəsi saxlayıb. Amerikanın rəsmi mövqeyi belədir ki, regiondakı aktorlar, eləcə də Türkiyə özünün imkanları və təsir vasitələrindən mülki əhalinin müdafiəsi və nəticədə, siyasi prosesin irəliləməsi üçün istifadə etməlidir.

ABŞ Dövlət Departamentinin sözçüsü Metyü Miller isə deyib ki, ABŞ-nin Suriya Prezidenti Bəşər Əsədə, onun xalqına qarşı yanlış və zərərli idarəçilik metoduna münasibətdə siyasəti dəyişməyib. Eyni zamanda Miller Vaşinqtonun əvvəllər dəfələrlə bəyan edildiyi kimi, Əsədin vəzifəsini tərk etməsini istəyib-istəmədiyini dəqiqləşdirməkdən imtina edib.

Əslində, Suriyada hazırkı şəraitdə siyasi hakimiyyətdə kimin olması o qədər də böyük əhəmiyyət kəsb etmir. Ölkənin və xalqın taleyi ağır vətəndaş müharibəsinə cəlb olunan tərəflərdən məhz kimin döyüş meydanlarında üstün gəlməsindən asılıdır.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Cənubi Koreyada siyasi böhran



**Ötən gün dünyanın qaynar nöqtələrinə Cənubi Koreya paytaxtı da əlavə olunub. Seulda elan edilmiş fövqəladə hərbi vəziyyətlə əlaqədar parlament binasına giriş-çıxış dayandırılıb.**

Bu barədə Yonhap agentliyinin məlumatında bildirilib ki, ölkə Prezidenti Yun Sok Yolun televiziya ilə xalqa müraciətində Şimali Koreyanı dəstəkləyən qüvvələri aradan qaldırmaq və konstitusiya qaydasını dəstəkləmək üçün ölkədə fövqəladə hərbi vəziyyət elan etməsindən sonra müdafiə naziri ordunun komandanlığı ilə vacib görüş çağırıb, sayıqlığın artırılmasını tələb edib. Ordunun fövqəladə hazırlıq vəziyyətində olması əmr edilib.

Ordunun qərargah rəisi, general Park An-sunun imzaladığı əmrlə yerli vaxtla saat 23:00-dan ölkədə bütün siyasi fəaliyyət, o cümlədən Milli Assambleya ilə əlaqəli siyasi fəaliyyət, yürüş və etiraz aksiyaları, siyasi partiyaların fəaliyyəti qadağan olunub. O, əmrin demokratiyanı və xalqın təhlükəsizliyini ölkəni təhdid edən antidövlət qüvvələrdən qorumaq üçün verildiyini bildirib. Əmr bütün media və nəşr fəaliyyətlərini də nəzarət altına alır.

Bu qərar əsas müxalif qüvvə olan Demokratiya Partiyasının parlamentdə dövlət büdcəsinin azaldılmasını tələb edən qanun layihəsini irəli sürməsindən, habelə dövlət auditoruna və baş prokurora impiçment üçün vəsatət qaldırmasından sonra qəbul edilib. Hakim Xalqın Gücü Partiyasının lideri Han Donq-hun dövlət başçısının hərbi vəziyyət qərarını səhv addım hesab etdiyini, bu qərarı xalqla birlikdə bloklayacağını deyib.

***XQ***

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*Videodivar (Videowall) sisteminin satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Videodivar (Videowall) sisteminin satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 12 dekabr 2024-cü il saat 17.00-dır .

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

# Heyvanlara mərhəmət insanı nəcibləşdirir

## *Canlılarla rəhmsiz rəftar cəzalandırılmalıdırmı?*

**Azərbaycanda heyvan haqları ilə bağlı qəbul edilən qanunlar və dəyişikliklər onların qorunmasına, bu canlılara qarşı qəddarlığa görə cəzaların sərtləşdirilməsinə yönəlib. Ötən həftəsonu Milli Məclis heyvanlarla rəhmsiz rəftar edilməsinə görə cərimələrin artırılmasını son oxunuşda təsdiqləyib. Təklif olunan dəyişikliyə görə, heyvanlarla rəhmsiz rəftar edilməsinə, yəni onlara ağrı, əzab, işgəncə verilməsinə, onların döyülməsinə və ya döyüşdürülməsinə görə 500 manatdan 800 manatadək məbləğdə cərimə ediləcək.**



Bu gün heyvansevərlər necə düşünürlər? Ölkəmizdə heyvan haqları kifayət qədər qorunurmu?

***"Canlı Aləmin Mühafizəsi Alyansı" İctimai Birliyinin sədr əvəzi Arzu Gülmalıyeva qəzetimizə açıqlamasında bildirdi ki, qəbul edilən qanun və qərarlar cəmiyyətin hazırlıq səviyyəsinə uyğun olmalıdır:***

– Təqdirəlayiq haldır ki, heyvanlarla rəhmsiz rəftar edilməsinə görə cərimələrin artırılması qərara alınıb. Amma qərarlarla cəmiyyətin hazırlıq səviyyəsi uyğun olmayanda onu yerinə yetirmək də müşkül olur. Cəmiyyətin maarifləndirilməsində media mühüm rol oynayır. Amma televiziya verilişlərində, eləcə də digər media subyektlərində bu mövzu birtərəfli işıqlandırılır. Məsələn, küçə itlərinin çoxalması ilə bağlı veriliş gedir. Küçə itlərinə qarşı mübarizə ilə bağlı müzakirələr açılır. Amma küçə heyvanlarının son illər çoxalmasının səbəbləri göstərilmir. Cəmiyyəti bu mövzuda maarifləndirəcək mövzular yox dərəcəsindədir. Dördayaqlı dostlarımız bizdən mərhəmət umurlar. Cavabında qəddarlıq, işgəncə görürlər. Düzdür, bunun qanunlarla tənzimlənməsi çox yaxşıdır. Amma, hamı bunu eyni cür dərk edirmi? Sorğu aparsanız insanların əksəriyyəti "Siz yaxşısı budur, insan haqlarının qeydinə qalın", – deyəcək.

***Arzu xanım heyvanlara qarşı işgəncələrlə bağlı çoxlu videoların yayıldığını bildirdi:***

– Əvvəllər cərimə 500 manat idi. Onu belə ödətdirməkdə çətinlik çəkirdilər. Məsələn, rayonların birində tülkünü vəhşicəsinə öldürüb, video çəkmişdilər. Özüm də sosial şəbəkədə paylaşmışdım. Onu çağırıb, cərimələdilərmi? Bu barədə heç bir məlumat verilmədi. Bildiyimə görə, imkanı olmadığına görə cərimə ödəməyib. Bu cür neqativ hallara yanaşma sistemli şəkildə olmalıdır. Əgər cərimə ödəməyə imkanı yoxsa, o zaman ictimai işlərə cəlb olunmalıdır. Heyvan sığınacaqlarında təmizlik işləri aparmaq, onlara qulluğa cəlb edilməlidir. Belə insanlarda həm heyvanlara qarşı fobiyaları yox olur, digər tərəfdən onlara sevgiləri yaranır.

***Heyvansevər Nərgiz Əmirova da cərimələrin artırılmasının yaxşı hal olduğunu dedi:***

– Bu, bizi sevindirir. Cərimələr nə qədər artırılsa, insanlar da bir o qədər məsuliyyətli olarlar. Yeni qanunlara görə cərimələrin miqdarı 2 min manatadək artacaq. Amma bir sual düşündürür. Bu cərimələrin ödənməsi nə qədər realdır. Məsələn, sürücülər qayda pozuntusuna görə, tez-tez cərimələnirlər. Sosial şəbəkələrdə bununla bağlı çoxlu məlumatlar var. Onlar bəzən qayda pozuntusunu bilərəkdən törətmədiklərini bildirilər. Heyvanlara qarşı qəddar münasibətə görə çoxlu fakt ictimailəşdirilib, videolar yayılıb. İt döyüşdürənlər açıq-aşkar videolar nümayiş etdirirlər. Onların cərimələnməsi, yaxud məsuliyyətə cəlb olunması ilə bağlı heç bir fakt yoxdur. Heyvanlarla rəhmsiz rəftar edənlər doğrudanmı cəzalandırılır? Bununla bağlı statistika varmı? Düşünürük ki, heyvanlarla qəddar davranan insanlara cərimələr tətbiq edə bilmirlər.

Bəli, heyvanlara qayğı o zaman tam olacaq ki, cəmiyyət özü bunu istəsin. Mediada bu mövzu ilə bağlı hər gün maarifləndirici məlumatlar olmalıdır. Gələcək nəsli "təmiz dünya" üçün yetişdirmək borcumuzdur. Onlar "kiçik dostlarımıza" sevgi ilə böyüməlidirlər ki, gələcəkdə onların qayğısına qala bilsinlər. İnsanlara heyvanların qarşılıqsız sevgisini göstərə bilsək, o zaman cəmiyyət də dəyişəcək.

***Leyla QURBANOVA***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki" Zığ GTTZ"-nin müxtəlif hava kompressorlarının təmiri xidmətlərinin (mal-material daxil olmaqla) satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il dekabrın 10-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1177.

Ünvan – AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

*Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar korporativ hədiyyələrin alınması məqsədilə satınalma*

MÜSABİQƏSİ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 14 dekabr 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- +994 12 -599 -00- 03 (daxili 3704).

Ünvan – AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

"Çınqıl-Servis" ASC səhmdarlarının nəzərinə!

9 dekabr 2024-cü il saat 11.00-da "Çınqıl-Servis" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı İmişli rayonunun Çaxırlı kəndində "Çınqıl-Servis" ASC-də keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Əmlakın borc qarşılığında əvəzləndirilməsi .

2. Maliyyə ilinin yekunlarına aid hesabat.

3.ASC-nin hüquqi statusunun dəyişdirilməsi .

4.Digər məsələlər.

Ünvan–İmişli rayonu, Çaxırlı kəndi, "Çınqıl-Servis" ASC.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 267 (30671) 4 dekabr 2024-cü il, çərşənbə

# Qrıza qar yağıb

**Quba rayonunun yüksək dağlıq ərazilərinə qar yağıb.**



Rayonda yerləşən Şimal-Şərq Regional Hidrometeorologiya Mərkəzindən mətbuata bildiriblər ki, Qrız kəndində qar örtüyünün hündürlüyü 12, Xınalıqda isə 1 santimetrdir. Qar yağması ilə əlaqədar dağlıq ərazilərdə temperatur düşüb. Ən minimal temperatur - mənfi 8 dərəcə Qrız kəndində qeydə alınıb.

*XQ*

## OXUCULARIN NƏZƏRİNƏ!

**“Xalq qəzeti”**

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.


8 NOYABR ZƏFƏR GÜNÜDÜR!
Xalq qəzeti
44 günlük Vətən müharibəsi 33 illik Qarabağ münaqişəsinə son qoydu
Qarabağ Zəfərinin dərsləri

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

İdman

## Əsrin ən yaxşı futbol məşqçiləri

**“Goal” nəşri XXI əsrin ən yaxşı futbol məşqçilərinin adlarını açıqlayıb.**



“Mançester Siti”nin baş məşqçisi Xosep Qvardiola birinci pillədə qərarlaşıb. İspaniya təmsilçisi “Real”da işləyən Karlo Ançelotti 2-ci, İngiltərənin “Mançester Yunayted” komandasının sabiq baş məşqçisi Aleks Ferqyuson 3-cü sırada yer alıblar.

Sonrakı pillələrdə Joze Mourinyo, Yurgen Klopp, Zinəddin Zidan, Dieqo Simeone, Visente Del Boske, Luis Enrike, Antonio Konte, Arsen Venger, Unay Emeri, Roberto Mançini, Lionel Skaloni və Didye Deşam qərarlaşıblar.

## UEFA “Qarabağı” cərimələyib

**UEFA “Qarabağ” klubunu 26 min avro cərimə edib.**

Buna səbəb komandanın Bakıda “Ayaks”a (Niderland) qarşı keçirdiyi UEFA Avropa Liqası matçında yaşananlar səbəb olub.

“Köhlən atlar” “komandanın düzgün olmayan davranışı”na (3 qırmızı, 5 sarı vərəqə) görə 14 min avro ödəyəcək. Həmin oyunda lazerdən istifadə olunduğu üçün isə Ağdam təmsilçisi 12 min avro cərimələnib.

Qeyd edək ki, UEFA Avropa Liqasında Liqa mərhələsinin III turunun qarşılaşması qonaqların qələbəsi ilə yekunlaşıb - 3:0. “Qarabağ”ın heyətində Julio Romao ilə məşqçi Çudomir Çakarov qırmızı vərəqə alıblar.

*L.QURBANOVA*
*XQ*

# Bakı tramvaylı şəhər idi...

## *Bu nəqliyyat növünə yenidən ehtiyac yaranıb*

**Son illər mətbuatda tez-tez Bakıda tramvay xəttinin bərpa ediləcəyi barədə məlumatlar yer alır. Bu, “Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı”nda nəzərdə tutulub. Sənədə əsasən, 2027-ci ilə qədər 17,3 kilometr tramvay relslərinin çəkilməsi və bu marşrut üzrə 26 dayanacağın yaradılması təklif olunur. 2040-cı ilə qədər isə relslərin uzunluğu 54,6 kilometrə, dayanacaqların sayı 78-ə çatdırılmalıdır. İstənilən halda belə bir ideya var.**

…Bu gün dünyanın müxtəlif ölkələrinin nəqliyyat sektorunda tramvay və trolleybusların özünəməxsus yeri var. Lakin Azərbaycanda onlar tarixin arxivinə gömülüb. İndi paytaxtın yaşlı sakinləri o dövrü heyifsilənərək xatırlayırlar. Biz də bu tarixi nəzərdən keçirək.

Bakıda sərnişinlər tramvaydan əvvəl konkadan (polad rels xətti ilə işləyən fayton) istifadə edib. XIX əsrin sonlarında şəhərdə tikinti-quruculuq işləri sürətlə aparılırdı. Neft quyularının bir-birinin ardınca fontan vurması şəhəri “qara qızıl” mərkəzinə çevirirdi. Buna müvafiq olaraq yeni sənaye müəssisələri yaranır, işçilərin sayı sürətlə artırdı. Fəhlələrin iş yerlərinə çatdırılması üçün nəqliyyat vasitələrinə ehtiyac duyulurdu. Belə bir vaxtda Hacı Zeynalabdin Tağıyev 5 nəfər səhmdarla şirkət yaratdı və bu şirkət tərəfindən şəhərdə konka yolu çəkilməyə başlanıldı. 1889-cu ildə Bakıda konka var idi. Konkaya, adətən, 2, yoxuş olan küçələrdə 3-cü at qoşulurdu. Havalar soyuduqda isə qış konkası xəttə buraxılırdı. Bakı isə sürətlə böyüyürdü. Bu səbəbdən nə faytonlar, nə də konka neft paytaxtının tələbatını ödəyirdi.



Konkanı tez bir zamanda tramvay əvəz etdi. XX əsrin əvvəllərində Rusiyanın bir çox şəhərlərində elektrik cərəyanı ilə işləyən tramvaylar vardı. Tarixçi Əmirxan Burzuyevin sözlərinə görə, 1903-cü ildə Bakıda tramvay xətlərinin salınması barədə Şəhər Dumasına təklif gəldi. Bakıda tramvayın istismarı 1913-cü ildə nəzərdə tutulurdu. Birinci tramvay xətti 27 verst (təxminən 29 km) olub. Xətt 3 il ərzində tikilməli, Ağ şəhəri, Balaxanı şossesini, Salyan kazarmalarını, Dağlıq hissəni və Bayılı şəhərin mərkəzi ilə birləşdirməli idi. Lakin bu plan həyata keçmədi.

20 ildən sonra, 1923-cü ilin yanvar ayında RSFSR Əmək və Müdafiə Şurasının qərarı ilə Bakıda tramvay xəttinin tikintisinə start verildi. Relslər və bəndlər Rusiya və Ukrayna zavodlarından gətirilirdi. Bakı zavodları da bu işdə fəal iştirak edirdilər. Bu tikintiyə bütün şəhər qoşulmuşdu. Nəhayət, 1924-cü il fevralın 8-də Bakı küçələrində Dəmiryol vağzalı ilə Azneft meydanını birləşdirən ilk tramvay göründü. Şəhərdə tramvayla sərnişinlərə xidmət etmək şərəfi Aleksandr Lisovski soyadlı bir şəxsə nəsib oldu. İlk saatlar tramvayın xidmətindən pulsuz istifadə edildi və bu, şəhərdə böyük bayram kimi qeyd edildi. 1924-cü ilin sonunda Bakı tramvayı 72 vaqonla, uzunluğu 35,9 km olan xətdə işləyirdi.

Bundan sonra atlar qoşulmuş konkalara ehtiyac qalmadı. Tramvay isə şəhərin nəqliyyat təsərrüfatına möhkəm daxil oldu. Lakin tramvayın istismara verilməsi ilk dövrlərdə şəhər sakinləri arasında narahatlığın yaranmasına səbəb olurdu. Bu, onların hərəkəti zamanı evlərin silkələnməsi ilə bağlı idi. Tramvayın səs-küyü də insanları qıcıqlandırırdı. “Dədəm vay, nənəm vay. Bakıya gəldi tramvay” – ifadəsi də həmin dövrlərdə yaranıb.

Lakin zaman keçdikcə narahatlıqlar aradan qalxdı və onun xidmətlərindən istifadə edən sərnişinlərin sayı sürətlə artmağa başladı. Paytaxtda tramvay xətlərinin sıx şəbəkəsi yaradıldı. Qısa müddətdə şaxələnən tramvay xətti 1925-1926-cı illərdə Bakıda 50 milyondan artıq sərnişini mənzil başına çatdırmışdı. 1966-cı ildə yolun uzunluğu artıq 102,5 km-ə çatmışdı. Tramvayın köməyi ilə sənaye müəssisələrinə, təhsil ocaqlarına, idman obyektlərinə, ticarət mərkəzlərinə asanlıqla getmək mümkün idi. O, həm də ekoloji cəhətdən daha səmərəli olması ilə fərqlənirdi. Atmosferi indiki yerüstü nəqliyyat vasitələri kimi zəhərli qazlarla çirkləndirmirdi.

Sonralar paytaxtda daha bir elektrik nəqliyyatı–trolleybus görünməyə başladı. İlk trolleybus Bakı küçələrində sərnişinlərə 1941-ci ildən xidmət göstərdi. 7,5 kilometrlik xəttə 15 trolleybus fəaliyyət göstərmişdi. Beləliklə, bu elektrik nəqliyyat vasitələri paytaxtda sərnişinlərin daşınmasında aparıcı rol oynayırdı. 1967-ci ilədək onlar öz liderliyini heç bir nəqliyyat növünə vermədilər. Tramvay və trolleybus üçün ilk təhlükə də məhz həmin ildən yarandı. Avtobus nəqliyyatının inkişafı və metropolitenin 1967-ci ildə istifadəyə verilməsi tramvay və trolleybusa marağı azaltdı.

Bakı Metropoliteninin birinci növbəsinin 6 stansiyadan ibarət birinci sahəsi 1967-ci il noyabrın 6-da istifadəyə verilmişdi. Həmin vaxtdan başlayaraq yeni metro stansiyalarının tikintisi aparıldı. Bu gün də davam etdirilir. Sərnişinlər şəhərin müxtəlif rayonlarına qısa vaxt ərzində rahat getmək imkanı qazandılar. Nəticədə hər il metropolitenin xidmətindən istifadə edən sərnişinlərin sayı artmağa başladı.

Aydındır ki, bu, tramvay və trolleybuslardan nəqliyyat vasitəsi kimi istifadə edənlərin sayının azalmasında özünü göstərdi. Artıq ötən əsrin 90-cı illərində bu sahədə vəziyyət kritik nöqtəyə çatdı. Xəttə çıxan tramvay və trolleybuslar planı yerinə yetirə bilmədilər. SSRİ dağıldıqdan sonra, ümumiyyətlə, Azərbaycana tramvay gətirilməsi dayandı. Eyni zamanda, onların hissələri də gətirilmədi. Bu səbəbdən də, xəttə köhnə, istismar müddətini başa vurmuş və sərnişin daşıması üçün yararsız tramvaylar çıxarıldı. Bəzən istifadədən çıxarılmış bir neçə maşın hissələrindən bir tramvay təmir edilərək marşrutdakı boşluğu doldurmaq üçün istifadə olunurdu. Onlar o qədər köhnə idi ki, sərnişinlər tramvaya minmək istəmirdilər. Xüsusilə oturacaqlardan adam diksinirdi və o hərəkət etdikcə salonu toz bürüyürdü.

Yeni tramvayların alınması üçün böyük məbləğdə vəsait tələb olunurdu. Məsələn, tramvayın modelindən asılı olaraq o dövrdə qiymət 300–400 min dollar arasında dəyişirdi. Bakının tramvay parkını yeniləşdirmək üçün ən azı 30–40 milyon dollar tələb olunurdu. Gəlirlə işləməyən nəqliyyat vasitələrinin alınması üçün bu rəqəm böyük məbləğ idi. SSRİ dağıldığından ölkəmizin iqtisadi vəziyyəti də pisləşmişdi. Büdcədən vəsait ayrılmadığından yeni tramvayların Bakıya gətirilməsi də mümkün olmurdu. Nəticədə tramvaylar bir-birinin ardınca sıradan çıxarılırdı.



Tramvay və trolleybusların tədricən sıradan çıxmasının əsas səbəblərindən biri də marşrutlarda avtobuslarla yanaşı, mikroavtobusların istifadəsi oldu. “Qazel”lərin, köhnə avtobusların Bakı küçələrinə gəlişi onların ömrünü finala yaxınlaşdırdı. Bu işdə Nəqliyyat Nazirliyi ilə Bakı Şəhər İcra Hakimiyyəti də əsas rol oynadılar. İstər ötən əsrin 90-cı illərində, istərsə də bu əsrin əvvəllərində tramvay xətlərinin çəkilməsi nəinki dayandırıldı, əksinə, mövcud yollar söküldü. Xətlər söküldükcə küçələrdə elektrik nəqliyyat vasitələrinin sayı da azalmağa başladı... 2004-cü ildə tramvay şəbəkəsinin son xətti – metronun Xətai stansiyası – Montin bazarı tamamilə bağlandı və relslər söküldü. Bir də gözümüzü açdıq ki tramvay deyilən nəqliyyat vasitəsi paytaxtdan yerli-dibli yığışdırılıb. Bu ərazilərdə çoxmərtəbəli binalar tikilib.

Yuxarıda qeyd etdiyim kimi, tramvay elektriklə işlədiyindən atmosferi zəhərli qazlarla çirkləndirmir. Bu səbəbdən də Avropa ölkələrində və ABŞ-də ondan geniş istifadə olunur. Demək olar ki, əhalisi 200 mindən çox olan əksər Avropa şəhərlərində tramvaylar işləyir. Heç kim bu nəqliyyat növünə keçmişin qalığı kimi baxmır. İkincisi, onun tikintisi metrodan 10–15 dəfə ucuz başa gəlir.

Avropada tramvaylar həm də müasir dövrə uyğun olaraq modernləşdirilib. İndi qədim şəhərlərin tarixi mərkəzlərində tramvaylar ən arzuolunan nəqliyyat vasitəsidir.



Turistlər şəhərlə yaxından tanış olmaq üçün məhz onların xidmətindən istifadə edirlər. Həm müasir, həm də retro tramvaylarla şəhərin görkəmli yerləri ilə tanış olurlar. Bu tramvaylar rahatlığı və təmizliyi ilə seçilirlər. Bizim ölkədə də xarici ölkələrin bu təcrübəsindən istifadə edərək, bəzi küçələrdə tramvay xətlərini yenidən bərpa edə bilərik. Qalır təşəbbüs göstərmək!

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

Hava

## Əksər rayonlarda yağmursuz, şimal bölgəsində yağış və duman



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 4-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-şərq küləyi əsəcək. Gecə 6-8°, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 768 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə Quba-Qusar zonasının bəzi yerlərində arabir leysan xarakterli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-5° , gündüz 6-11° isti, dağlarda gecə 6-11° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

*Q. QASIMOV*
*XQ*

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2794
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00